RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 152 (10172) 25 avqust 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# ƏBƏDİ DOSTLUQ

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri



2-7

## Ş.M.Mirziyoyevin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Özbəkistan Respublikasının Prezidenti Şavkat Miromonoviç Mirziyoyev "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2026-cı il*

## Prezident İlham Əliyevin sosial media hesablarında Özbəkistana dövlət səfərinə dair videoçarx paylaşılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında Özbəkistana dövlət səfəri ilə bağlı videoçarx paylaşılıb.**



## İlham Əliyev Kasım-Jomart Tokayevi təbrik edib

### Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının yeni parlamenti - Qurultaya keçirilən ilk seçkilərin uğurla baş tutması münasibətilə Sizə və qardaş xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Qazaxıstanın ictimai-siyasi həyatında yeni tarixi mərhələnin başlanğıcının rəmzi olan bu mühüm hadisənin ölkənizin hərtərəfli inkişafına, həyata keçirdiyiniz genişmiqyaslı islahatların davam etdirilməsinə və qarşıda duran vəzifələrin gerçəkləşdirilməsinə xidmət edəcəyinə əminliyimi bildirirəm. Qurultayın işinə müvəffəqiyyətlər arzulayıram.

Ortaq köklər, milli-mənəvi dəyərlər və qardaşlıq telləri ilə sıx bağlı olduğumuz Qazaxıstanla əlaqələrimizin inkişaf etdirilməsi bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Sizinlə apardığımız fəal və səmərəli siyasi dialoq Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlığının daha da möhkəmlənməsinə və yeni məzmun kəsb etməsinə təkan vermişdir.



İnanıram ki, sağlam təməllər üzərində qurulmuş Azərbaycan-Qazaxıstan dostluq əlaqələri və strateji tərəfdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və dərinləşməyə davam edəcəkdir.

Fürsətdən istifadə edərək, bir daha Sizə təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Qazaxıstan xalqına isə daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2026-cı il*

## "Biz dost Ukrayna xalqına bundan sonra da humanitar dəstək göstərməyə davam edəcəyik"

### Ukraynanın Prezidenti zati-aliləri cənab Volodimir Zelenskiyə

Hörmətli cənab Prezident!

Əlamətdar ildönümü - Ukraynanın müstəqilliyinin 35 illiyi münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Zəngin ənənələrə malik Azərbaycan-Ukrayna dostluq əlaqələrinin hazırkı səviyyəsi məmnunluq doğurur. Siyasi dialoqumuz, yüksəksəviyyəli qarşılıqlı səfərlər, iqtisadi və humanitar sahələrdə əməkdaşlıq strateji tərəfdaşlığımızın mühüm cəhətlərindəndir. Enerji sahəsində uzun illərdən bəri davam edən səmərəli əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim.

Bu ilin aprelində Azərbaycana həyata keçirdiyiniz işgüzar səfərin nəticələrini, Sizinlə görüşümüzü yüksək qiymətləndirirəm. Şübhəsiz ki, müntəzəm görüşlər və təmaslarımız, ölkələrimizin ərazi bütövlüyü və suverenliyi məsələlərində qarşılıqlı dəstəyimiz dövlətlərarası əlaqələrimizin möhkəmlənməsini şərtləndirən əsas amillərdəndir.



Ali səviyyədə fəal dialoqun mövcudluğu müxtəlif sahələrdə, xüsusilə də ticari-iqtisadi, humanitar, kənd təsərrüfatı, investisiya və digər sahələrdə əməkdaşlığımızın dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır. Biz dost Ukrayna xalqına bundan sonra da humanitar dəstək göstərməyə davam edəcəyik.

İnanıram ki, xalqlarımızın mənafeləri naminə Azərbaycan-Ukrayna dostluq əlaqələrinin gücləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Ukrayna xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2026-cı il*

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# ƏBƏDİ DOSTLUQ

## "Daşkənd-Xumo" Beynəlxalq Hava Limanında qarşılanma

**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasına dövlət səfərinə gedib.**

AZƏRTAC xəbər verir ki, "Daşkənd-Xumo" Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva qarşıladılar.



## Daşkənddə Müstəqillik abidəsini ziyarət





**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Qeyd edək ki, bu abidə Özbəkistanın müstəqilliyinin 30 illiyi münasibətilə "Yangi Uzbekiston" ("Yeni Özbəkistan") kompleksinin mərkəzində ucaldılıb. Müstəqillik abidəsini sülh, azadlıq, xeyirxahlıq və xoşbəxtliyi tərənnüm edən, qanadları geniş açılmış Humay quşunun obrazı tamamlayır. Abidə Prezident Şavkat Mirziyoyevin tapşırığı ilə layihələndirilib.

## Azərbaycan Prezidenti və birinci xanım Daşkənddə Ümummilli Liderin barelyefi önünə gül dəstələri qoyublar



Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşkənddəki Heydər Əliyev Meydanında Ümummilli Liderin barelyefi önünə gül dəstələri qoyublar.

## Daşkənddə Prezident İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub

**Avqustun 23-də Daşkənddəki "Kuksaroy" Dövlət İqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Özbəkistanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qarşıladı.

Azərbaycanın və Özbəkistanın Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Özbəkistanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Şavkat Mirziyoyevə təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Dövlət başçıları birgə foto çəkdirdilər.





## Azərbaycan ilə Özbəkistan prezidentləri və birinci xanımlar "Kuksaroy" Dövlət İqamətgahında birgə foto çəkdiriblər

Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və birinci xanım Ziroatxon Mirziyoyeva Daşkənddə "Kuksaroy" Dövlət İqamətgahında birgə foto çəkdirdilər.



## Azərbaycan və Özbəkistan prezidentlərinin təkbətək görüşü



Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olub.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# ƏBƏDİ DOSTLUQ

## Daşkənddə Azərbaycan və Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclası keçirilib

**Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan və Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Özbəkistan ilə Azərbaycan arasında dostluq, ticarət və investisiya əməkdaşlığı haqqında qısa film nümayiş olundu.

Sonra **Özbəkistan Prezidenti Şavkat Mirziyoyev** çıxış edərək dedi:

- Hörmətli İlham Heydər oğlu, əziz qardaşım. İclasın hörmətli iştirakçıları.

Sizi və qardaş Azərbaycan nümayəndə heyətini Daşkənddə bir daha səmimi-qəlbdən salamlayıram. Özbəkistana xoş gəlmisiniz.

Sizin səfəriniz bizim üçün ortaq tarix, mədəni yaxınlıq və qarşılıqlı hörmətlə bir-birinə bağlı olan, ruhən yaxın dövlətlərin görüşüdür. Bu gün Ali Dövlətlərarası Şuranın artıq üçüncü iclasını açırıq. Bu mexanizmin qüsursuz fəaliyyəti ölkələrimizin əldə etdiyi müttəfiqlik münasibətlərinin ən yüksək səviyyəsinin ən yaxşı nümayişidir.

Gündəlikdəki məsələlərə keçməzdən əvvəl, hörmətli İlham Heydər oğlu, Sizi Azərbaycanda həyata keçirdiyiniz uzaqgörən dərin islahatlar kursunun uğurla reallaşdırılması münasibətilə təbrik etmək istəyirəm. Biz qardaşlar və müttəfiqlər olaraq Azərbaycan iqtisadiyyatının necə dinamik və dayanıqlı inkişaf etdiyinə, yeni sahələrin və müasir infrastrukturun yaradılmasına səmimi-qəlbdən sevinirik. Bütün bunlar Azərbaycan xalqının rifahının sabit şəkildə yüksəlməsinə gətirib çıxarır. Sizin qətiyyətlə həyata keçirdiyiniz suveren siyasət ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsinə, Cənubi Qafqazda sülh və quruculuq gündəliyinin irəlilədilməsinə xidmət edir.

Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin tarixi görüşünü və Birgə Bəyannamənin imzalanmasını Sizin şəxsi diplomatiyanızın parlaq qələbəsi kimi qiymətləndiririk. Sizi bir daha təbrik edir, Sizə yeni böyük uğurlar arzulayıram.

Hörmətli iclas iştirakçıları.

Biz ikitərəfli münasibətlərimizi tamamilə tarixi bir zirvəyə çatdırmışıq. Bunun təsdiqi kimi, hazırkı sammitin yekunları üzrə Əbədi dostluq haqqında tarixi müqavilənin imzalanmasını göstərmək olar.

Ən başlıcası odur ki, strateji tərəfdaşlığımızın və müttəfiqliyimizin hər bir müddəası konkret, real işlərdə öz əksini tapır. Son beş ildə qarşılıqlı ticarətin həcmi 3 dəfə artıb, birgə layihələrin ümumi portfeli isə 5 milyard dolları ötüb. Bu da heç də son hədd deyil. Səfərə hazırlıq çərçivəsində Hökumətlərarası Komissiyanın iclası, Biznes Şurasının və Regionlar Forumunun toplantıları uğurla keçirilib və həmin tədbirlər çərçivəsində birgə layihə və proqramların icrası üzrə sıçrayış xarakterli təşəbbüslər hazırlanıb. İndi iki ölkənin hökumətlərinin, nazirliklərinin və idarələrinin əsas vəzifəsi onların səmərəli icrasını təmin etməkdir. Biz Dövlətlərarası Şuranın iclasını hər dəfə keçirərkən İlham Heydər oğlu ilə birlikdə həmişə sizə deyirik ki, məsələləri ciddi nəzarətə götürəcəyik.

Hərtərəfli əməkdaşlığımızın prioritet istiqamətlərini qısaca diqqətinizə çatdırmaq istəyirəm:

Birincisi, regional və beynəlxalq platformalarda ortaq maraqlarımızı təşviq etmək məqsədilə xarici siyasət idarələrimiz arasında sıx koordinasiyanı davam etdirmək vacibdir. Həmçinin məhdud formatda parlamentlər, hökumətlər, nazirliklər, idarələr və bölgələrimiz arasında əlaqələrə güclü təkan vermək barədə razılığa gəldik.

İkincisi, indi dediyim kimi, ən yaxın hədəfimiz 1 milyard dollarlıq ticarət dövriyyəsi həddinə çatmaqdır. Bunun üçün əsas bu gün qəbul etdiyimiz və həmin mühüm mərhələyə çatmaq üçün konkret tədbirləri müəyyənləşdirən proqram olacaq.

Üçüncüsü, sənaye kooperasiyasının dərinləşdirilməsinə xüsusi diqqət yetiririk. Ölkələrimizin biznes icmaları geologiya, energetika, kimya, maliyyə, tikinti, kənd təsərrüfatı və digər sahələrdə bir sıra layihələri uğurla həyata keçirir. Bu iclas çərçivəsində yeni layihələrə start verəcəyik. Təşəbbüsləri dəstəkləmək üçün birgə investisiya şirkətindən vəsaitləri fəal şəkildə cəlb etməliyik. İlham Heydər oğlu ilə razılaşdıq ki, 500 milyon vəsaiti tez bir zamanda istifadə etməliyik, sonra isə bu fondu artıracağıq. Çünki onun vəsaitlərini düzgün istiqamətdə tətbiq etmək üzrə yaxşı birgə təcrübə əldə etmişik. Bugünkü iclasda ticarətin artırılması və əməkdaşlığın dərinləşdirilməsi üzrə müfəssəl planlarına dair Hökumətlərarası Komissiyanın həmsədrlərini dinləyəcəyik.

Dördüncüsü, nəqliyyat nazirlərimizin qarşısında ciddi vəzifələr durur. Orta dəhlizin inkişafı çərçivəsində Xəzərdə birgə donanmanın istifadəyə verilməsini sürətləndirməliyik. Həmçinin Xəzər dənizində vahid operatoru olan ayrıca Özbəkistan-Azərbaycan dəhlizi yaratmaqda maraqlıyıq.

Beşincisi, müttəfiqliyimiz çoxəsrlik ortaq tarixə və iki qardaş xalqın mədəni dəyərlərinin yaxınlığına əsaslanır. Bu zəngin irsi diqqətlə qorumaq və artırmaq, müntəzəm olaraq qarşılıqlı mədəniyyət günlərini lazımi miqyasda keçirmək bizim borcumuzdur. Həm də bu cür tədbirlər yalnız paytaxtlarda deyil, ölkələrimizin bölgələrində keçirilməlidir. Bu gün biz birlikdə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin yeni binasını açacağıq və Yeni Daşkənddə "Azərbaycan" parkının tikintisinə start verəcəyik.

Xalqlarımızı daha da yaxınlaşdırmaq üçün Nizami Gəncəvi ilə Əlişir Nəvai arasında birgə filmlərin, ədəbi körpünün yaradılmasını təklif edirik. Bu, xalqlarımız üçün gözəl yaxınlaşma imkanı və gənclər üçün nümunə olardı. Biz belə silsilə filmlər yaratmalıyıq.

Biz bu ilin payızında Azərbaycanda iki ölkənin aparıcı universitetlərinin rektorlarının ikinci forumunun keçirilməsini dəstəkləyirik. Gələn il ölkələrimiz mühüm idman tədbirinə - gənclər arasında futbol üzrə dünya çempionatına evsahibliyi edəcək. Bununla əlaqədar yarışlardan əvvəl keçirilən idman, mədəni və gənclər tədbirlərimizi bir araya gətirəcək genişmiqyaslı "İki ölkə - bir çempionat" proqramı hazırlamalıyıq. Həmçinin gənclərin təkcə idman arenalarında deyil, həm də intellektual fənlərdə yarışa biləcəyi Özbəkistan-Azərbaycan İdman Oyunlarının yaradılmasını təklif edirik. İlham Heydər oğlu, bunu komandalarımıza həvalə etsək, çox gözəl olardı.

Hörmətli iclas iştirakçıları.

Ölkələrimiz regional konsolidasiyanı və əməkdaşlığın gücləndirilməsini dəstəkləyir. Daşkəndin və Bakının regionlararası inteqrasiyanın əsas hərəkətverici qüvvələri kimi öz rollarını təmin etmələri sevindirici haldır. Azərbaycanın Məşvərət Görüşləri formatına qoşulması iki region arasında iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi üçün yeni üfüqlər açıb. Ortaq səylərlə səmərəli şəkildə yeni geoiqtisadi reallıq - birgə inkişaf üçün güclü potensiala malik vahid, özünü təmin edən makroregion yaradırıq.

Bu gün çoxşaxəli Özbəkistan-Azərbaycan tərəfdaşlığının digər məsələlərini də müzakirə edəcəyik. Bilməlisiniz ki, biz, sözün əsl mənasında, hər bir sahə üzrə əlimizdə qələmlə araşdırma aparmışıq. İlham Heydər oğlu ilə bütün digər istiqamətlərdə güclü, böyük layihələr həyata keçirmək üçün qarşılıqlı yaxşı istəyimiz var.

İlham Heydər oğlu, məmnunluqla sözü Sizə verirəm. Buyurun.

* * *

Qardaş Özbəkistana səfərə dəvətə, qonaqpərvərliyə, Azərbaycana və xalqımıza xoş münasibətinə, həmçinin ikitərəfli münasibətlərimizin inkişafına verdiyi şəxsi töhfəyə görə Prezident Şavkat Mirziyoyevə təşəkkürünü ifadə edən **Prezident İlham Əliyev** iclasdan əvvəl nümayiş etdirilən videoçarxda hazırda üzərində işlənilən layihələrin peşəkar şəkildə təqdim olunduğunu, onların bir hissəsinin artıq reallaşdığını, bir hissəsinin isə həyata keçiriləcəyini bildirib. "Əsas məsələ ondan ibarətdir ki, qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi ilə bağlı konkret gündəliyimiz var. Əminəm ki, artıq müəyyən edilmiş layihələr həyata keçirildikcə yeni layihələr də meydana çıxacaq və bu videotəqdimata daha çox vaxt lazım olacaq. Əslində, mən belə bir təqdimata çox müsbət mənada təəccübləndim, çünki burada bu gün bizi birləşdirən əsas istiqamətlər öz əksini tapıb".

Prezident İlham Əliyev iki ölkə arasındakı dostluq münasibətlərini və Özbəkistanın əldə etdiyi uğurları yüksək qiymətləndirərək deyib: "İlk növbədə, Sizi, hörmətli Şavkat Miromonoviç, Özbəkistandakı bütün qardaşlarımızı ölkənin inkişafında, onun potensialının möhkəmləndirilməsində, həm sosial-iqtisadi sahədə, həm də beynəlxalq arenada əldə olunan böyük uğurlar münasibətilə təbrik etmək istərdim. Bu gün Özbəkistan böyük beynəlxalq nüfuza malik dövlətdir. Bu isə ilk növbədə Sizin xidmətinizdir. Siz ölkəni inkişaf etdirmək, onun potensialını möhkəmləndirmək, o cümlədən Özbəkistanın beynəlxalq arenadakı rolunu gücləndirmək üçün yorulmadan çalışır, əmək sərf edirsiniz. Sizin də düzgün qeyd etdiyiniz kimi, biz ikitərəfli formatda, iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda həmişə bir-birimizi dəstəkləyirik. Bu, avtomatik rejimdə baş verir".

Dövlətimizin başçısı, həmçinin Cənubi Qafqazda gedən müsbət proseslərə verdiyi qiymətə görə Şavkat Mirziyoyevə təşəkkür edib. Bildirib ki, Cənubi Qafqazda sülhün təmin olunması nəticəsində bu gün region, nəhayət, rahat nəfəs ala və dinc inkişafın üstünlüklərini görə bilər.

Birgə İnvestisiya Fondunun potensialına toxunan Azərbaycan Prezidenti deyib: "Mənə məruzə ediblər ki, 500 milyon dollardan təxminən 160 milyonu artıq müəyyənləşdirilib. Təbii ki, düşünürəm, biz bu vəsaiti tezliklə istifadə edəcəyik və əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirəcəyik. Həmçinin deməliyəm ki, Azərbaycanın müxtəlif ölkələrlə bu cür əməkdaşlıq formatları var. Amma mən deyərdim ki, ən səmərəli və nəticəyönümlü fond məhz Özbəkistan-Azərbaycan İnvestisiya Fondudur. Lakin bizim nəzərdə tutduğumuz və artıq müqavilələri bağlanmış layihələr üzrə investisiyaların həcmi fondun həcmindən xeyli çoxdur. Bu təqdimatda deyildi ki, təkcə Özbəkistanın turizm sektoruna 5 milyard dollar investisiya yatırılması planlaşdırılır. Həmçinin Daşkənddə həyata keçirilən layihələr, - hotel kompleksləri və yaşayış kompleksləri, - bu İnvestisiya Fondunun çərçivəsindən kənardadır. Ona görə də ümumilikdə investisiya portfelinə baxsaq, onun müəyyən etdiyimiz 500 milyon dollardan xeyli böyük olduğunu görərik".

Prezident İlham Əliyev Qarabağın bərpa edilməsi prosesində göstərilən dəstəyə görə təşəkkürünü bildirərək vurğulayıb ki, Özbəkistan və onun dövlət başçısı azad olunmuş ərazilərə praktiki yardım göstərən ilk ölkə və ilk Prezident olub. "Mirzə Uluqbəy adına məktəb bu gün artıq orada təhsil ala biləcək şagirdlərin demək olar ki, hamısını qəbul edib. Məktəb təxminən 1000 nəfərlikdir, son məlumatlara görə isə orada artıq bir neçə yüz şagird təhsil alır və bu məktəb həm də dostluğumuzun, qardaşlığımızın bir rəmzidir. Həmçinin biz Sizinlə birlikdə Xankəndidə özbək dostlarımız tərəfindən rekord qısa müddətdə yaradılmış tikiş fabrikini ziyarət etmişik. Biz Xankəndidə birlikdə kollektivlə də görüşmüşük. Təbii ki, Qarabağ regionunda iş yerlərinin yaradılması, - xüsusilə qadınlar üçün, - hazırda böyük əhəmiyyət daşıyır. Yenə də müasir istehsal müəssisəsinin yaradılması və 200-dən çox iş yerinin açılması üzrə ilk investisiya layihəsi Özbəkistan tərəfindən həyata keçirilir. Buna görə Sizə çox minnətdaram", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Özbəkistanın avtomobil sənayesindəki təcrübəsinin bu gün Azərbaycana da ötürüldüyünü xatırladan dövlətimizin başçısı qeyd edib ki, ilk layihə həyata keçirilib, lakin hazırda tam istehsal dövründən söhbət gedir. Hacıqabulda 80 milyon dollardan çox investisiya yatırılması planlaşdırılır və ikinci zavod tikilir. Bu zavod, əslində, ölkəmizin avtomobil sənayesinə böyük təkan verəcək.

Kənd təsərrüfatının inkişafı ilə bağlı layihələrin də uğurla icra olunduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "Nəqliyyat-tranzit sahəsində artıq müəyyən nəticələrimiz var. Mənə məruzə ediblər ki, Özbəkistandan Azərbaycan ərazisindən yüklərin həcmi artır. Özbəkistan üçün bərə tikintisini də sürətləndirmək zəruridir. Şavkat Miromonoviçlə bu barədə danışmışıq. Məsələ həllini tapıb, sadəcə, bu layihəni prioritet siyahıya daxil etmək lazımdır. Hazırda gəmiqayırma zavodumuzda, eyni zamanda təxminən on müxtəlif modifikasiyalı - bərə, tanker və quru yük gəmiləri inşa edilir. Zavod indi yüz faiz gücü ilə işləyir".

Nəqliyyat sektorundakı layihələrə toxunan dövlət başçısı Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində işlərin fəal şəkildə davam etdirildiyini bildirib. Azərbaycanın əsas hissəsində bu layihənin gələn il başa çatacağını vurğulayan Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında da müvafiq işlərə başlanıldığını diqqətə çatdırıb. Konseptual yanaşmanın Naxçıvan dəmir yolunu Azərbaycan dəmir yollarının tərkib hissəsi kimi görməkdən ibarət olduğunu qeyd edən dövlət başçısı bu marşrut üzrə investisiya yatırmaq, mənfəət əldə etmək və daşıma həcmlərini təmin etmək istəyən maraqlı şirkətlər və ölkələrin iştirakı ilə beynəlxalq konsorsiumun yaradılmasının planlaşdırıldığını vurğulayıb.

"Məlumat üçün bildirmək istəyirəm ki, Ermənistanda da işlər gedir, amerikalı tərəfdaşlarımız bizi bu barədə müntəzəm məlumatlandırırlar. Bizə deyilənlərə görə, Ermənistan ərazisində tikinti ya bu ilin sonunda, ya da gələn ilin əvvəlində başlayacaq. Lakin oradakı məsafə cəmi 42 kilometrdir, Naxçıvan Muxtar Respublikasının ərazisində isə 194 kilometrdir. Bəli, buna görə də işə başladıq, bütün hallarda onu tamamlayacağıq. Amma müxtəlif şirkətlərdən maraq olduğunu bildiyimiz üçün sadəcə məlumat vermək istərdim ki, əgər maraq varsa, təklif olunan konsorsiumda iştirak etmək imkanı mövcuddur", - deyə dövlətimizin başçısı əlavə edib.

Həmçinin diqqətə çatdırılıb ki, Azərbaycan Bakıdan Ermənistan sərhədinə qədər təxminən 400 kilometr məsafədə olan mövcud dəmir yolu xəttinin bir hissəsini sıfırdan yenidən qurur və modernləşdirir. Xəttin Naxçıvan hissəsi isə təxminən 200 kilometrdir. Bu, Orta dəhlizin əhəmiyyətli bir qolu olacaq.

Azərbaycanın Mərkəzi Asiya ölkələrinin Məşvərət Görüşünə tamhüquqlu üzv kimi cəlb olunmasında Özbəkistan Prezidentinin xüsusi rolunu vurğulayan dövlətimizin başçısı bu qərarın Daşkənddə keçirilən görüşdə qəbul edilməsinin rəmzi məna daşıdığını diqqətə çatdırıb və buna görə təşəkkürünü ifadə edib. Azərbaycanın bu formatda tamhüquqlu iştirakının təmin edilməsində Özbəkistan liderinin şəxsi rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq çərçivəsində məsuliyyətlidir və bu işə böyük həvəslə yanaşır.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# ƏBƏDİ DOSTLUQ

## Prezidentlər Azərbaycanın Özbəkistanda həyata keçirdiyi layihələrin açılış və təməlqoyma mərasimində iştirak ediblər

**Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycanın Özbəkistanda həyata keçirdiyi layihələrin açılış və təməlqoyma mərasimində onlayn formatda iştirak ediblər.**



AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində "Davr Bank" (AR Beynəlxalq Bankı), Gips zavodu ("Matanat-A"), "Landau" adına STEAM (Science, Technology, Engineering, and Mathematics) iki məktəb ("Landau Education Group") layihələrinin açılışı olub. Həmçinin SOCAR-ın beş yeni yanacaqdoldurma məntəqəsinin, "Sea Breeze Uzbekistan" yaşayış və istirahət kompleksinin ("Agalarov Development"), "Baku City" yaşayış kompleksinin ("TuranAZ"), Gümüş tərkibli filizin emalı üzrə zənginləşdirmə fabrikinin ("Sur Gold and Silver Project") və Meyvə bağlarının ("Gold Fresh Fruits") layihələrinin təməlqoyma mərasimi keçirilib.

## Daşkənddə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması və mübadiləsi mərasimi olub



**Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan və Özbəkistan sənədlərinin imzalanma, həmçinin ölkələrimiz arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə"ni və "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının üçüncü iclasının Qərarı"nı imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Özbəkistan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsi arasında kinologiya sahəsində təcrübə mübadiləsi və əməkdaşlıq haqqında Memorandum"u Azərbaycanın Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov və Özbəkistan Gömrük Komitəsinin sədri Akmalxuja Mavlonov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov və Özbəkistan Turizm Komitəsinin sədri Abdulaziz Akkulov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov mübadilə etdilər.

"Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması üzrə Proqram"ı və "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında investisiyalar və ticarət sahələrində layihələrin həyata keçirilməsi üzrə Praktiki Fəaliyyət Planı"nı (Yol Xəritəsi)" Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın investisiya, sənaye və ticarət naziri Laziz Kudratov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2027-2028-ci illər üçün Əməkdaşlıq Proqramı"nı, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında 2027-2028-ci illər üçün Əməkdaşlıq Proqramı"nı, həmçinin "Xankəndi şəhəri (Azərbaycan Respublikası) ilə Ürgənc şəhəri (Özbəkistan Respublikası) arasında qardaşlaşma münasibətlərinin qurulması haqqında Protokol"u, "Naxçıvan şəhəri (Azərbaycan Respublikası) ilə Ürgənc şəhəri (Özbəkistan Respublikası) arasında qardaşlaşma münasibətlərinin qurulması haqqında Protokol"u və "Laçın şəhəri (Azərbaycan Respublikası) ilə Buxara şəhəri (Özbəkistan Respublikası) arasında qardaşlaşma münasibətlərinin qurulması haqqında Protokol"u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov mübadilə etdilər.

## Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin təltifolunma mərasimi keçirilib







**Avqustun 23-də Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin təltifolunma mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə **Özbəkistan Prezidenti Şavkat Mirziyoyev** çıxış edərək dedi:

- Hörmətli İlham Heydər oğlu, Özbəkistana bir daha xoş gəlmisiniz. Bizim hər bir görüşümüz tarixdir. Bugünkü səfər də tarixidir. Bu gün bütün istiqamətləri, hər bir layihəni çox dəqiqliklə nəzərdən keçirdik və İlham Heydər oğlu olduqca ciddi dəstək verdi. Biz yeni Yol Xəritəsini qəbul etdik, ticarət dövriyyəsini bir milyard dollara çatdırmaq barədə razılıq əldə etdik. Əlbəttə, bu, son hədd deyil.

Əziz dostlar, Azərbaycan Prezidentinin Özbəkistana səfəri tarixi hadisədir. Biz görülən işlər və iki liderin iradəsi sayəsində nələrə nail olduğumuz barədə özümüzə daim hesabat verməliyik. Bu, qısa müddətdə əldə olunan böyük nəticədir. İlham Heydər oğluna dedim ki, 27 il aramızda heç bir nəticə olmayıb. Başa düşənlər bunu anlayır. Beləliklə, bu gün ikitərəfli münasibətlərin möhkəmləndirilməsində yeni səhifə açırıq. Qardaş Azərbaycanın nailiyyətlərinə səmimi-qəlbdən heyranıq. Hörmətli İlham Heydər oğlu, Azərbaycan Sizin rəhbərliyiniz ilə ölkənin inkişafında və beynəlxalq arenada böyük uğurlar qazanır. Yaxın dost, yaxın qonşu və müttəfiq olaraq, biz həmişə bu nəticələrə sevinirik. Siz ölkənin ərazi bütövlüyünü bərpa etməklə bir daha xalqınızı birləşdirdiniz. Siz dahi atanız, hörmətli Heydər Əliyevin işini layiqincə davam etdirirsiniz, onun müdrik vəsiyyətlərini, arzularını və istəklərini ardıcıl olaraq həyata keçirirsiniz. Azərbaycana səfərlərim zamanı şəxsən Qarabağda baş verən böyük dəyişikliklərin və bölgənin dinamik inkişafının şahidi oldum. Həmişə deyirəm ki, Azərbaycan bizim yaxın, etibarlı, zamanın sınağından çıxmış dostumuz və tərəfdaşımızdır.

Əsrlərdən bəri iki ölkənin xalqlarını qardaşlıq münasibətləri, ortaq tarix və din, oxşar mədəniyyət, dil və adət-ənənələr birləşdirir. İlham Heydər oğlu, Siz Özbəkistanla çoxşaxəli əməkdaşlığın inkişafına böyük töhfə vermisiniz. Siz ölkələrimiz arasında müttəfiqliyin ön sıralarında olmusunuz.

Əminəm ki, Əbədi dostluq haqqında müqavilə münasibətlərimizi yeni məzmunla zənginləşdirəcək. Bu gün ölkəmizin əsl dostu olan Sizə bu nüfuzlu mükafatı - ən yüksək dərəcəli "Dostluq" ordenini təqdim etməkdən xüsusilə məmnunam. Bu, Özbəkistanla Azərbaycan arasında əbədi dostluq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə Sizin verdiyiniz böyük töhfəyə hörmətin və minnətdarlığın rəmzidir. Sizi ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram. Bilirsiniz, bunun baş verməsi məni çox sevindirir. Fərmanı məmnunluqla imzaladım, bu günün gəlib çatması ilə fəxr edirdim. İlham Heydər oğlu, Sizi bu münasibətlə təbrik edirəm. Bu, Özbəkistan dövlətinin ən yüksək ordenidir və Siz əmin ola bilərsiniz ki, buna layiqsiniz. Təbrik edirəm.

* * *

Prezident Şavkat Mirziyoyev ali dərəcəli "Dostluq" ordenini dövlətimizin başçısına təqdim etdi.

* * *

Sonra çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Hörmətli Şavkat Miromonoviç.

Əziz dostlar.

Əvvəlcə, fəaliyyətimə verilən belə yüksək qiymətə görə Sizə səmimi-qəlbdən minnətdaram. Siz dediyiniz kimi, ali dərəcəli, - Azərbaycan dilində də bu, belə səslənir - "Ali dərəcəli", - "Dostluq" ordeni ilə təltif olunmağım mənim üçün böyük şərəfdir. Belə qardaş münasibətinə görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Artıq dediyim kimi, bu, mənim üçün böyük şərəfdir və bu yüksək mükafata layiq olmaq, xalqlarımız, dövlətlərimiz arasında dostluğu və qardaşlığı möhkəmləndirmək naminə fəaliyyətimə davam etmək üçün bundan sonra da bütün səylərimi əsirgəməyəcəyəm.

Şavkat Miromonoviç çıxışında münasibətlərimizin strateji müttəfiqlik xarakterini qeyd etdi. Biz buna nisbətən qısa müddət ərzində nail olmuşuq. Özbəkistana səfərlərimin xronologiyasına baxanda ən intensiv dövr son dörd-beş ilə təsadüf edir. Bu müddət ərzində mən Özbəkistana artıq yeddinci dəfədir səfər edirəm, Şavkat Miromonoviçin Azərbaycana səfərlərinin sayı isə həmin dövrdə daha çox olub.

Bu, sadəcə, statistikadır. Amma bu statistikanın arxasında, ilk növbədə, ortaq köklərimiz, xalqlarımızın yaxınlığı, mədəniyyətlərimizin, dillərimizin və adət-ənənələrimizin yaxınlığı, bir-birimizə qarşı səmimi münasibət, özbək və Azərbaycan xalqları arasında əsrlər boyu davam edən dostluq dayanır. Bu, həmin təməldir - əlbəttə, qardaşlığımızın bu binasını necə möhkəmləndirdiyimiz, hansı layihələri həyata keçirdiyimiz, qarşılıqlı fəaliyyətimizə və ölkələrimizin inkişafına yönəlmiş müxtəlif təşəbbüslərdə necə birgə iştirak etdiyimiz.

Əlbəttə, bu yüksək mükafatı alarkən Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevin ikitərəfli münasibətlərimizin möhkəmlənməsindəki xüsusi rolunu, xalqımıza qarşı səmimi münasibətini və Qarabağın bərpasında göstərdiyi köməyi qeyd etmək istərdim. Mən bu gün artıq bu barədə danışdım və Azərbaycanda hamı bilir ki, dünyada Qarabağın bərpasında bizə ilk kömək edən Prezident, ilk ölkə Prezident Mirziyoyev və Özbəkistandır.

Təbii ki, Özbəkistana hər dəfə səfər edəndə artıq bir çox yerləri gəzmişəm, Daşkəndin necə gözəlləşdiyini, binaların, küçələrin və infrastrukturun necə yeni görkəm aldığını, bütün bu işlərin necə böyük zövqlə, böyük sevgi ilə və yüksək keyfiyyətlə görüldüyünün şahidi olmuşam. Əziz qardaşımın "Yeni Daşkənd" layihəsi müasir şəhərsalmanın nadir əsəridir, Özbəkistan paytaxtının gələcək inkişafı ilə bağlı onun vizyonunun nəticəsidir.

Əlbəttə ki, bu, həm də Özbəkistanın inkişafının və qüdrətinin rəmzidir. Heç də hər ölkə sıfırdan şəhərlər tikmək imkanına malik deyil. Buraya Səmərqəndin necə dəyişdiyini də əlavə etməliyəm. Bunu ilk səfərimdən və nisbətən bu yaxınlarda orada olduğumuz vaxtdan yaxşı xatırlayıram. Keçən səfərimdə olduğum Xivə də çox gözəl təəssürat yaratdı. Tarixi abidələrin qorunması, tarixi memarlığa diqqət yetirilməsi, həmçinin şəhərsalmada müasir inkişaf tam və müvafiq şəkildə vəhdət təşkil edir. Bütün bunlar Şavkat Miromonoviçin Özbəkistanı gücləndirmək, ölkənin potensialını artırmaq, onun iqtisadiyyatını və sənayesini inkişaf etdirmək üzrə məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Bu gün kənd təsərrüfatı, sənaye, dağ-mədən və energetika sahələrində birgə layihələrdən xeyli danışdıq. Lakin ölkələrimizin bu potensialı olmasaydı, bunlar mümkün olmazdı. Bu zəmin olmasaydı, birgə layihələr haqqında düşünə bilməzdik, yalnız ölkə daxilində işləri necə yaxşılaşdırmaq barədə düşünərdik. Bu gün isə biz qarşılıqlı fəaliyyətə, birgə investisiyalara diqqət yetiririk. Birgə investisiyalar milyardlarla dollar təşkil edəcək. Bunlar artıq planlar deyil, konkret layihələr, konkret müqavilələr və bizim konkret investisiya təşəbbüslərimizdir. Əlbəttə ki, dost və qardaş olaraq hörmətli Şavkat Miromonoviçi bütün nailiyyətləri münasibətilə təbrik etmək istərdim. Biz buna ürəkdən sevinirik. Qardaşlığa və müttəfiqliyə əsaslanan ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsinə verdiyi böyük töhfəyə görə Şavkat Miromonoviç Mirziyoyevi Azərbaycanın ən ali ordeni - "Heydər Əliyev" ordeni ilə təltif etmək haqqında sərəncam imzaladım.

* * *

Prezident İlham Əliyev "Heydər Əliyev" ordenini Özbəkistanın dövlət başçısına təqdim etdi.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# ƏBƏDİ DOSTLUQ

## Azərbaycan və Özbəkistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Özbəkistan Prezidenti bəyanatla çıxış etdi.



### Prezident Şavkat Mirziyoyevin bəyanatı

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli media nümayəndələri.

Sizin iştirakınızla Azərbaycan Respublikasının Prezidenti, mənim əziz qardaşım, hörmətli İlham Heydər oğlu Əliyevi və bütün Azərbaycan nümayəndə heyətinin üzvlərini qonaqpərvər Özbəkistan torpağında bir daha ürəkdən salamlamaqdan çox məmnunam.

Azərbaycan Prezidentinin Özbəkistana hazırkı dövlət səfəri mübaliğəsiz tarixi əhəmiyyət daşıyır. Biz bu barədə bu gün dəfələrlə danışdıq, çünki imzaladığımız bütün sənədlər, razılaşdığımız bütün məsələlər ikitərəfli əməkdaşlıq üçün tarixi hadisələrdir. Bu gün biz Əbədi dostluq haqqında müqavilə imzaladıq. Təsəvvür edirsinizmi, regionlar, biznes, hökumətlər və parlamentlərarası əlaqələr artıq nə qədər yüksək səviyyəyə çatıb. Bu, sadəcə bir sənəd deyil, qarşılıqlı əlaqələri dərinləşdirmək, əməkdaşlıq imkanlarını genişləndirmək və ümumi gələcək qurmaq istiqamətində birgə istəyimizin əksidir.

Əziz dostlar, biz Özbəkistanda qardaş Azərbaycanın hər bir uğuruna, onun davamlı iqtisadi inkişafına və artan beynəlxalq nüfuzuna həmişə səmimi-qəlbdən sevinirik. İlham Heydər oğlunun siyasi kursunun məqsədyönlülüyünü xüsusilə qeyd etmək istərdim. Bu kurs sayəsində ölkənin bütövlüyünü bərpa etmək, çoxdan gözlənilən sülhə və sabitliyə nail olmaq mümkün olub. Qədim Qarabağ torpağı yenidən dirçəlir. Burada sosial infrastruktur fəal şəkildə qurulur, iş yerləri və müəssisələr yaradılır. İnsanların dinc və firavan həyata qayıtması üçün hər şey edilir. Azərbaycan bizim etibarlı müttəfiqimiz, strateji tərəfdaşımız və qardaş dövlətdir. Münasibətlərimizin təməlində vahid sivilizasiya kodu, ümumi tarixi köklər, çoxəsrlik dostluq, sarsılmaz mənəvi dəyərlər, oxşar mədəniyyət və ənənələr dayanır. Məhz bu dərin bağlılıq münasibətlərimizi monolit və xarici konyunkturun təsirinə qarşı dayanıqlı edir.

Hörmətli jurnalistlər, hazırkı sammitdən əvvəl ciddi hazırlıq işləri aparılıb. Hökumətlərarası Komissiyanın, biznes şurasının və regional forumların iclasları məhsuldar keçib. Dövlət səfərinin əsas tədbiri olan Ali Dövlətlərarası Şuranın üçüncü iclasını indicə keçirdik, çox mühüm qərarlar qəbul etdik, çoxşaxəli münasibətlərimizin bütün spektrini ətraflı müzakirə etdik, nümayəndə heyətlərinin üzvlərinin əsas istiqamətlər üzrə məruzələrini dinlədik. İlk növbədə, söhbət ticarət, sənaye kooperasiyası, energetika, nəqliyyat, mədəniyyət və digər sahələrdən gedir. Siyasi dialoqu gücləndirmək, parlamentlər və hökumətlər, sənaye qurumları və regionlar arasında fəal əlaqələri dəstəkləmək barədə razılığa gəldik. İqtisadiyyat məsələlərinə xüsusi diqqət yetirdik, əmtəə dövriyyəsinin həcmini 1 milyard dollara çatdırmaq imkanlarını müzakirə etdik. Lakin biz razılaşdıq ki, bu, son hədd deyil, bunu dəfələrlə artırmaq mümkündür.

Biz bunu edəcəyik. Komandalarımızın bütün hesablamaları, resursları və səlahiyyətləri var. Bu mühüm göstəriciyə nail olmaq üçün konkret tədbirləri nəzərdə tutan müvafiq proqram bu gün qəbul edilib. Həmçinin sənaye kooperasiyasının yeni inkişaf istiqamətlərini müəyyən etdik, ilk növbədə iqtisadiyyatlarımızın bir-birini qarşılıqlı şəkildə tamamladığı sahələrdə. Bu səfərə qədər energetika, geologiya, kimya, tikinti, maliyyə, kənd təsərrüfatı və digər sahələrdə kooperasiya layihələrindən ibarət əhatəli layihələr portfeli formalaşdırılıb.



Bir neçə il əvvəl yaradılmış investisiya fondu bu layihələrin irəlilədilməsində mühüm rol oynayır və qısa müddət ərzində birgə biznes təşəbbüslərimizin dəstəklənməsinin səmərəli mexanizminə çevrilib. Həmçinin regionlarımızın imkanlarından maksimum istifadə etmək barədə razılığa gəldik. Məhz regionlar iqtisadi-ticari tərəfdaşlığın genişləndirilməsinin əsas hərəkətverici qüvvəsidir. Bu məqsədlə cari ayda Daşkənd şəhərinin, Buxara və Namanqan vilayətlərinin hakimləri Azərbaycana səfər ediblər. Bu gün isə onlar buradadırlar. Səmimi demək istəyirəm ki, onlar mənə gördükləri işlər barədə danışırlar. İlham Heydər oğlu, mənə çox xoşdur ki, onların real nəticələri var.

Əməkdaşlığın daha bir mühüm istiqaməti nəqliyyat-tranzit sahəsidir. Trans-Xəzər dəhlizinin potensialını birlikdə inkişaf etdirəcək, logistika infrastrukturunun səmərəliliyini artıracaq, daşımaları stimullaşdıracağıq. Bunun üçün Xəzər dənizində birgə donanmanın yaradılması üzrə işi fəallaşdıracağıq.

Xalqlarımız arasında etibarlı dostluq körpüsü rolunu sıx mədəni-humanitar əlaqələrimiz oynayır. İlham Heydər oğlu ilə birlikdə Nizami Gəncəvi adına Pedaqoji Universitetin yeni binasını açacağıq.

Bilirsiniz, mən bunu çoxdan planlaşdırırdım, çünki universitet 1935-ci ildə tikilib, lakin Daşkənd şəhərindəki universitet müxtəlif yerlərdə yerləşib və bu günün müasir səviyyəsinə uyğun gəlmirdi. Mən təməl daşı qoyarkən ümid edirdim ki, bunu mütləq İlham Heydər oğlu ilə birlikdə açacağıq və bu gün həmin tarixi hadisə həyata keçiriləcək. "Yeni Daşkənd"də Azərbaycan parkının tikintisinə start verəcəyik. Əminəm ki, bu obyektlər sarsılmaz qardaşlığımızın və xalqlarımızın yaxınlığının parlaq rəmzlərinə çevriləcək.

Qarşılıqlı humanitar əlaqələrimiz çox dinamik qrafik üzrə inkişaf edir. İlin sonunadək Özbəkistanda Azərbaycan Mədəniyyəti Günlərini və Azərbaycanda ali məktəb rektorlarının İkinci Forumunu keçirəcəyik. Əlamətdar hadisə Nizami Gəncəvi və Əlişir Nəvainin ədəbi irsinə həsr olunmuş birgə bədii filmin yaradılması olacaq. Biz İlham Heydər oğlu ilə bu barədə razılığa gəlmişik.

İctimaiyyət və gənclər arasında əlaqələri hər vasitə ilə dəstəkləyəcək, ünsiyyət, yaradıcılıq və innovativ ideyaların mübadiləsi üçün məkanlar yaradacağıq.

Bildiyiniz kimi, FIFA-nın qərarına əsasən, gələn il Özbəkistan və Azərbaycan gənclər arasında futbol üzrə dünya çempionatına birlikdə evsahibliyi edəcəklər - bu, əhəmiyyətinə və nüfuzuna görə dünyada ikinci turnirdir. Bu möhtəşəm idman hadisəsi çərçivəsində ölkələrimiz "İki ölkə - bir çempionat" adlı genişmiqyaslı dövlət proqramının həyata keçirilməsini təklif edib.

Sonda vurğulamaq istəyirəm ki, Özbəkistan və Azərbaycan arasında əməkdaşlıq artıq ikitərəfli gündəlik çərçivəsindən xeyli kənara çıxıb. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşləri formatına qoşulması ilə bağlı tarixi qərar Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında vahid etimad, mehriban qonşuluq və qarşılıqlı bağlılıq məkanının formalaşdırılması istiqamətində mühüm addım oldu. Biz BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər strukturlar çərçivəsində əsas beynəlxalq platformalarda müttəfiqlik dialoqunu gücləndirərək diplomatik fəaliyyətimizi ardıcıl şəkildə əlaqələndiririk.

Əziz dostlar, həyatın özü və müzakirələrimizin dərinliyi Özbəkistan-Azərbaycan praktiki əməkdaşlıq gündəliyinin nə qədər geniş vüsət aldığını və heyrətamiz dinamika qazandığını nümayiş etdirir.

Bu gün keçirilən məhsuldar danışıqların yekunlarına əsasən, qarşılıqlı fəaliyyətimizin ən mühüm sahələri üzrə əhəmiyyətli sazişlər paketini təsdiq etdik. Hörmətli İlham Heydər oğlu, bununla əlaqədar qətiyyətli mövqeyinizə və bütün təkliflərimizi dəstəklədiyinizə görə Sizə səmimi təşəkkürümü bildirirəm. Əminəm ki, tarixi səfərin nəticələri tərəfdaşlığımızı konkret məzmunla zənginləşdirəcək, birgə layihələr və iki qardaş ölkənin davamlı inkişafı üçün yeni üfüqlər açacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Təşəkkür edirəm, hörmətli Şavkat Miromonoviç.

Əziz dostlar.

İlk növbədə, dəvətə, qonaqpərvərliyə, Azərbaycana və Azərbaycan xalqına göstərdiyiniz belə səmimi münasibətə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim.

Bildiyiniz kimi, biz də Özbəkistana, Özbəkistanın qardaş xalqına eyni xoş və qardaşlıq hisslərini bəsləyirik. Düşünürəm ki, bugünkü səfərin nəticələri də bunu bir daha təsdiqləyir. Lakin, ilk növbədə, bir daha qeyd etmək istərdim ki, mən Daşkəndə ilk dəfə səfər etmirəm və hər dəfə buraya gələndə sürətli inkişafın şahidi oluram. Bunu hər sahədə görmək mümkündür: həm böyük layihələrdə, həm də detallarda. Bu gün Daşkənd və bütün Özbəkistan yüksəliş dövrünü yaşayır. Bu isə mənim əziz qardaşım Şavkat Miromonoviçin Özbəkistanın potensialının gücləndirilməsinə, beynəlxalq arenadakı mövqeyinin möhkəmləndirilməsinə və ən mühüm sosial-iqtisadi məsələlərin həllinə yönəlmiş fəaliyyətinin nəticəsidir.

Şavkat Miromonoviç Özbəkistana rəhbərlik etməyə başlayanda vəziyyət tamamilə başqa cür idi. Özbəkistan vətəndaşları bunu yaxşı bilirlər, biz də bunu bilirik. Buna görə də ölkəni inkişaf yoluna çıxarmaq, əslində, dövlətin inkişafı üçün iqtisadi əsasları sıfırdan formalaşdırmaq, iqtisadiyyatı şaxələndirmək, sənayeni inkişaf etdirmək, kənd təsərrüfatını, yenə də şaxələndirilmiş şəkildə inkişaf etdirmək, iqtisadiyyatın böyük potensiala malik olan və potensialını qoruyub saxlayan sahələrinə investisiyalar cəlb etmək üçün o, böyük səylər göstərməli oldu. Bu gün isə biz tamamilə fərqli Özbəkistan görürük. Bu, dünya birliyinin böyük hörmət bəslədiyi, sənayenin inkişafı, kənd təsərrüfatı, energetika və nəqliyyat infrastrukturu ilə bağlı məsələlərin operativ və səmərəli şəkildə həll olunduğu Özbəkistandır. Şavkat Miromonoviçin ikitərəfli münasibətlərimizlə bağlı söylədiyi bütün fikirlər, ilk növbədə, onun və komandasının Özbəkistan üçün gördüyü işlərə aiddir.

Mən bu gün artıq bu barədə danışmışam: əgər bu təməl, bu potensial olmasaydı, heç bir birgə layihəni həyata keçirmək mümkün olmazdı. Ümumiyyətlə, Şavkat Miromonoviç Özbəkistana rəhbərlik etməzdən əvvəl ölkələrimiz arasında heç bir birgə layihə yox idi. Bu gün biz bir milyardlıq ticarət dövriyyəsi hədəfindən hansısa uzaq bir xəyal kimi deyil, yəqin ki, bir neçə ildən sonra çatacağımız nəticə kimi danışırıq. Bu gün müzakirə olunanlar, iqtisadiyyatlarımızın tələb etdiyi və ehtiyac duyduğu sahələrdə qarşılıqlı investisiya layihələri - bütün bunlar hər iki ölkə paralel kursla inkişaf etməsəydi, mümkün olmazdı. Bu paralel kurs isə bu gün artıq daha geniş geosiyasətin mühüm amilidir. Çünki Şavkat Miromonoviçin qeyd etdiyi kimi, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq formatına qoşulmasından sonra, - yeri gəlmişkən, bu məsələdə onun xüsusi rolu olub, - əməkdaşlığın coğrafiyası genişlənib.



Bu gün Mərkəzi Asiya və Azərbaycan böyük potensiala, eyni zamanda bundan da böyük inkişaf imkanlarına malik vahid geosiyasi və geoiqtisadi regiondur. Bu böyük, hətta deyərdim ki, yenidən yaradılmış və artıq kifayət qədər inteqrasiya olunmuş regionun inkişafının ümumi müsbət dinamikası da bu halda Özbəkistan və Azərbaycan arasında sıx qarşılıqlı əlaqələrdən asılıdır.

Bu gün danışdığımız layihələrdən hər birinin öz dəyəri var və Şavkat Miromonoviç qeyd etdiyi kimi, onların hamısı birlikdə münasibətlərin bənzərsiz xarakterini yaradır. Biz, praktik olaraq, enerji, nəqliyyat, investisiya layihələri, turizm, dağ-mədən sahəsində əməkdaşlıq, avtomobil sənayesi, kənd təsərrüfatı və emal sektorlarından tutmuş bütün istiqamətləri əhatə etmişik. Hətta bu gün ikitərəfli formatda rəsmi tədbirlərin sonunda yeni layihələrin təməlini qoyarkən və ya yeni layihələrə başlayarkən belə, bu layihələrin sadalanması əməkdaşlığımızın nə qədər çoxşaxəli olduğunu nümayiş etdirmək üçün kifayətdir. Bəli, mən hələ bankçılıq sahəsindəki əməkdaşlığımızı, aparıcı Azərbaycan bankının Özbəkistan bazarına və SOCAR-ın Özbəkistanın pərakəndə satış bazarına daxil olmasını xatırlatmağı unutmuşam. Neft və qaz kəşfiyyatı ilə bağlı layihələrdə isə biz artıq prinsipcə son mərhələdəyik və gələn il istismar quyularının qazılmasına başlamağa çox ümid edirik. Ümidvaram ki, bundan sonra kəşfiyyat-qazma və kəşfiyyat işləri yaxşı nəticələr verəcək.

Yəni bu gün biz artıq perspektivdən danışırıq. Fakt budur ki, bu gün ikitərəfli münasibətlər çox möhkəm - həm mənəvi, həm də maddi təməl üzərində qurulub. Bu sintezə dünya siyasətində nadir hallarda rast gəlinir və o, mövcuddur. Hər iki ölkənin hökumətlərinin inkişaf, daha yaxşı həyat şəraiti yaratmaq, səyləri birləşdirmək üçün çalışması bizim uğur qazanacağımızın ən mühüm amilidir.

Əlbəttə, Prezident Şavkat Miromonoviç Mirziyoyevin Qarabağa investisiya cəlb edilməsində müstəsna rolunu bir daha qeyd etmək istərdim. İlk yardım - Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik məktəbin tikintisi və Xankəndidə tikiş fabrikinə investisiyalar Özbəkistandan gəldi. İlk böyük sənaye müəssisəsi də Özbəkistanla bağlıdır. Həm Qarabağ bölgəsində, həm də bir çox digər bölgələrdə əlavə qarşılıqlı fəaliyyət planları mövcuddur. Həmçinin diqqətəlayiqdir ki, bu gün bir çox layihənin, - düşünürəm ki, on, bəlkə də daha çox, - açılışı və ya təməlinin qoyulması ilə bağlı tədbirlər zamanı regional layihələr də olub.

Layihələr təkcə Bakı və Daşkənddə deyil, baxmayaraq ki, əsas diqqət şübhəsiz ki, bu şəhərlərə yönəlib, həmçinin digər bölgələrdə də həyata keçirilir. Dünən keçirilən regionlararası əməkdaşlıq forumu böyük praktik maraq doğurur. Yəni indi bir çoxlarının sevdikləri təbirlə desək, səyləri birləşdirərək sinerji yaradırıq. İrəliləmək üçün çox dəqiq fəaliyyət planımız var və hər bir layihə konkret məzmunla zəngindir. Buraya artıq üçdəbiri layihələrlə təmin olunmuş investisiya fondunu, Azərbaycanın turizm infrastrukturuna və avtomobil sənayesinə investisiya layihələrini də əlavə etsək, bu artıq milyardlarla investisiya deməkdir.

İnvestisiyalar isə bir qayda olaraq, dost ölkələrə, bizim vəziyyətimizdə qardaş ölkələrə və adətən, əlverişli investisiya mühitinin olduğu yerlərə yatırılır. Yenə də başladığım yerə qayıdıram. Şavkat Miromonoviçin böyük xidməti ondan ibarətdir ki, məhz o, öz islahatları, əzmkarlığı və müdrikliyi sayəsində həm beynəlxalq maliyyə qurumlarına, həm də qlobal aktorlara Özbəkistanı inkişafının uğurlu mərhələsində olan bir ölkə kimi görməyə imkan verən investisiya mühiti yaradıb.

Dostlarınız və qardaşlarınız olaraq, biz bundan səmimi-qəlbdən məmnunuq və əminəm ki, Sizin qeyd etdiyiniz bütün planlar reallaşacaq, ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq şəkildə birlikdə çalışacağıq. Şavkat Miromonoviç, sonda Sizin üçün əlverişli vaxtda Sizi Azərbaycana dövlət səfərinə dəvət etmək istərdim. Diqqətinizə görə təşəkkür edirəm.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# ƏBƏDİ DOSTLUQ

## Prezident İlham Əliyev Özbəkistanın ən böyük şəhərsalma layihəsi - "Yeni Daşkənd"lə tanış olub



Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın ən böyük şəhərsalma layihəsi - "Yeni Daşkənd"lə tanış olub.

AZƏRTAC xəbər verir ki, layihə ölkə iqtisadiyyatını, investisiya siyasətini, nəqliyyat sistemini, təhsili, ekologiyanı və rəqəmsal texnologiyaları vahid məkanda birləşdirən yeni şəhərsalma modelidir. Layihə tam yekunlaşdıqdan sonra 260 mindən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda tikinti sahələrində 10 mindən çox işçi çalışır. "Yeni Daşkənd"də tətbiq edilən mühüm innovativ həllərdən biri elektrik enerjisinin istehsalı, istilik və soyutma proseslərinin vahid texnoloji zəncir çərçivəsində idarə olunduğu trigenerasiya texnologiyasıdır.

Ərazidə 60-dan çox dövlət qurumu üçün müasir inzibati binalar, mehmanxanalar, restoranlar, xidmət mərkəzləri, biznes kompleksləri, turizm obyektləri, "Yeni Özbəkistan" Universiteti, Özbəkistan Milli Kitabxanasının yeni kompleksi, elmi laboratoriyalar, multimedia mərkəzləri, muzeylər, idman qurğuları və tələbə şəhərciyi inşa edilir. Burada inşa olunan "Şərq Baharı" kompleksi Mərkəzi Asiyanın ən iri yaşayış layihələrindən biri olacaq. Ərazisi 95 hektar olan kompleksdə təxminən 15 min mənzilin inşası planlaşdırılır.

## Yeni Daşkənd şəhərində "Azərbaycan" parkının təməli qoyulub

**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Yeni Daşkənd şəhərində "Azərbaycan" parkının təməlini qoyublar.**

AZƏRTAC xəbər verir ki, parkda Azərbaycanın zəngin mədəniyyətini, çoxəsrlik tarixini və ənənələrini əks etdirəcək ictimai məkan yaradılacaq. Park Azərbaycanın və Özbəkistanın qardaş xalqlarının daha da yaxınlaşması baxımından mühüm rol oynayır.

Bakıda "Özbəkistan", Yeni Daşkənddə isə "Azərbaycan" parkının salınması xalqlarımız arasındakı çoxəsrlik dostluğun, qarşılıqlı hörmətin və mədəni yaxınlığın, həmçinin Azərbaycanla Özbəkistanın möhkəm və dinamik inkişaf edən münasibətlərinin növbəti rəmzi olacaq.




## Daşkənddə Azərbaycanın və Özbəkistanın birinci xanımlarının çay masası əsnasında təkbətək görüşü olub



Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə çay masası əsnasında təkbətək görüşü olub.

## Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılışı olub





**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılış mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçıları əvvəlcə ali təhsil ocağının rəmzi açılışını bildirən lenti kəsdilər.

Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev universitetin həyətində ağac əkdilər.

Azərbaycanın və Özbəkistanın dövlət başçılarına Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin tarixi və yaradılmış şərait barədə məlumat verildi.

1935-ci ildə Mərkəzi Asiya Dövlət Universitetinin Pedaqoji fakültəsinin bazasında Daşkənd Pedaqoji İnstitutu yaradılıb. 1947-ci ildə təhsil müəssisəsinin adı Nizami adına Daşkənd Dövlət Pedaqoji İnstitutu olaraq dəyişdirilib, 1998-ci ildən isə institut Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti kimi fəaliyyətini davam etdirib.

Universitetin məzunları arasında Özbəkistanın ədəbiyyatının, mədəniyyətinin, elminin və ictimai həyatının inkişafına mühüm töhfələr vermiş çoxsaylı görkəmli şəxsiyyətlər var.

Universitetin strukturunda 6 ali pedaqoji məktəb, həmçinin 1 Birgə Təhsil Ali Məktəbi və 1 magistratura şöbəsi fəaliyyət göstərir. Burada, ümumilikdə, 33 kafedra var. Universitetdə bakalavriat üzrə 38, magistratura üzrə isə 31 ixtisasda kadrlar hazırlanır. 730 müəllim və elmi-pedaqoji işçinin çalışdığı universitetdə 17 mindən çox tələbə, o cümlədən 6 Azərbaycan vətəndaşı olan tələbə, magistrant və müstəqil tədqiqatçı kimi təhsil alır. Eyni zamanda burada dünyanın 13 ölkəsindən 250 nəfər təhsilini davam etdirir.



Universitetdə beynəlxalq təhsil proqramlarının tətbiqinə də xüsusi yer ayrılır. Təhsil ocağı dünyanın 20 ölkəsindən 15 beynəlxalq təhsil təşkilatı və 127 universitetlə, həmçinin UNESCO və UNICEF ilə sıx əməkdaşlıq qurub. Burada 12 birgə təhsil proqramı həyata keçirilir. Həmçinin 4 beynəlxalq təhsil və mədəniyyət mərkəzi - Azərbaycan, Qazaxıstan, Cənubi Koreya və Çin mərkəzləri fəaliyyət göstərir.

Nizami Gəncəvi adına Milli Pedaqoji Universitet Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə anlaşma memorandumları imzalayıb. Bu əməkdaşlıq çərçivəsində birgə elmi tədqiqatlar və beynəlxalq konfranslar, təhsil və elmi təcrübə mübadiləsi, həmçinin mədəni-maarif əlaqələri inkişaf etdirilir. Ölkəmizlə əməkdaşlıq çərçivəsində Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin ilk 5 məzunu qrant əsasında bu universitetdə təhsil almaq hüququ qazanıb.

"Yeni Daşkənd" ərazisində 40 hektar sahədə universitetin yeni kampusunun tikintisi həyata keçirilir. Layihə, ümumilikdə, 20 min nəfərlik tədris korpuslarının, həmçinin 5 min nəfərlik tələbə yataqxanalarının yaradılmasını nəzərdə tutur. Yeni kampusda Nizami Gəncəvi Muzeyi və universitetin tarix muzeyləri olacaq.

Dövlət başçıları burada təhsil ocağının müəllim və tələbə heyəti ilə görüşüb, onlarla söhbət etdilər.

Görüşdə Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin Azərbaycan-Özbəkistan qardaşlığının rəmzi olduğu, universitetin yeni binasının isə iki ölkəni birləşdirən qədim və müasir dəyərləri, həmçinin xalqlarımızın birliyini əks etdirdiyi vurğulanıb.

Bildirilib ki, Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin fəaliyyətə başlamasından ötən üç il ərzində Azərbaycan və Özbəkistan şagirdləri arasında dostluq və əməkdaşlıq əlaqələri daha da inkişaf edib. Bu çərçivədə məktəbin müəllimləri Daşkənddə XXI əsr müəllimi üçün zəruri olan istiqamətlər üzrə təlimlərdə iştirak edirlər. Diqqətə çatdırılıb ki, məktəbin məzunlarının 20 faizi Daşkənddəki Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetə qəbul olunub.

Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova Azərbaycan-Özbəkistan qardaşlığının və təhsil sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə göstərdikləri dəstəyə görə prezidentlər İlham Əliyevə və Şavkat Mirziyoyevə minnətdarlığını ifadə etdi.

## Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanışlıq

**Avqustun 23-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida və Şaxnoza Mirziyoyevalar ilə birlikdə Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olublar.**





AZƏRTAC xəbər verir ki, bu mərkəz Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin qərarı ilə təsis edilib. On hektardan çox ərazini əhatə edən mərkəz Səmərqənd şəhərinin qədim memarlıq abidələri üslubunda inşa olunub. Burada 65 metr hündürlüyündə günbəz də var. Mərkəzdə bir neçə şöbə, o cümlədən nadir əlyazmaların milli reyestrinin aparılması şöbəsi, əlyazmalar fondu, kitabxana və arxivlər var. Burada müxtəlif tarixi dövrlərə aid əşyalar, həmçinin əsərlər təqdim olunur. Əcdadların yaradıcılıq potensialı müasir texnologiyalar və rəqəmsal cihazların köməyi ilə nümayiş etdirilir. Mərkəzin binasında 100 min əlyazma və 1 milyondan çox kitabın olduğu kitabxana yerləşir. Buradakı muzey ekspozisiyası "İslamdan əvvəl sivilizasiyalar", "Birinci İntibah dövrü", "İkinci İntibah dövrü", "XX əsrdə Özbəkistan", "Yeni Özbəkistan - Üçüncü İntibahın əsası" və "Müqəddəs Quran" adlı zallardan ibarətdir. Ekspozisiyanın mərkəzində yerləşən "Müqəddəs Quran" zalında müsəlman dünyasının mənəvi incisi - "Osman Quranı" saxlanılır. Zalda müxtəlif dövrlərdə yazılmış "Quran"ın əlyazma nüsxələri və özbək dilinə tərcümələri təqdim olunur.

Yüzlərlə alim, ekspert, dini və ictimai xadim layihənin reallaşmasında iştirak edib. Bu Mərkəz UNESCO və ICESCO da daxil olmaqla, bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# ƏBƏDİ DOSTLUQ

## Azərbaycanın və Özbəkistanın birinci xanımları Daşkənddə "Oxunguzar" incəsənət məkanı ilə tanış olublar

**Avqustun 23-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida və Şaxnoza Mirziyoyevalar ilə birlikdə Daşkənddə "Oxunguzar" incəsənət məkanında olublar.**



AZƏRTAC xəbər verir ki, bu layihə Özbəkistan Respublikasının Prezident Administrasiyası yanında Mədəniyyət və İncəsənətin İnkişafı Fondunun sifarişi ilə həyata keçirilib.

İncəsənət məkanında keramika, tikiş, zərgərlik məmulatları, həmçinin ağac üzərində oyma nümunələrinin nümayiş olunduğu sərgilər təşkil edilir.

Burada, eyni zamanda müxtəlif görüşlər, mühazirələr və maarifləndirici tədbirlər keçirilir.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxt Daşkənddən Buxaraya gəliblər

**Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Özbəkistanın paytaxtı Daşkənd şəhərindən Buxara şəhərinə gəliblər.**

AZƏRTAC xəbər verir ki, Buxara Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva qarşıladılar.



## Azərbaycan ilə Özbəkistanın prezidentləri və birinci xanımları Buxarada İsmayıl Samani türbəsi ilə tanış olublar





**Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, birinci xanım Ziroatxon Mirziyoyeva və ailə üzvləri Buxara şəhərində İsmayıl Samani türbəsi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, bu türbə Mərkəzi Asiyanın ən qədim islam memarlığı abidələrindən biridir. IX əsrin sonu – X əsrin əvvəllərində inşa edilən türbə özünəməxsus memarlıq həlli ilə seçilir. Abidənin əsas tikinti və bədii tərtibat materialı bişmiş kərpicdir. Tədqiqatçılar burada kərpic hörgüsünün 18 müxtəlif növünü müəyyən ediblər. Ənənəvi olaraq hesab edilir ki, burada Samanilər sülaləsinin banisi və ən görkəmli nümayəndələrindən biri İsmayıl Samani, onun atası və nəvəsi dəfn olunublar.

## Buxara şəhərində "Ark" qalası ilə tanışlıq

**Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, birinci xanım Ziroatxon Mirziyoyeva və ailə üzvləri Buxara şəhərində "Ark" qalası ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, "Ark" qalası eramızdan əvvəl IV əsrdə inşa olunub. Onun hazırkı görkəmi isə əsasən XVII-XVIII əsrlərdə formalaşıb. Qaladan XX əsrin əvvəllərində Buxara hökmdarlarının qış iqamətgahı kimi istifadə olunurdu. Hazırda qala 4 hektar ərazini əhatə edir. Qalanın böyük hissəsi 1920-ci ildə dağılıb. 1947-ci ildən qala ərazisində Buxara Dövlət Muzey-Qoruğu fəaliyyət göstərir.



## Azərbaycan ilə Özbəkistanın prezidentləri və birinci xanımları Buxara şəhərindəki "Poyi-Kalon" kompleksi ilə tanış olublar







**Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, birinci xanım Ziroatxon Mirziyoyeva və ailə üzvləri Buxara şəhərində "Poyi-Kalon" kompleksi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, bu kompleksin adı "Böyüyün ətəyində" mənasını verir. Onun əsas abidələrindən biri olan Kalon minarəsi 1127-ci ildə inşa olunub.

Kalon məscidi Buxaranın ən böyük məscididir. XVI əsrdə inşa olunan məsciddə eyni anda 12 min insanın ibadət etməsi mümkündür.

Kompleksdəki Mir-i Ərəb mədrəsəsi dini təhsil müəssisəsidir. Mədrəsə XVI əsrdə Abdullah Yəməni - Mir-i Ərəb tərəfindən inşa etdirilib.

## Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri başa çatıb



**Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Buxara Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva yola saldılar.

# Tərəfdaşlıqdan "Əbədi dostluğ"a

**Azərbaycan dost, qardaş ölkələrlə, xüsusilə də Mərkəzi Asiya dövlətləri ilə geniş və əhəmiyyətli əməkdaşıq əlaqələrinə malikdir. Bu əlaqələr hər ötən dövr daha geniş və əhatəli xarakter alır. Bunun da səbəbi ölkələrimizin tarixi dostluq əlaqələri, siyasi, milli, mənəvi və mədəni dəyərlərlə bir-birinə sıx bağlı olmasıdır.**



Azərbaycan Prezidenti, Müzəffər Sərkərdə İlham Əliyevin apardığı müdrik siyasət nəticəsində Mərkəzi Asiyanın xalqları bir-birinə daha yaxınlaşıb, strateji müttəfiqlik səviyyəsinə yüksəliblər. Azərbaycanın Şərqlə Qərb arasında mühüm qovşağa çevrilməsi, nəqliyyat-logistika şəbəkəsinin qurulması, Ələt Dəniz Ticarət Limanının inşası, Avropaya yükdaşınmalarının həcminin artırılması Mərkəzi Asiyada yerləşən türk dövlətlərinin və xalqlarının inkişafına, sosial təminatına müsbət təsirini göstərir. Mərkəzi Asiya coğrafiyasının əsas aparıcı dövlətlərindən olan Özbəkistanla Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri nümunəyə, örnəyə çevrilib. Ulu Öndərimiz Heydər Əliyev və Özbəkistanın keçmiş prezidenti İslam Kərimov dövründə formalaşan dostluq münasibətləri Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev arasında yaranan səmimi dostluq əlaqələri ilə yeni məzmun qazanaraq strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlib.

Hazırda iki dost, qardaş ölkə arasında bütün sahələri əhatə edən yaxın tərəfdaşlıq mövcuddur. Parlamentlər arasında qurulan sıx əlaqələr, xüsusilə də "Azərbaycan Respublikasının Milli Məclisi ilə Özbəkistan Respublikasının Ali Məclisinin Senatı arasında əməkdaşlıq haqqında Saziş"in imzalanması, "yol xəritələri"nin həyata keçirilməsi, habelə beynəlxalq parlament strukturlarında davamlı qarşılıqlı dəstək müsbət tendensiyaların mövcudluğunun təsdiqidir. Mütəmadi olaraq Azərbaycan və Özbəkistan qanunverici orqanları rəhbərlərinin və deputatlarının iştirakı ilə tədbirlər keçirilir. 2025-ci ilin iyulun 1-də Özbəkistanın Xivə şəhərində I Özbəkistan-Azərbaycan Parlamentlərarası Forumunun açılışı oldu. Mərasimdə hər iki ölkənin parlamentlərinin sədrləri və deputatları iştirak etdilər. Milli Məclisin Sədri Sahibə Qafarovanın Özbəkistanın Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ilə görüşündə dost və qardaş ölkələrimiz arasında münasibətlərin mövcud inkişaf səviyyəsindən məmnunluq ifadə edildi. Tərəflər Azərbaycan və Özbəkistan prezidentlərinin yüksək siyasi iradəsi sayəsində münasibətlərin daha da genişləndiyini, strateji tərəfdaşlığın məzmun etibarilə yeni mərhələyə yüksəldiyini və hazırda ölkələrimizin bir çox sahədə uğurlu əməkdaşlıq əlaqələrinə malik olduğunu bildirdilər.

Ötən il Azərbaycan və Özbəkistan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar hər iki dövlətin deputatlarının iştirakı ilə onlayn görüş və müzakirələr təşkil edildi. Görüşdə Özbəkistanla parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri olaraq mən Özbəkistandan olan həmkarlarımızı təbrik etdim və Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafından bəhs etdim. Diqqətə çatdırdım ki, dövlət başçılarımız arasındakı qardaşlıq münasibətləri və fəal siyasi dialoq sayəsində bu gün əməkdaşlığımız yüksələn xətt üzrə inkişaf etməkdədir. Onlayn görüşdə Özbəkistan Ali Məclisinin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun həmsədrləri - senator Odiljon Matkarimov və deputat Alişer Kodirov dövlət başçılarının siyasi iradəsi sayəsində möhkəm dostluq və qardaşlıq üzərində qurulan Azərbaycan-Özbəkistan münasibətlərinin genişləndirilməsi, bu istiqamətdə parlamentlərin verə biləcəyi töhfələr barədə danışdılar.

Dostluq, qardaşlıq əlaqələrinin dərinləşdiyini təsdiq edən daha bir amil Özbəkistanın işğaldan azad edilən Azərbaycan ərazilərinin bərpasında yaxından iştirak etməsidir. Tarixi şəhərimiz olan Xankəndidə Azərbaycan-Özbəkistan birgə tikiş fabriki yaradılıb. Fabrikdə kişi, qadın və uşaq geyimləri istehsal olunur. İstehsal gücünün artırılması üçün fabrikə 11 milyon manatdan çox investisiyanın yatırılması planlaşdırılır. Bu müəssisədə gələcəkdə yerli pambıq əsasında parça istehsalının yaradılması da planlaşdırılır. Bu, iki ölkənin kənd təsərrüfatı ilə sənayeni birləşdirmək imkanının göstəricisidir. Özbəkistan işğaldan azad edilən Füzuli rayonunda 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəb inşa edib.

Azərbaycan-Özbəkistan əlaqələri iqtisadi-ticarət, sənaye kooperasiyası, nəqliyyat və investisiya əməkdaşlığı istiqamətlərində də genişlənir. 2025-ci ildə əmtəə mübadiləsi əvvəlki illə müqayisədə üç dəfədən çox artıb və 795 milyon dollar təşkil edib. 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb. 2025-ci ilin iyulun 2-də iki ölkə arasında ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılmasını nəzərdə tutan proqram qəbul edilib. 2023-cü ildə Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti yaradılıb. Şirkətin nizamnamə kapitalı 500 milyon ABŞ dollarıdır. Avtomobil istehsalı sahəsində səmərəli əməkdaşlıq mövcuddur. Hacıqabul Sənaye Parkında Azərbaycan və Özbəkistan şirkətlərinin əməkdaşlığı çərçivəsində 10 min 720 "Chevrolet" markalı avtomobil istehsal edilib. Bundan əlavə, "Azərmaş Park" MMC ilə Özbəkistanın "SamAvto" şirkətinin əməkdaşlığı çərçivəsində ISUZU markalı 275 avtobus istehsal olunub. Azərbaycanla Özbəkistan arasında enerji sahəsində də əməkdaşlıq uğurla inkişaf edir. Özbəkistanın OZLITINEFTGAZ İnstitutunun və "SOCAR NIPI Nefteqaz"ın bazasında yaradılmış "Neftegaztexnologiya" birgə müəssisəsi 2016-cı ildən neft-qaz sənayesində uğurla fəaliyyət göstərir. Bu əlaqələrin qurulması və inkişafında Azərbaycan Prezidenti İlham Əliyev ilə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev arasında formalaşmış yüksək siyasi etimad, ardıcıl qarşılıqlı səfərlər və əldə olunan razılaşmalar mühüm rol oynayıb. Təsadüfi deyil ki, son 5 ildə Prezident İlham Əliyev Özbəkistana 2 dövlət səfəri və 4 işgüzar səfər edib. Prezident Şavkat Mirziyoyev isə həmin müddətdə ölkəmizə 2 dövlət səfəri və 7 işgüzar səfər həyata keçirib. Bu səfərlər çərçivəsində 2024-cü il avqustun 23-də Daşkənddə "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" imzalanıb. Həmin gün Ali Dövlətlərarası Şuranın ilk iclasının keçirilməsi də yeni müttəfiqlik formatının institusional əsaslarını möhkəmləndirib. Azərbaycanın 2025-ci ilin noyabrında Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşünə tamhüquqlu iştirakçı kimi qəbul edilməsi isə Bakı-Daşkənd münasibətlərinin ikitərəfli çərçivədən çıxaraq daha geniş regional məna qazandığını göstərib.

Azərbaycan Prezidenti İlham Əliyevin 2026-cı il avqustun 23-24-də Özbəkistana dövlət səfəri isə müttəfiqlik əlaqələrinin daha da genişlənməsində müstəsna rol oynadı. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın ən böyük şəhərsalma layihəsi - "Yeni Daşkənd"lə tanış oldu. Eyni zamanda xalqlar arasında dostluq, qardaşlıq əlaqələrinin inkişafına mühüm töhfələr verən bir sıra əhəmiyyətli sənədlər imzalandı. "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə"nin imzalanması iki dost, qardaş dövlət arasında əlaqələrin ən yüksək səviyyəyə yüksəldiyini göstərir. Əbədi dostluq haqqında müqavilə iki dost, qardaş ölkə arasında münasibətlərin strateji və siyasi baxımdan ən yüksək səviyyəyə yüksəldiyini uzunmüddətli olmaqla nəsilləri əhatə etdiyini təsdiqləyir. Birmənalı olaraq deyə bilərik ki, iki türk dövləti və xalqı arasında münasibətlər "qardaşlıq+strateji tərəfdaşlıq+müttəfiqlik+əbədi dostluq" məntiqi üzrə inkişaf edir.

Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərindən sonra iki ölkə arasında münasibətlər daha dinamik və geniş xarakter alacaq. Bu da ümumilikdə, Avrasiyanın gələcək geosiyasi və iqtisadi xəritəsinin formalaşmasına mühüm təsir göstərəcək.

*Eldar İBRAHİMOV,*
*Milli Məclisin İntizam komissiyasının sədri, Özbəkistanla parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri, professor*

# Leyla Əliyeva ilk Buxara Biennalesinin əsərləri ilə tanış olub







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində Leyla Əliyeva avqustun 24-də ilk Buxara Müasir İncəsənət Biennalesinin əsərlərinin bir hissəsi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Buxara Biennalesi Özbəkistan Mədəniyyət və İncəsənətin İnkişafı Fondu tərəfindən keçirilir. İlk dəfə 2025-ci ildə keçirilən Buxara Biennalesi Mərkəzi Asiyanın ən böyük mədəniyyət tədbirlərindən birinə çevrilib.

Hazırda Buxarada ilk biennaledə nümayiş olunan əsərlərin bir hissəsi yenidən sərgilənir. Ekspozisiyada yerli və xarici müəlliflərin 70-ə yaxın əsərini görmək mümkündür. 2027-ci ildə ikinci Buxara Müasir İncəsənət Biennalesinin keçirilməsi planlaşdırılır.

# "Elm və təhsil xalqlarımızı birləşdirən ən dayanıqlı körpülərdən birinə çevriləcək"

**"Azərbaycan Prezidenti İlham Əliyevin Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistanda həyata keçirilən islahatları yüksək qiymətləndirməsi mühüm bir tendensiyanı, yəni islahatların nəticələrinin beynəlxalq səviyyədə getdikcə daha çox tanınmasını əks etdirir. Bu gün iqtisadiyyatın modernləşdirilməsi, infrastrukturun inkişafı, investisiya mühitinin yaxşılaşdırılması və insan kapitalının rolunun artırılması təkcə ölkənin daxili potensialını deyil, həm də onun regional və beynəlxalq proseslərdəki mövqeyini tədricən dəyişir. Azərbaycan Prezidentinin hazırkı dövlət səfəri bir daha təsdiqlədi ki, bu dəyişikliklər ikitərəfli əməkdaşlıq üçün də yeni imkanlar yaradır".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **Buxara Dövlət Universitetinin rektoru, professor Obidjon HAMİDOV** deyib.

Onun sözlərinə görə, Özbəkistan-Azərbaycan əməkdaşlığının getdikcə daha çoxşaxəli xarakter alması xüsusilə diqqətəlayiqdir. Avqustun 23-də iki ölkənin liderləri Əbədi dostluq haqqında müqavilə imzaladılar, eyni zamanda bank sektoru, tikinti materiallarının istehsalı, turizm, xammalın emalı, bağçılıq və bizim üçün xüsusilə əhəmiyyətli olan təhsil müəssisələrinin yaradılması sahələrində yeni birgə layihələrə start verildi. Bu, ayrı-ayrı təşəbbüslərdən iki dövlətin iqtisadi prioritetlərinin təhsil və kadr hazırlığı ilə birbaşa əlaqələndirildiyi uzunmüddətli əməkdaşlıq sisteminin formalaşdırılmasına keçidi göstərir.

"Ali təhsil sahəsində artıq belə bir keçid üçün ciddi baza formalaşıb. Özbəkistan və Azərbaycan rektorlarının ilk forumunda 60-a yaxın memorandum, saziş və yol xəritəsi imzalanıb. Bu sənədlərdə akademik mobillik, birgə elmi tədqiqatlar, müəllim və tələbə mübadiləsi, eləcə də birgə təhsil proqramlarının inkişafı nəzərdə tutulur. Əməkdaşlığın tədricən sənədlərin formal şəkildə imzalanmasından iki ölkənin universitetləri arasında konkret akademik əlaqələrin yaradılmasına keçməsi mühüm məqamdır. Buxara Dövlət Universiteti də bu prosesin birbaşa iştirakçısıdır. Özbəkistan-Azərbaycan rektorlar forumu çərçivəsində nümayəndə heyətimiz Azərbaycanın bir sıra aparıcı ali təhsil müəssisələri ilə razılaşmalar əldə edib. Xüsusilə Bakı Ali Neft Məktəbi ilə əməkdaşlıq tələbə və müəllim mübadiləsinin, beynəlxalq akademik mobilliyin və birgə elmi layihələrin inkişafını nəzərdə tutur. Bu, bizim üçün xüsusilə əhəmiyyətlidir, çünki müasir universitet yalnız bilik ötürən deyil, həm də beynəlxalq elmi və innovasiya şəbəkələrinin bir hissəsi olmalıdır", - deyə rektor əlavə edib.

Obidjon Hamidovun fikrincə, əməkdaşlığın növbəti mərhələsi artıq imzalanmış memorandumların sayı ilə deyil, ölçülə bilən nəticələrlə müəyyənləşməlidir: birgə təhsil proqramları, ikili diplomlar, elmi laboratoriyalar, qrant layihələri çərçivəsində tədqiqatlar və gənc alimlərin müntəzəm mübadiləsi. Məhz belə format ali təhsilin inkişafını hazırda Özbəkistanın və Azərbaycanın birgə həyata keçirdiyi sənaye, texnologiya və investisiya layihələri ilə əlaqələndirməyə imkan verəcək. Bu, dövlətin rəqabət qabiliyyətinin getdikcə daha çox insan kapitalının keyfiyyəti və universitetlərin yeni biliklər yaratmaq qabiliyyəti ilə müəyyənləşdiyi şəraitdə xüsusilə vacibdir.

"Prezident İlham Əliyevin Özbəkistanın müasir inkişafına verdiyi yüksək qiymət akademik ictimaiyyətin də üzərinə əlavə məsuliyyət qoyur. Buxara Dövlət Universiteti beynəlxalq əməkdaşlığın genişləndirilməsini, elmin inkişafını və rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasını ölkədə gedən transformasiyalara öz töhfəsi kimi qiymətləndirir. Əminəm ki, Özbəkistanın və Azərbaycanın ardıcıl yaxınlaşması hər iki ölkənin universitetləri üçün yeni imkanlar yaradacaq, təhsil və elm isə təkcə dövlətlərimizi deyil, xalqlarımızın gələcək nəsillərini də birləşdirən ən dayanıqlı körpülərdən birinə çevriləcək", - deyən professor fikrini yekunlaşdırıb.

# Azərbaycan-Özbəkistan müttəfiqliyi Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında mühüm geoiqtisadi körpü yaradır

**"Azərbaycan və Özbəkistan arasında münasibətlər son onilliklərdə ənənəvi diplomatik əlaqələrdən strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlib. Ölkələrimizi birləşdirən tarixi və mədəni yaxınlıq, qarşılıqlı siyasi etimad, eləcə də iqtisadi və nəqliyyat əlaqələrinin sürətlə inkişaf etməsi ikitərəfli münasibətləri yeni mərhələyə çıxarıb. Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri iki ölkə arasında münasibətlərin növbəti inkişaf mərhələsini müəyyən edən mühüm siyasi hadisədir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **Özbəkistanın beynəlxalq münasibətlər üzrə mütəxəssisi Giyosbek USKANBOEV** deyib.

Ekspert bildirib ki, Azərbaycan ilə Özbəkistan arasında diplomatik münasibətlər 1995-ci il oktyabrın 2-də qurulub. Müstəqilliyin ilk illərindən etibarən iki ölkə arasındakı əlaqələr iqtisadi, tarixi və mədəni yaxınlıq prinsiplərinə əsaslanıb. Münasibətlərin inkişafında son illər mühüm siyasi və hüquqi addımlar atılıb. 2022-ci ildə Azərbaycan və Özbəkistan prezidentləri Daşkənddə Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə imzaladılar. 2024-cü il avqustun 23-də prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında Müttəfiqlik münasibətləri haqqında Sazişə imza atdılar. Həmin səfər çərçivəsində Ali Dövlətlərarası Şuranın ilk iclasının keçirilməsi də münasibətlərin institusional əsaslarının möhkəmləndirilməsi baxımından mühüm hadisə oldu. 2025-ci ilin iyulunda Bakıda şuranın ikinci iclası keçirildi və bu çərçivədə iki ölkə arasında ticarət dövriyyəsinin 1 milyard ABŞ dollarına çatdırılması imkanları müzakirə edildi.

"Azərbaycan-Özbəkistan iqtisadi əlaqələrində ciddi dinamika müşahidə olunur. Son on ildə iki ölkə arasında ticarət dövriyyəsi 26 dəfə artaraq 2025-ci ildə 795 milyon ABŞ dollarına çatıb. Hazırda Özbəkistanda Azərbaycan investisiyalı təxminən 260 şirkət, Azərbaycanda isə Özbəkistan investisiyalı 130-dan çox müəssisə fəaliyyət göstərir. Birgə ticarət və investisiya layihələrinin ümumi dəyərinin 10 milyard ABŞ dollarını ötməsi iqtisadi əməkdaşlığın miqyasını nümayiş etdirir. Daşkənddə keçirilən IV Özbəkistan-Azərbaycan Regionlararası Forumunda 420-yə yaxın şirkətin iştirakı biznes dairələrinin qarşılıqlı əməkdaşlığa artan marağının göstəricisi kimi qiymətləndirib. İki ölkə arasında əlaqələr çoxsaylı sahələri əhatə etsə də, nəqliyyat və logistika sektoru strateji istiqamətlərdən biri kimi xüsusi əhəmiyyət daşıyır. Özbəkistanın ikiqat quru ilə əhatələnmiş ölkə olması onun xarici ticarətinin şaxələndirilməsini, dünya ölkələri ilə ticarət əlaqələrinin inkişaf etdirilməsini və yeni bazarlara çıxış imkanlarının genişləndirilməsini xüsusi əhəmiyyətli edir. Azərbaycan isə Mərkəzi Asiyanı Cənubi Qafqaz vasitəsilə Avropa ilə birləşdirən əsas coğrafi qovşaqlardan biridir. Məhz bu coğrafi üstünlük Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın mühüm geoiqtisadi əsasını formalaşdırır", - deyə ekspert vurğulayıb.

O qeyd edib ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Orta dəhliz bu əlaqələrin əsas istiqamətlərindən biridir. 2025-ci ilin iyulunda keçirilən danışıqlar zamanı Özbəkistanın Orta dəhliz vasitəsilə tranzitinin 25 faiz artaraq 1 milyon tonu ötdüyü bildirilib. Mart ayında elektron icazə sisteminin tətbiqə başlanması bu istiqamətdə daşımaların səmərəliliyinin artırılmasına xidmət edən addımlardan biridir.

## Avrasiyanın mərkəzi hissəsində regional bağlantı arxitekturasının mühüm dayağı

"Azərbaycan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və Xəzər dənizində formalaşmış nəqliyyat infrastrukturu vasitəsilə Özbəkistanın Qərb bazarlarına çıxış imkanlarını genişləndirib. 2024-cü ildə Azərbaycan və Özbəkistan arasında tranzit yükdaşımalarının həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu ötüb. Bu prosesi yalnız ikitərəfli nəqliyyat layihəsi kimi qiymətləndirmək düzgün olmaz. Burada Mərkəzi Asiya ilə Cənubi Qafqazın getdikcə daha sıx inteqrasiya olunan vahid geoiqtisadi məkan kimi formalaşmasından söhbət gedir. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Orta dəhlizlə əlaqələndirilməsi və gələcəkdə digər nəqliyyat marşrutlarının bu sistemə qoşulması Mərkəzi Asiyanın qlobal logistika sistemində rolunu daha da gücləndirə bilər. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də Orta dəhlizi müxtəlif istiqamətləri birləşdirən çoxtərəfli nəqliyyat sisteminin mühüm elementi kimi qiymətləndirir. Bu baxımdan, Orta dəhlizin Trans-Əfqan dəhlizi və Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu ilə əlaqələndirilməsi Mərkəzi Asiyanın alternativ nəqliyyat imkanlarını genişləndirə bilər. Azərbaycan-Özbəkistan münasibətləri yalnız siyasi və diplomatik əlaqələrlə məhdudlaşmır, ticarət, investisiya, nəqliyyat, enerji, mədəniyyət və çoxtərəfli əməkdaşlıq istiqamətlərində də genişlənir. Geoiqtisadi baxımdan iki ölkənin əsas üstünlüyü onların coğrafi mövqeyi ilə bağlıdır. Özbəkistan Mərkəzi Asiyanın mühüm iqtisadi və nəqliyyat mərkəzlərindən biri, Azərbaycan isə Xəzər hövzəsi ilə Cənubi Qafqazı, Türkiyəni və Avropa bazarlarını birləşdirən strateji qovşaqdır. Bu imkanlar nəqliyyat və iqtisadi əlaqələrin ardıcıl şəkildə inkişaf etdirilməsi ilə daha böyük regional üstünlüyə çevrilə bilər", - deyə ekspert diqqətə çatdırıb.

G.Uskanboevin fikrincə, Azərbaycan-Özbəkistan müttəfiqliyinin perspektivi yalnız iki ölkə arasındakı münasibətlərin inkişafı ilə ölçülməməlidir. Bu müttəfiqlik Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında əlaqələrin dərinləşməsinə, türk dünyasında iqtisadi inteqrasiyanın güclənməsinə və Avrasiyanın mərkəzində yeni geoiqtisadi əməkdaşlıq məkanının formalaşmasına mühüm töhfə verə bilər. Əgər nəqliyyat və iqtisadi əlaqələr ardıcıl şəkildə inkişaf etdirilərsə, Azərbaycan-Özbəkistan müttəfiqliyi qarşıdakı illərdə yalnız ikitərəfli münasibətlərin deyil, həm də Avrasiyanın mərkəzi hissəsində regional bağlantı arxitekturasının mühüm dayaqlarından birinə çevrilə bilər.



# Əbədi dostluq, sarsılmaz qardaşlıq, çoxsahəli tərəfdaşlıq

## Şavkat MİRZİYOYEV: "Özbəkistan və Azərbaycan arasında əməkdaşlıq artıq ikitərəfli gündəlik çərçivəsindən xeyli kənara çıxıb"

**Azərbaycanla Özbəkistan arasında diplomatik əlaqələr 31 illik tarixə malik olsa da, qardaş xalqlarımızın əsrlərdən-əsrlərə və nəsillərdən-nəsillərə keçən birlik, həmrəylik, qarşılıqlı hörmət və dəstək ənənələri var. Azərbaycan-Özbəkistan hərtərəfli əlaqələrinin getdikcə inkişafında bu, bir növ zəmin rolu oynayır. Başqa bir vacib amil də bu iki ölkənin başçılarının dost, qarşılıqlı hörmət, inam və etimad münasibətləridir.**

Bu mənada Azərbaycan və Özbəkistan prezidentlərinin qarşılıqlı səfərləri də mühüm əhəmiyyət daşıyır. Dövlətimizin başçısının dost və qardaş ölkəyə budəfəki səfəri də əlamətdar hadisə və görüşlərlə yadda qaldı.

Bu gün Azərbaycan da, Özbəkistan da təkcə regionda deyil, həm də beynəlxalq aləmdə böyük nüfuz və etimad qazanmış ölkələrdir. Təsadüfi deyil ki, Azərbaycan-Özbəkistan dövlətlərarası münasibətləri ötən dövr ərzində dinamik inkişaf edərək ali səviyyəyə - müttəfiqlik pilləsinə yüksəlib. İki il əvvəl imzalanan müqavilə iki müstəqil, güclü, suveren dövlət arasında təbii müttəfiqliyi rəsmiləşdirən və əbədiləşdirən mühüm tarixi sənəddir. Bu dəfə də müxtəlif sahələri əhatə edən bir sıra sənədlər imzalandı. Xüsusilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin imzaladıqları "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə" mühüm əhəmiyyət kəsb edir.

Bunlar bir daha təsdiqləyir ki, Azərbaycan-Özbəkistan əlaqələri çoxşaxəli əməkdaşlıq gündəliyinə malikdir. Ölkələrimizin siyasi, iqtisadi, ticari, sənaye, enerji, nəqliyyat-logistika, təhlükəsizlik, investisiya, kənd təsərrüfatı, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı gündən-günə genişlənir və yeni məzmunla zənginləşir. İkitərəfli əməkdaşlıq zəminində qısa müddət ərzində əldə edilən misilsiz nailiyyətlər ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına, regionumuzda əməkdaşlığa, ümumi firavanlığa və sabitliyə töhfə verir.

Azərbaycanla Özbəkistan arasında iqtisadi-ticari əməkdaşlığın son illərdə sürətli inkişaf dinamikası nümayiş etdirməsi özünü ticarət dövriyyəsinin keçən il əvvəlki illə müqayisədə üç dəfədən çox artmasında və 795 milyon dollara çatmasında göstərib. Bu ilin yanvar-may aylarında isə ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollar olub.

Üç il əvvəl 500 milyon dollar məbləğində ümumi kapitalla təsis edilən Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti iki ölkə arasında investisiya əməkdaşlığının inkişafı üçün mühüm platformaya çevrilib. Şirkət həm Azərbaycanda, həm də Özbəkistanda iqtisadiyyatın müxtəlif sektorlarında perspektivli layihələrin maliyyələşdirilməsinə və həyata keçirilməsinə dəstək verir.

Azərbaycan-Özbəkistan iqtisadi əlaqələrində enerji əməkdaşlığının özünəməxsus yeri var. İki ölkənin neftçilərini möhkəm dostluq telləri bağlayır. "Özbəkneft"in hər il paytaxtımızda keçirilən ənənəvi Bakı Enerji Həftəsində iştirakı da bunu təsdiqləyir. Prezident İlham Əliyev Daşkənddə mətbuata verdiyi bəyanatda bu mövzuya da toxunaraq demişdir: "Hətta bu gün ikitərəfli formatda rəsmi tədbirlərin sonunda yeni layihələrin təməlini qoyarkən və ya yeni layihələrə başlayarkən belə, bu layihələrin sadalanması əməkdaşlığımızın nə qədər çoxşaxəli olduğunu nümayiş etdirmək üçün kifayətdir. Bəli, mən hələ bankçılıq sahəsindəki əməkdaşlığımızı, aparıcı Azərbaycan bankının Özbəkistan bazarına və SOCAR-ın Özbəkistanın pərakəndə satış bazarına daxil olmasını xatırlatmağı unutmuşam. Neft və qaz kəşfiyyatı ilə bağlı layihələrdə isə biz artıq prinsipcə son mərhələdəyik və gələn il istismar quyularının qazılmasına başlamağa çox ümid edirik. Ümidvaram ki, bundan sonra kəşfiyyat-qazma və kəşfiyyat işləri yaxşı nəticələr verəcək".

Qeyd edək ki, hazırda beynəlxalq gündəmdə maraq doğuran məsələlərdən biri də Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın yaradacağı "yaşıl dəhliz"dir. Belə ki, 2024-cü il noyabrın 13-də COP29 çərçivəsində bu üç ölkənin dövlət başçısı "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalayıb. 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasını da xatırladaq. Bu sazişə əsasən, Qara dənizin dibi ilə "yaşıl enerji" kabeli çəkiləcək. Bir sözlə, Mərkəzi Asiya, Qafqaz, Avropa, Xəzər və Qara dəniz vahid enerji dəhlizi ilə birləşdiriləcək.

Xəzərin dibi ilə Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın birlikdə yaradacağı "yaşıl dəhliz" üçün bu ölkələrin hər birinin böyük potensialı var. Azərbaycanın "yaşıl gündəliy"i artıq bütün dünyaya bəllidir. 2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında ən azı 6 qiqavatlıq "yaşıl enerji" - günəş, külək və su-elektrik enerjisi istehsal olunacaq.

Özbəkistanda da bu istiqamətdə genişmiqyaslı işlər aparılır, "yaşıl enerji"nin inkişafı üçün böyük proqram qəbul edilib. 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payının 40 faizə çatdırılması, həmçinin 4,2 qiqavatlıq enerjisaxlama sistemlərinin yaradılması planlaşdırılıb.

Prezident İlham Əliyev dövlət səfəri ərəfəsində Özbəkistan Milli İnformasiya Agentliyinə verdiyi müsahibəsində bu istiqamətdə əməkdaşlıqdakı yenilikləri də diqqətə çatdırıb: "Yaşıl enerji" sahəsində əməkdaşlığımız da davam edir. 2025-ci ildə Azərbaycan, Qazaxıstan və Özbəkistanın müvafiq energetika idarələri tərəfindən Bakıda "Yaşıl Dəhliz Birliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis olunub. Bu birgə müəssisə Azərbaycan-Mərkəzi Asiya "yaşıl enerji" dəhlizi layihəsinin həyata keçirilməsini, bərpaolunan enerji ixracını və onun Xəzər dənizinin dibi ilə nəqli imkanlarını əlaqələndirmək məqsədilə yaradılıb".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan-Özbəkistan münasibətləri iqtisadi və institusional tərəfdaşlığa çevrilir

**Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında müttəfiqliyin real məzmun qazanması yeni mərhələ kimi xarakterizə olunur. İki ölkə arasında münasibətlər yalnız siyasi və diplomatik yaxınlıqla məhdudlaşmır, eyni zamanda qarşılıqlı investisiyalar, birgə istehsal, nəqliyyat, enerji, təhsil, elm, şəhərsalma və regionlararası sahələrdə əməkdaşlığı əhatə edən geniş iqtisadi və institusional tərəfdaşlıq modelinə çevrilir.**



**Milli Məclisin deputatı Pərvanə VƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, bu prosesin ən mühüm hadisəsi Prezident İlham Əliyevin avqustun 23-də Özbəkistana dövlət səfəri və Daşkənddə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın III iclasının keçirilməsi oldu: "Bu, 2024-cü ildə yaradılmış şuranın artıq münasibətlərin strateji istiqamətlərini sistemli şəkildə müəyyən edən əsas mexanizmlərdən birinə çevrildiyini göstərir. 2026-cı ilin əsas fərqi ondan ibarətdir ki, siyasi müttəfiqlik artıq konkret iqtisadi nəticələrlə müşayiət olunur. Belə ki, Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə bir sıra sənədlərin imzalanması və mübadiləsi mərasimi keçirilib. Bu sənədlər iki ölkə arasında əməkdaşlığın müxtəlif istiqamətlərini daha da institusionallaşdırır. Daha əhəmiyyətlisi isə Azərbaycana məxsus və Azərbaycan şirkətlərinin iştirakı ilə Özbəkistanda həyata keçirilən layihələrin miqyasının genişlənməsidir. Prezidentlərin iştirakı ilə bir sıra mühüm layihələrin təməli qoyulub. Bu layihələr çox mühüm bir tendensiyanı nümayiş etdirir: Azərbaycan-Özbəkistan münasibətləri ticarət münasibətlərindən qarşılıqlı investisiya və birgə biznes fəaliyyətinə keçir".

Deputat qeyd edib ki, yeni mərhələdə Azərbaycan kapitalının Özbəkistanda yatırımı xüsusilə diqqətçəkəndir. Bankçılıq, tikinti, şəhərsalma, enerji, sənaye, kənd təsərrüfatı, təhsil və turizm kimi müxtəlif sahələrdə Azərbaycan şirkətlərinin layihələri həyata keçirilir. Azərbaycan-Özbəkistan münasibətlərinin yeni mərhələsini regional kontekstdən ayrı təsəvvür etmək mümkün deyil. Bu yanaşma Azərbaycan-Özbəkistan münasibətlərinə ikitərəfli əlaqələrdən daha geniş məna verir. Azərbaycan Cənubi Qafqazı, Özbəkistan isə Mərkəzi Asiyanın mühüm hissəsini təmsil edərək Orta dəhliz, ticarət, logistika və enerji bağlantılarının inkişafında bir-birini tamamlayan tərəfdaşlara çevrilirlər. "Prezident İlham Əliyevin 23 avqust tarixli sərəncamı ilə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev "Heydər Əliyev" ordeni ilə təltif edilib. Sərəncamda bu qərarın Özbəkistan Prezidentinin Azərbaycan-Özbəkistan arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin inkişafında xüsusi xidmətləri ilə bağlı olduğu qeyd edilir. Bu addım münasibətlərin şəxsi liderlərarası etimad və siyasi iradə üzərində də möhkəm qurulduğunu göstərən mühüm simvolik hadisədir. Yeni mərhələnin digər xüsusiyyəti münasibətlərin yalnız dövlət və biznes səviyyəsində deyil, təhsil, elm və humanitar sahələrdə də dərinləşməsidir. Bu istiqamətdə STEAM məktəblərinin açılması xüsusilə diqqətəlayiqdir. Çünki müasir dövrdə dövlətlərarası münasibətlərin davamlılığını təmin edən əsas amillərdən biri gənclərin, elm və təhsil müəssisələrinin qarşılıqlı əlaqəsidir", - deyə o bildirib.

P.Vəliyeva bildirib ki, Azərbaycan artıq Mərkəzi Asiya ilə münasibətlərini yalnız ikitərəfli əlaqələr çərçivəsində deyil, Cənubi Qafqaz-Mərkəzi Asiya əlaqələndirilməsi, Orta dəhliz, enerji bağlantıları və türk dünyasının inteqrasiyası kontekstində qurur. Xüsusilə "C5-dən C6-ya keçid" Azərbaycanın regional rolunun yeni mərhələsinin sübutudur. Bu yanaşma Azərbaycanın xarici siyasətində yeni regional baxışın formalaşdığını göstərir. Cənubi Qafqaz və Mərkəzi Asiya bir-birindən ayrı geosiyasi məkanlar deyil, getdikcə daha sıx inteqrasiya olunan vahid iqtisadi və nəqliyyat məkanı kimi çıxış edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qardaşlığın və müttəfiqliyin yeni zirvəsi

## Azərbaycan ilə Özbəkistan arasında mədəni əlaqələr də yüksələn xətlə inkişaf edir

**Azərbaycan ilə Özbəkistan arasındakı münasibətlər sarsılmaz təməllər üzərində ucalan qardaşlıq örnəyidir. Ortaq din, dil, mənəvi dəyərlər, adət-ənənələr və qədim tarix bu iki dövləti və onların xalqlarını bir-birinə sıx şəkildə bağlayıb. Dövlət başçılarının siyasi iradəsi ilə iki ölkə arasında münasibətlər strateji müttəfiqlik zirvəsinə və əbədi dostluq səviyyəsinə yüksəlib.**

Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev arasında yaranmış yüksək şəxsi etimad və siyasi dialoq artıq dövlətlərarası münasibətlərin mühüm hərəkətverici qüvvəsinə çevrilib və bu, tərəfdaşlığın institusional mexanizmlərlə davamlı model kimi möhkəmlənməsini təmin edir. Avqustun 23-24-də Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri bu qardaşlıq salnaməsində yeni səhifə açdı. Səfər çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə" iki ölkənin gələcək nəsillərini birləşdirən mənəvi və siyasi manifestə çevrildi.

Azərbaycan-Özbəkistan əlaqələrinin dərin kökləri mədəniyyət, ədəbiyyat və incəsənət sahələrində xüsusilə özünü büruzə verir. İki xalqın mənəvi yaxınlığının qorunub saxlanması, zəngin mədəni irsin gələcək nəsillərə ötürülməsi bu günün əsas prioritetlərindəndir. Özbəkistan ilə Azərbaycan arasında həyata keçirilən mədəni-humanitar tədbirlər hər iki ölkənin paytaxtlarında və qədim şəhərlərində əsl bayram ab-havası yaradır.

Son illərdə keçirilən silsilə tədbirlər bu əlaqələrin intensivliyini nümayiş etdirir. Özbəkistanda və Azərbaycanda təşkil edilən mədəniyyət günləri, elm və incəsənət həftələri xalqların bir-birinin ruhunu daha dərindən anlamasına xidmət edir. 2023-cü və 2025-ci illərdə Azərbaycanda Özbəkistan mədəniyyət günlərinin, 2024-cü ildə isə Özbəkistanın elm və mədəniyyət günlərinin keçirilməsi, eləcə həmin il Özbəkistanda Azərbaycan mədəniyyət günlərinin və qədim Xivə şəhərində möhtəşəm "Şuşa günləri"nin təşkili unudulmaz mədəniyyət hadisələridir. Bu istiqamətdə həyata keçirilən tədbirlər yaradıcı insanları, şairləri, rəssamları, musiqiçiləri və elm xadimlərini bir araya gətirən inteqrasiya platformasıdır.

Bundan başqa, əlaqələrin ayrılmaz tərkib hissəsi olan təhsil və elm sahəsindəki əməkdaşlıq hər iki ölkənin gələcəyinə yatırılmış ən etibarlı sərmayədir. Bu mənada Özbəkistanın təşəbbüsü ilə Füzuli şəhərində inşa edilmiş, müasir standartlara cavab verən Mirzə Uluqbəy adına 960 şagird yerlik məktəb qardaşlıq münasibətlərinin əyani və simvolik ifadəsidir. İşğaldan azad edilmiş torpaqlarımızda ucalan bu məktəb həm də özbək xalqının Azərbaycanın haqq işinə verdiyi mənəvi dəstəyin unudulmaz nişanəsidir. Hər il yüzlərlə gənc tələbə qarşılıqlı şəkildə iki ölkənin nüfuzlu ali təhsil müəssisələrində təhsil alır, elmi tədqiqatlar aparırlar. Azərbaycan və özbək dillərinin qarşılıqlı tədrisi, elm və təhsil müəssisələri arasında əməkdaşlıq layihələri gənc nəslin bir-birinin dəyərlərini mənimsəməsinə geniş yol açır. Humanitar, mədəni əlaqələr, turizm, təhsil, mədəniyyət və idman sahələrindəki tərəfdaşlıq, o cümlədən 2027 FIFA U-20 Dünya Çempionatının birgə təşkili kimi irimiqyaslı layihələr əməkdaşlığın coğrafiyasını daha da genişləndirir.



İki ölkə arasında şəhərlərin qardaşlaşma əlaqələri ilə bir-birinə bağlandığını nəzərə alaraq qeyd edək ki, Bakı və Daşkənd, İsmayıllı və Riştan, Şuşa və Xivə, Lənkəran və Buxara, Şəki və Kokand, Biləsuvar və Termez, Mingəçevir və Namanqan, Füzuli və Güliston, Quba və Cizak, eləcə də Beyləqan və Şəhrisəbz bu körpüləri daha da möhkəmləndirir. Bundan əlavə, Ürgənc ilə Naxçıvan, Ürgənc ilə Xankəndi, Buxara ilə Laçın şəhərləri arasında qardaşlaşma münasibətlərinin qurulması barədə qərarlar inteqrasiyanın nə qədər genişmiqyaslı olduğundan xəbər verir.

Vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti də bu prosesdə mühüm rol oynayır. Füzulidə və Daşkənddə uğurla baş tutmuş QHT-lərin Əməkdaşlıq Forumlarının praktiki nəticəsi olaraq elan edilən birgə qrant müsabiqəsi iki ölkənin qeyri-hökumət təşkilatlarının səylərini birləşdirərək sosial layihələri həyata keçirməsinə zəmin yaradıb.

Mədəni və mənəvi əlaqələrin möhkəmliyi ilə yanaşı, iqtisadi və ticarət sahələrində də əməkdaşlıq genişlənir. 2025-ci ildə ticarət dövriyyəsinin 795 milyon ABŞ dollarına çatması, Azərbaycanda 130-dan çox Özbəkistan şirkətinin fəaliyyət göstərməsi, "Azərmaş" Birgə Müəssisəsində minlərlə avtomobilin istehsalı, eləcə də Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin fəaliyyəti iqtisadi tərəfdaşlığın real nəticələridir. Eyni zamanda işğaldan azad edilmiş Füzuli rayonunda 100 hektar ərazidə salınan "Dostluq bağı" layihəsi çərçivəsində həm özbək, həm də Azərbaycan nar sortlarının yetişdirilməsi ekoloji və iqtisadi bağlılığın rəmzinə çevrilib. İki qardaş xalqın əsrlər boyu qoruyub saxladığı qarşılıqlı etimad, dostluq, səmimiyyət və həmrəylik bu gün regionun gələcəyini formalaşdıran əsas amillərdəndir.

Prezident İlham Əliyevin Özbəkistana növbəti dövlət səfəri isə Azərbaycan-Özbəkistan əlaqələrini tamamilə yeni müstəviyə yüksəldəcək, iqtisadi münasibətlər daha da dərinləşəcək. İki qardaş ölkənin birliyi və həmrəyliyi bütövlükdə Avrasiya regionunda sülhə, təhlükəsizliyə və əməkdaşlığa böyük töhfə verir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Bakı-Daşkənd münasibətləri sərgi fəaliyyətində də öz əksini tapır

Azərbaycan ilə Özbəkistan arasında dostluq, qardaşlıq və qarşılıqlı etimada əsaslanan münasibətlər uğurla inkişaf edərək yeni mərhələyə yüksəlib. Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində keçirilən yüksəksəviyyəli görüşlər və imzalanan mühüm sənədlər iki ölkə arasındakı əlaqələrin strateji xarakterini bir daha təsdiqləyir. Səfər çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında Əbədi dostluq haqqında Müqavilə" münasibətlərin inkişafında tarixi hadisə kimi qiymətləndirilir. İki ölkə arasında əməkdaşlıq siyasi dialoqla yanaşı, ticarət, investisiya, energetika, tikinti, kənd təsərrüfatı, nəqliyyat və digər istiqamətlərdə də genişlənir. Son 5 ildə qarşılıqlı ticarət dövriyyəsinin 3 dəfə artması, birgə layihələr portfelinin isə 5 milyard dolları ötməsi iqtisadi əlaqələrin yüksək inkişaf dinamikasını nümayiş etdirir. Azərbaycan ilə Özbəkistan arasında enerji sahəsində əməkdaşlıq da dinamik şəkildə inkişaf edərək yeni mərhələyə yüksəlir. Son illərdə iki ölkə həm ənənəvi, həm də bərpaolunan energetika sahəsində mühüm birgə layihələr həyata keçirir. İkitərəfli dialoqun yüksək səviyyəsi enerji resurslarının hasilatı və nəqli, eləcə də "yaşıl texnologiya"ların tətbiqi sahəsində yeni təşəbbüslərin inkişafına şərait yaradır. Özbəkistanla "yaşıl enerji" sahəsində tərəfdaşlıq Mərkəzi Asiya və Xəzər regionunda dayanıqlı energetikanın inkişafına yönəlmiş günəş, külək və su enerjisi layihələrini əhatə edir.

"Caspian Event Organisers" şirkətindən AZƏRTAC-a bildirilib ki, belə fəal əməkdaşlıq fonunda iki ölkənin biznes dairələri arasında əlaqələr də güclənir. Bu tendensiya Özbəkistan şirkətlərinin Bakıda keçirilən beynəlxalq ticarət sərgilərində iştirakı ilə aydın şəkildə özünü göstərir. Sərgilər özbək şirkətlərinə məhsul və xidmətlərini Azərbaycan bazarında təqdim etmək, yerli və xarici tərəfdaşlarla birbaşa əlaqələr qurmaq, yeni əməkdaşlıq imkanlarını dəyərləndirmək üçün mühüm platforma yaradır.

2025-ci il ərzində "Caspian Event Organisers" və "Iteca Caspian" şirkətləri tərəfindən Azərbaycanda təşkil olunan sərgilərdə Özbəkistan ümumilikdə 24 şirkətlə təmsil olunub. Sərgilərin iştirakçıları sırasında "Uzbekneftegaz" ASC, "Uzpromstroymateriali", "Basalt Uzbekistan", "Trade Development Company" ASC və Özbəkistanın müxtəlif sahələrdə fəaliyyət göstərən digər aparıcı şirkətləri yer alıb. Bu şirkətlər sərgilər çərçivəsində neft-qaz və energetika, tikinti, yol infrastrukturu, nəqliyyat, səhiyyə, logistika və digər mühüm sahələrdə məhsul və xidmətlərini təqdim edərək yerli və beynəlxalq biznes nümayəndələri ilə potensial tərəfdaşlıq istiqamətlərini müzakirə ediblər.

Özbəkistan şirkətləri Bakı Enerji Həftəsində də fəal iştirak edirlər. Özbəkistanın geoloji kəşfiyyat, neft və qazın hasilatı, nəqli, saxlanılması, emalı və satışı ilə məşğul olan ən böyük dövlət şirkəti - "Uzbekneftegaz" ardıcıllıq olaraq hər il tədbirdə öz stendi ilə təmsil olunur. Ənənəyə sadiq olaraq şirkət 2026-cı ildə də "Caspian Oil & Gas" sərgisinə qatılıb.

Bununla yanaşı, ötən il Özbəkistan "Caspian Construction Week" çərçivəsində milli pavilyonla çıxış edərək ölkənin müvafiq sahələrdə fəaliyyət göstərən şirkətlərini və ixrac potensialını vahid ekspozisiyada təqdim edib.

2026-cı ilin sərgi mövsümündə də Özbəkistan şirkətləri Azərbaycanda keçirilən beynəlxalq sərgilərdə təmsil olunacaqlar. "Trade Development Company" ASC və "RAV Ekspress" kimi şirkətlər "BakuBuild" sərgisinə qatılacaqlar.

Özbəkistan şirkətlərinin Azərbaycanın beynəlxalq sərgilərində fəal iştirakı iki ölkə arasında möhkəmlənən siyasi, iqtisadi və işgüzar əlaqələrin təzahürüdür. Yüksəksəviyyəli siyasi münasibətlər və yaradılmış əlverişli əməkdaşlıq mühiti qarşıdakı sərgi mövsümlərində də Özbəkistanın daha çox şirkətlə və daha geniş sahələr üzrə təmsil olunması üçün yeni imkanlar açır.



# Müttəfiqliyin yeni zirvəsi

## Əbədi dostluq haqqında müqavilə iki dövlətin geosiyasi, iqtisadi və təhlükəsizlik baxımından bir-birinə nə qədər sarsılmaz tellərlə bağlandığını göstərir

**23 avqustda Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri iki qardaş ölkə arasında tarixi münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoydu. Səfər çərçivəsində dövlət başçıları tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə" sadəcə formal diplomatik sənəd deyil, iki dövlətin geosiyasi, iqtisadi və təhlükəsizlik baxımından bir-birinə nə qədər sarsılmaz tellərlə bağlandığının bariz sübutudur.**

### Sarsılmaz həmrəylik modelinin hüquqi təməli

Son illərdə Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında cərəyan edən sürətli geostrateji proseslər, xüsusilə Orta dəhlizin strateji əhəmiyyətinin artması və Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində inteqrasiya meyillərinin güclənməsi Bakı ilə Daşkənd arasında münasibətlərin dərinləşməsini zərurətə çevirib. Son 4-5 il ərzində dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivləşməsi, aparılan yüksəksəviyyəli danışıqlar və iqtisadi-ticari əlaqələrin dinamik artımı strateji tərəfdaşlıq modelinin artıq müttəfiqlik və əbədi dostluq səviyyəsinə yüksəlməsini təmin etdi. Bu baxımdan, imzalanan müqavilə iki ölkənin ortaq soy-kökə, dil və mədəniyyət yaxınlığına söykənən tarixi qardaşlıq bağlarını müasir beynəlxalq hüquq müstəvisində ən ali, dəyişməz və institutlaşmış formada təsbit edir. Bu yalnız cari siyasi vəziyyətin tələbi deyil, eyni zamanda gələcək nəsillərə ötürüləcək davamlı və sarsılmaz həmrəylik modelinin hüquqi təməlidir.

Sənəddə göstərilir ki, iki dövlət beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərini və normalarını rəhbər tutaraq, münasibətlərində əbədi dostluğa, qarşılıqlı etimada, strateji tərəfdaşlığa və müttəfiqliyə əsaslanır, öz milli reallıqlarına uyğun inkişaf yollarının və modellərinin seçimində bir-birini dəstəkləyirlər. Onlar həmçinin digər tərəfin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vuran hər hansı bloklarda və ya ittifaqlarda iştirak etməməyi, öz ərazilərinin üçüncü ölkələr tərəfindən digər tərəfin dövlət suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vurmaq məqsədilə istifadə edilməsinə, eləcə də öz ərazilərində digər tərəfin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vuran təşkilatların və qrupların yaradılmasına və fəaliyyətinə yol verməməyi öhdələrinə götürürlər.

Bu şərtlər iki ölkənin təhlükəsizlik çətirinin birgə formalaşdırıldığını göstərməklə yanaşı, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının təhlükəsizlik arxitekturasında yeni sabitlik mərkəzinin yarandığını nümayiş etdirir.

Müqavilə həm də genişmiqyaslı iqtisadi inteqrasiyanı xarakterizə edir. Sənəddə əks olunan prioritetlər göstərir ki, Bakı və Daşkənd artıq ticarət əlaqələrini sadəcə mal mübadiləsi çərçivəsində görmür, daha dərin və dayanıqlı tərəfdaşlıq modeli formalaşdırırlar. İki ölkə bərabərlik və qarşılıqlı faydalılıq prinsipləri əsasında ticarət-iqtisadi və investisiya əməkdaşlığını inkişaf etdirir, energetika, nəqliyyat və logistika, rəqəmsal inkişaf, kənd təsərrüfatı, "yaşıl" və rəqəmsal iqtisadiyyat, elektron ticarət, informasiya-kommunikasiya və kosmik texnologiyalar, habelə qarşılıqlı maraq doğuran digər istiqamətlərdə birgə layihələrin həyata keçirilməsinə kömək göstərirlər.

Bütün bunlar tərəflərin iqtisadiyyatlarını müasir geosiyasi reallıqlara uyğun olaraq diversifikasiya etmək niyyətindən xəbər verir. Birgə investisiya layihələri regionda yeni iş yerlərinin və istehsal zəncirlərinin yaranmasını təşviq edir.

İki ölkə nəqliyyat sistemlərinin qarşılıqlı inteqrasiyasına xüsusi diqqət ayırır. Sənəddə əks olunub ki, yüklərin və sərnişinlərin əlverişli və qarşılıqlı faydalı daşınmasını təmin etməyə, eləcə də nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına yönəlmiş qarşılıqlı əlaqəli nəqliyyat sisteminin daha da möhkəmləndirilməsi üçün zəruri şərait yaradırlar.

### Ortaq kimlik və dəyərlər ətrafında sıx birləşmə

İki ölkə xalqlarının mənəvi, təhsil və mədəni yaxınlığının qorunub saxlanmasına hərtərəfli kömək göstərir, elm, təhsil, tibb, mədəniyyət, mədəni irs, gənclər, turizm və idman, habelə qarşılıqlı maraq doğuran digər istiqamətlərdə mübadilə və əməkdaşlığı inkişaf etdirirlər. Azərbaycan və özbək dillərinin qarşılıqlı tədrisinə, elmi və təhsil müəssisələri arasında birbaşa əməkdaşlığın inkişaf etdirilməsinə və birgə layihələrin həyata keçirilməsinə şərait yaradırlar. Regionlararası əməkdaşlığın inkişafını dəstəkləyir, şəhərlər və regionlar arasında tərəfdaşlıq əlaqələrinin qurulmasını təşviq edirlər. Göstərilənlər gələcək nəsillərin ortaq kimlik və dəyərlər ətrafında sıx birləşməsini hədəfləyir.

Daşkənddə keçirilən mərasimdə dövlət başçılarının bir-birini ali ordenlərlə - (Prezident İlham Əliyevin "Dostluq", Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin isə "Heydər Əliyev" ordeni ilə) təltif etməsi siyasi iradənin və şəxsi etimadın ən yüksək göstəricisidir.

Daşkənddə təltifolunma mərasimində Prezident İlham Əliyev son 4-5 ildə həyata keçirilən intensiv səfər dinamikasına diqqət çəkərək, əldə olunan bu yüksək diplomatik səviyyənin əsrə söykənən ortaq köklər, mədəniyyət və dil yaxınlığı üzərində ucaldığını diqqətə çatdırdı: "...bu statistikanın arxasında, ilk növbədə, ortaq köklərimiz, xalqlarımızın yaxınlığı, mədəniyyətlərimizin, dillərimizin və adət-ənənələrimizin yaxınlığı, bir-birimizə qarşı səmimi münasibət, özbək və Azərbaycan xalqları arasında əsrlər boyu davam edən dostluq dayanır. Bu, həmin təməldir - əlbəttə, qardaşlığımızın bu binasını necə möhkəmləndirdiyimiz, hansı layihələri həyata keçirdiyimiz, qarşılıqlı fəaliyyətimizə və ölkələrimizin inkişafına yönəlmiş müxtəlif təşəbbüslərdə necə birgə iştirak etdiyimiz".

Şavkat Mirziyoyevin bəyanatında "Bu gün biz Əbədi dostluq haqqında müqavilə imzaladıq. Təsəvvür edirsinizmi, regionlar, biznes, hökumətlər və parlamentlərarası əlaqələr artıq nə qədər yüksək səviyyəyə çatıb. Bu, sadəcə bir sənəd deyil, qarşılıqlı əlaqələri dərinləşdirmək, əməkdaşlıq imkanlarını genişləndirmək və ümumi gələcək qurmaq istiqamətində birgə istəyimizin əksidir", - deməsi bu tərəfdaşlığın praqmatik nəticələrə söykəndiyini bir daha təsdiq edir.

Əbədi dostluq haqqında müqavilə Azərbaycan və Özbəkistanın həm ikitərəfli formatda, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində mövqelərini keyfiyyətcə yeni müstəviyə qaldırır. Sənəd strateji müttəfiqlikdən əbədi dostluq mərhələsinə keçidi rəsmiləşdirərək, təkcə cari dövrün geopolitik ehtiyaclarını ödəmir, eyni zamanda gələcək nəsillər üçün sarsılmaz qardaşlıq və həmrəylik irsi formalaşdırır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Bakı və Daşkəndin strateji inteqrasiyası: türk dünyasında yeni regional güc mərkəzi

**Prezident İlham Əliyevin Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibəsində səsləndirdiyi fikirlər Bakı ilə Daşkənd arasında münasibətlərin yalnız əldə olunan nəticələr baxımından deyil, qarşıdakı perspektivlər baxımından da böyük əhəmiyyət daşıdığını nümayiş etdirir. Dövlət başçıları arasında qarşılıqlı səfərlər, qəbul edilən mühüm qərarlar və yaradılan yeni əməkdaşlıq mexanizmləri əlaqələrin sistemli və ardıcıl xarakter daşıdığını göstərir. Müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması isə qarşılıqlı etimadın daha yüksək siyasi mərhələyə yüksəldiyini təsdiqləyir.**



Özü də bu münasibətlərin gücü yalnız siyasi sənədlərlə məhdudlaşmır. Azərbaycan və Özbəkistan xalqlarını birləşdirən ortaq tarix və mədəni dəyərlər dövlətlərarası əməkdaşlığın möhkəm ictimai dayağını təşkil edir. Təhsil və mədəniyyət sahəsində həyata keçirilən layihələr, media və ictimai təşkilatlar arasında əlaqələr, eləcə də şəhərlərarası əməkdaşlıq xalqların bir-birini daha yaxından tanımasına zəmin yaradır.

Münasibətlərin gələcəyi baxımından iqtisadi əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Son illərdə ticarət dövriyyəsinin sürətlə artması, Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin yaradılması və müxtəlif sahələrdə birgə layihələrin həyata keçirilməsi qarşılıqlı iqtisadi marağın gücləndiyini göstərir. Burada əsas üstünlük ondan ibarətdir ki, tərəflər hazırkı göstəricilərlə kifayətlənmir, yeni əməkdaşlıq istiqamətləri axtarışını davam etdirirlər.

Nəqliyyat-logistika sahəsində də perspektivlər kifayət qədər böyükdür. Azərbaycanın Avrasiyanın mühüm nəqliyyat qovşaqlarından birinə çevrilməsi, Özbəkistanın isə Mərkəzi Asiyada strateji mövqeyə malik olması iki ölkəni regional bağlantıların inkişafında təbii tərəfdaşlara çevirir. Orta dəhlizin imkanlarının genişləndirilməsi və Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında əlaqələrin gücləndirilməsi həm Azərbaycan, həm də Özbəkistan üçün yeni iqtisadi imkanlar yaradır.

Bu prosesdə Türk Dövlətləri Təşkilatının (TDT) rolu da getdikcə artır. Azərbaycan və Özbəkistanın təşkilat çərçivəsindəki fəal mövqeyi nəqliyyat, ticarət, investisiya, təhsil və mədəniyyət sahələrində çoxtərəfli əməkdaşlığın genişlənməsinə şərait yaradır. İkitərəfli münasibətlərin güclənməsi, beləliklə, daha geniş əməkdaşlıq türk dünyasının inteqrasiya prosesinə də müsbət təsir göstərir.

Azərbaycanın Mərkəzi Asiya regionu ilə münasibətlərinin dərinləşməsi yeni regional geostrateji mənzərənin formalaşmasına xidmət edir. Bu əməkdaşlıq qarşılıqlı maraqlara əsaslandığı üçün davamlı və sabit xarakter daşıyır. Özbəkistanla münasibətlər isə bu siyasətin mühüm dayaqlarından biridir. Azərbaycanın Cənubi Qafqazdakı imkanları ilə Özbəkistanın Mərkəzi Asiyadakı potensialının birləşdirilməsi daha geniş iqtisadi və nəqliyyat məkanının yaranmasına zəmin yaradır.

Bakı və Daşkənd arasında qurulan münasibətlər gələcəyə yönəlmiş strateji tərəfdaşlığın bariz nümunəsidir. Burada söhbət yalnız iki ölkənin yaxınlaşmasından deyil, yeni nəqliyyat-iqtisadi imkanların yaradılmasından, türk dünyasının inteqrasiyasının gücləndirilməsindən və regionlar arasında qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq mühitinin genişləndirilməsindən gedir. Məhz buna görə Azərbaycan-Özbəkistan müttəfiqliyi gələcəkdə daha böyük siyasi və iqtisadi nəticələr doğuracaq mühüm regional amillərdən biri kimi qiymətləndirilməlidir.

*Natiq QULUZADƏ,*
*YAP Zəngilan rayon təşkilatının sədri*

# Azərbaycan-Özbəkistan münasibətləri Avrasiyanın yeni siyasi və iqtisadi arxitekturasını formalaşdırır

**Azərbaycanın müstəqil xarici siyasətində Mərkəzi Asiya regionu ilə strateji tərəfdaşlığın dərinləşdirilməsi xüsusi prioritet təşkil edir. Bu çərçivədə Mərkəzi Asiyanın aparıcı dövlətlərindən biri olan Özbəkistan ilə əlaqələrin strateji müttəfiqlik səviyyəsinə qaldırılması xüsusi əhəmiyyət daşıyır. Köklü tarixə, mənəvi bağlara söykənən bu münasibətlər iki ölkənin milli maraqlarının üst-üstə düşməsi ilə daha da möhkəmlənir.**

İki dövlətin münasibətlərinin yüksək səviyyəyə qalxmasında dövlət başçılarının səmimi və intensiv təmasları həlledici rol oynayır. Bu mənada Azərbaycan-Özbəkistan münasibətlərinin formalaşmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri xüsusi qeyd edilməlidir. Ümummilli Liderin uzaqgörən xarici siyasət strategiyasında Mərkəzi Asiya ölkələri ilə əlaqələrin inkişafı mühüm yer tuturdu. Bu siyasət Azərbaycanın tarixi və mədəni bağlar əsasında regional əməkdaşlıq imkanlarının genişləndirilməsinə şərait yaratdı. Ulu Öndərin 1997-ci ildə Özbəkistana rəsmi səfəri və səfər çərçivəsində imzalanmış sənədlər Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında mühüm mərhələ oldu. Yəni mövcud yüksəksəviyyəli əlaqələrin təməlində illər ərzində formalaşdırılmış siyasi etimad, qarşılıqlı hörmət və ardıcıl dövlət siyasəti dayanır.

Bu gün isə Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin siyasi iradəsi və xüsusi diqqəti ilə Azərbaycan-Özbəkistan münasibətləri özünün yüksək siyasi mərhələsinə, müttəfiqlik səviyyəsinə qalxıb və bütün sahələr üzrə hərtərəfli əməkdaşlıq əlaqələri formalaşıb. Dövlətimizin başçısının Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə qarşılıqlı inam və etimada əsaslanan dostluq münasibətlərinə malik olması bu əlaqələrin inkişaf dinamikasına mühüm təkan verib və əməkdaşlığın genişlənməsində xüsusi rol oynayıb. Təsadüfi deyil ki, son 5 ildə Prezident İlham Əliyev Özbəkistana 3 dövlət səfəri və 4 işgüzar səfər, Prezident Şavkat Mirziyoyev isə həmin müddətdə ölkəmizə 2 dövlət və 7 işgüzar səfər edib. Son beş ildə həyata keçirilən çoxsaylı dövlət və işgüzar səfərlər bu dinamik tərəfdaşlığın və ali səviyyəli siyasi dialoqun bariz göstəricisidir.

Əsas məqamlardan biri liderlər arasındakı ali etimadın dövlət institutlarının davamlı fəaliyyət mexanizminə inteqrasiya olunmasıdır. Müttəfiqlik Müqaviləsi, Ali Dövlətlərarası Şura və müntəzəm təmaslar uzunmüddətli koordinasiyanın möhkəm bünövrəsini təşkil edir. 2023-cü ilin avqustunda təsis edilmiş Ali Dövlətlərarası Şura Azərbaycan ilə Özbəkistan arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin dərinləşdirilməsi istiqamətində mühüm institusional mexanizmə çevrilib.



Prezident İlham Əliyevin avqustun 23-də Özbəkistana dövlət səfəri iki ölkənin münasibətlərinin strateji xarakterini və tərəflər arasında siyasi dialoqun intensivliyini bir daha nümayiş etdirdi. Bu səfər iki ölkə arasındakı müttəfiqlik münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından tarixi önəm kəsb edir. Səfər çərçivəsində Azərbaycan Respublikası və Özbəkistan Respublikası Ali Dövlətlərarası Şurasının üçüncü iclası keçirildi və mühüm sənədlər imzalandı. Xüsusən, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə" iki ölkə arasındakı münasibətləri hüquqi baxımdan ən ali mərtəbəyə, müttəfiqlik və əbədi dostluq müstəvisinə yüksəltdi. Bu tarixi sənəd tərəflərin suverenliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini qarşılıqlı şəkildə qorumaq kimi mühüm təhlükəsizlik zəmanətlərini təsbit edir. Eyni zamanda müqavilə energetika, "yaşıl iqtisadiyyat", Cənubi Qafqaz-Mərkəzi Asiya nəqliyyat dəhlizlərinin potensialının artırılması kimi strateji sahələrlə yanaşı, parlamentlərarası, elm-təhsil və mədəniyyət istiqamətlərində də dərin inteqrasiyanın bünövrəsini qoyur. Ən əsası bu sənəd, Azərbaycan-Özbəkistan qardaşlığını rəsmiləşdirərək sarsılmaz müttəfiqliyi gələcək nəsillər üçün də hüquqi zəmanət altına alır.

Münasibətlərin əbədi dostluq və müttəfiqlik səviyyəsinə yüksəlməsi iki ölkə arasında tarixən mövcud olan sarsılmaz qardaşlıq və qarşılıqlı dəstək ənənəsinə söykənir. Azərbaycan torpaqları işğal altında olarkən Özbəkistan hər zaman Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyən ölkələrdən biri olub. Keçmiş münaqişə zamanı beynəlxalq təşkilatların tribunasından BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını tələb edən Özbəkistan Ermənistanın işğalçılıq siyasətinə etiraz olaraq bu ölkədə səfirlik açmaqdan imtina edib. Post-münaqişə dövründə də Özbəkistan qardaşlıq dəstəyini davam etdirib.

İki dövlət demək olar ki, üzv olduqları bütün beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə də BMT, İƏT, TDT, AQEM, Qoşulmama Hərəkatı, Mərkəzi Asiya və Azərbaycan Respublikası Dövlət Başçılarının Məşvərət Görüşü və digər çoxtərəfli platformalar çərçivəsində səmərəli əməkdaşlıq edirlər. Azərbaycan Özbəkistan da daxil olmaqla Mərkəzi Asiya ölkələri ilə müstəsna xarakter daşıyan əlaqələrinin həm ikitərəfli qaydada, həm də çoxtərəfli müstəvidə dərinləşməsinə xüsusi əhəmiyyət verir.

Ölkəmizin Mərkəzi Asiya dövlətləri ilə siyasi dialoqunun və regional əməkdaşlığının inkişafında Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının Məşvərət Görüşü mühüm rol oynayır. Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü ilk dəfə olaraq 2018-ci ildə Qazaxıstanın Astana şəhərində baş tutub. 2023-cü ildə və 2024-cü ildə müvafiq olaraq keçirilmiş 5-ci və 6-cı Məşvərət görüşlərində Prezident İlham Əliyev fəxri qonaq qismində iştirak və çıxış edib. 16 noyabr 2025-ci ildə Özbəkistanın Daşkənd şəhərində keçirilmiş 7-ci Məşvərət Görüşündə Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə Azərbaycan Respublikasının tamhüquqlu iştirakı haqqında qərar qəbul edilib. Bu qərar Azərbaycanın region üçün strateji əhəmiyyətini və Mərkəzi Asiya dövlətləri ilə yaxın münasibətlərə malik olduğunu bir daha nümayiş etdirib. Azərbaycanın prosesə fəal qoşulması nəticəsində indiyə qədər C5 adlanmış əməkdaşlıq formatı faktiki olaraq C6 formatına yüksəlib. Regional dialoq və strateji tərəfdaşlıq yeni məzmun və əhatə dairəsi qazanıb.

İkitərəfli əlaqələrin çoxtərəfli əməkdaşlığa çevrilməsinin və inkişafının təməlini Türk Dövlətləri Təşkilatı (TDT) təşkil edir. Türk dünyasının gələcək nüfuzunu yalnız mədəni həmrəylik deyil, konkret nəqliyyat dəhlizləri, enerji bağlantıları və investisiya mexanizmləri müəyyən edir. Bakı-Daşkənd oxu bu həmrəyliyin real iqtisadi gücə necə çevrildiyini nümayiş etdirir. TDT-nin gələcəkdə iqtisadi və siyasi əməkdaşlıqla yanaşı, təhlükəsizlik və müdafiə sahəsində də daha sıx inteqrasiyası mümkündür. Əlbəttə, burada söhbət hərbi blokun yaradılmasından yox, terrorçuluq və transmilli cinayətkarlığa qarşı mübarizə, kibertəhlükəsizlik, sərhəd təhlükəsizliyi, hərbi təhsil və təlimlər, müdafiə sənayesi sahəsində əməkdaşlıq kimi istiqamətlərdən gedir.

Bakı ilə Daşkəndin strateji yaxınlaşmasının mühüm geoiqtisadi ölçülərindən biri də nəqliyyat-logistika şəbəkəsidir. Azərbaycanın Qərbə açılan qapısı ilə Özbəkistanın Mərkəzi Asiyanın coğrafi imkanlarını birləşdirməsi strateji tranzit modeli formalaşdırır. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun Orta dəhliz və TRIPP vasitəsilə inteqrasiyası Mərkəzi Asiyanın dənizə çıxışı olmayan ölkələri üçün Avropa bazarlarına ən qısa marşrut açır. Beləliklə, Orta dəhliz Avrasiyanın müxtəlif iqtisadi qütblərini birləşdirən çoxşaxəli platformaya çevrilir.

Azərbaycan və Özbəkistan arasında siyasi dialoqun dayanıqlılığını müəyyən edən əsas amil onun real iqtisadi məzmun qazanmasıdır. 2025-ci ildə qarşılıqlı ticarət dövriyyəsinin 795 milyon dollara çatması və 2026-cı ilin ilk aylarında müsbət dinamikanın saxlanılması iqtisadi tutumun sürətlə genişləndiyini göstərir. 500 milyon dollar nizamnamə kapitalına malik Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti, Azərbaycanda 130-dan çox Özbəkistan kapitalı ilə şirkətin fəaliyyəti, Özbəkistanda "PASHA Holding" və "Sea Breeze" layihələri, neft-qaz sektorunda "Turan Energy AFEZCO" birgə müəssisəsi əməkdaşlığın miqyasını əks etdirir. Ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard dollara çatdırılması hədəflənir.

Nəticə etibarı ilə, Azərbaycan-Özbəkistan tərəfdaşlığı Cənubi Qafqaz və Mərkəzi Asiyanın vahid bağlantı sisteminə keçidini təmin edir. Bu müttəfiqlik Şərqlə Qərb arasında yeni geostrateji məkanın dayaq nöqtəsinə çevrilərək Avrasiyanın yeni bağlantı xəritəsini müəyyənləşdirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Euronews" Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərindən yazıb

**Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri, səfər çərçivəsində keçirilən görüşlər və imzalanan sənədlər Avropa mediası tərəfindən diqqətdə saxlanılıb.**

AZƏRTAC xəbər verir ki, "Euronews" telekanalının saytında Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri geniş işıqlandırılıb.

"Özbəkistan və Azərbaycan müttəfiqliyi gücləndirir: 1 milyard dollarlıq hədəf və Trans-Xəzər əlaqələrinin inkişafı" adlı məqalədə Daşkənddə prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyevin "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə" imzaladığı və yeni iqtisadi layihələrə start verdikləri bildirilir.

Yazıda Azərbaycan və Özbəkistanın 2030-cu ilədək ikitərəfli ticarət dövriyyəsini 1 milyard dollara çatdırmağı qarşıya məqsəd qoyduğu bildirilir. Prezidentlər həmçinin danışıqlar zamanı iqtisadi və nəqliyyat əməkdaşlığının daha da dərinləşdirilməsi barədə razılığa gəliblər. Qeyd olunur ki, prezidentlər təkbətək görüş


euronews. Latest Europe World EU Policy Business Travel Next Culture Earth Health

News > World > Uzbekistan

Uzbekistan and Azerbaijan deepen alliance with $1bn trade target and stronger Trans-Caspian links

Copyright Uzbekistan's Center for the Production of Content for Mass Media

keçirib, eləcə də Azərbaycan və Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclasına rəhbərlik ediblər.

Məqalədə Şavkat Mirziyoyevin mətbuata bəyanatla çıxışı zamanı Azərbaycanı etibarlı müttəfiq, strateji tərəfdaş və qardaş dövlət adlandırdığı qeyd olunur. Prezident İlham Əliyevin isə Mərkəzi Asiya və Azərbaycanı vahid geosiyasi və geoiqtisadi region adlandırdığı bildirilir. Hər iki lider Mərkəzi Asiyanı Cənubi Qafqaz və Avropa ilə birləşdirən Trans-Xəzər şəbəkəsi üzrə logistika infrastrukturunun yaxşılaşdırılmasına və yükdaşımaların artırılmasına diqqət yetirməklə Orta dəhliz vasitəsilə əlaqəliliyin gücləndirilməsi barədə razılığa gəliblər.

Qeyd olunur ki, tərəflər pensiya təminatı, mədəniyyət və turizm, xarici işlər və ədliyyə nazirlikləri arasında əməkdaşlıq, eləcə də şəhərlər arasında qardaşlıq əlaqələri haqqında sənədlər imzalayıblar. Bu çərçivədə Ürgəncin Xankəndi və Naxçıvanla, Buxaranın isə Laçınla qardaş şəhər olması nəzərdə tutulur.

Həmçinin Prezident İlham Əliyevin səfərdən əvvəl Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində ötən il iki ölkə arasında ticarət dövriyyəsinin 795 milyon dollara çatdığı və bu göstəricinin əvvəlki illə müqayisədə üç dəfədən çox olduğu vurğulanır.

Məqalədə qeyd olunur ki, səfər çərçivəsində Yeni Daşkənd şəhərində "Azərbaycan" parkının təməli qoyulub, Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılış mərasimi keçirilib. Prezident İlham Əliyev Özbəkistanın ali dərəcəli "Dostluq" ordeni, Prezident Şavkat Mirziyoyev isə Azərbaycanın "Heydər Əliyev" ordeni ilə təltif edilib.

Eyni zamanda yazıda 2023-cü ildə iki ölkənin 500 milyon dollar kapitala malik Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətini yaratdığı xatırladılır. Bundan başqa, Azərbaycan bankının Özbəkistan bazarına və SOCAR-ın Özbəkistanın pərakəndə satış bazarına daxil olduğu bildirilir, "Sea Breeze Uzbekistan" layihəsindən bəhs edilir. Həmçinin qeyd olunur ki, Azərbaycan və Özbəkistan 2027-ci ildə keçiriləcək FIFA U-20 dünya çempionatına birgə evsahibliyi edəcək.

# *Özbəkistanlı deputat:* "Azərbaycanla münasibətlərimiz konkret imkanlar diplomatiyasına keçid edir"

**"Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfərinin Buxarada mühüm davamı var. İki ölkə prezidentlərinin Daşkənddəki danışıqlardan sonra ünsiyyəti məhz regionun ən qədim mədəniyyət mərkəzlərindən birində davam etdirməsi xüsusi məna daşıyır. Bu baxımdan Buxara, sadəcə, protokol proqramının bir hissəsi deyil, siyasi müttəfiqliyin tarixi və humanitar məzmun qazandığı məkan kimi çıxış edir. Avqustun 24-də Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Buxara Beynəlxalq Hava Limanında Prezident Şavkat Mirziyoyev və onun həyat yoldaşı Ziroatxon Mirziyoyeva şəxsən qarşılayıblar. Proqrama tarixi abidələrin ziyarəti və sənaye müəssisələrinin fəaliyyəti ilə tanışlıq daxildir".**

Bunu AZƏRTAC-a açıqlamasında **Buxara vilayəti Xalq Deputatları Keneşinin deputatı, Özbəkistan Ali Məclisinin İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) regional nümayəndəsi Abira XÜSEYNOVA** deyib.

Onun sözlərinə görə, səfərə avqustun 23-də keçirilmiş sammitin nəticələri kontekstində nəzər salmaq xüsusilə vacibdir. Özbəkistan və Azərbaycan Əbədi dostluq haqqında müqavilə, həmçinin pensiya təminatı, mədəniyyət, turizm, investisiya, ticarət və ədliyyə orqanlarının qarşılıqlı fəaliyyəti sahələrini əhatə edən bir sıra sahəvi sazişlər imzalayıblar. Eyni zamanda qarşılıqlı ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard dollara çatdırılması proqramı təsdiqlənib. Beləliklə, iki lider arasında siyasi etimad getdikcə daha konkret sosial, hüquqi və iqtisadi məzmun qazanır.

"Buxara üçün səfərin daha bir mühüm nəticəsi Buxara ilə Laçın arasında qardaşlaşma münasibətlərinin yaradılması haqqında protokolun imzalanmasıdır. Bu, regionumuz üçün birbaşa qarşılıqlı fəaliyyətin yeni səviyyəsini açır. Söhbət yalnız mədəni mübadilələrdən deyil, həm də sahibkarların, təhsil müəssisələrinin, turizm təşkilatlarının, gənclər və ictimai strukturların əməkdaşlığından gedir. Fikrimcə, məhz belə üfüqi əlaqələr dövlətlərarası razılaşmaları adi vətəndaşlar üçün real edir. Bu, bugünkü Özbəkistan-Azərbaycan münasibətlərinin ən mühüm tendensiyalarından birini göstərir: əməkdaşlıq tədricən mərkəzsizləşir. Əgər əvvəllər əsas dinamika əsasən prezidentlər və hökumətlər səviyyəsində formalaşırdısa, bu gün regionlar, bələdiyyə strukturları, biznes və ictimai institutlar da prosesə getdikcə daha fəal qoşulurlar. Yeni birgə layihələr artıq bank sektorunu, tikinti materialları istehsalını, təhsili, turizmi, mənzil tikintisini, mineral xammalın emalını və bağçılığı əhatə edir. Bu isə o deməkdir ki, müttəfiqlik birbaşa ərazilərdə konkret inkişaf nöqtələri yaratmağa başlayır", - deyə müsahib əlavə edib.



A.Xüseynova vurğulayıb ki, Buxara bu prosesə həm də güclü mədəni məzmun qazandırır. Liderlərin şəhərin tarixi abidələrini ziyarət etməsi göstərir ki, müasir tərəfdaşlıq yalnız praqmatik maraqlara deyil, həm də ümumi sivilizasiya yaxınlığına əsaslanır. Özbəkistan və Azərbaycan cəmiyyətləri üçün mədəniyyət, tarixi yaddaş və irsə hörmət qarşılıqlı etimadın güclü resursu olaraq qalır. Məhz belə təməl iqtisadi və siyasi razılaşmaların daha dayanıqlı xarakter almasına imkan verir.

"Ombudsman nümayəndəsi kimi mənim üçün bu əməkdaşlığın sosial istiqaməti də az əhəmiyyət daşımır. Pensiya təminatı sahəsində ayrıca sazişin imzalanması, təhsil və turizm əlaqələrinin inkişaf etdirilməsi, regionlararası təmasların genişləndirilməsi göstərir ki, ikitərəfli gündəlik getdikcə insanların hüquqlarına və gündəlik maraqlarına daha çox toxunur. Miqrasiya, biznes əlaqələri və vətəndaşların qarşılıqlı səfərləri intensivləşdikcə sosial təminat, hüquqi məlumatlılıq və hüquqların müdafiəsi üzrə dövlət mexanizmlərinin əlçatanlığı məsələləri də daha aktual olur.

Hazırkı səfərin əsas nəticəsi ondan ibarətdir ki, Özbəkistan-Azərbaycan münasibətləri ardıcıl olaraq razılaşmalar diplomatiyasından regionlar və vətəndaşlar üçün konkret imkanlar diplomatiyasına keçir. Əbədi dostluq haqqında müqavilə strateji perspektivi müəyyənləşdirir, yeni regionlararası əlaqələr, sosial sazişlər və birgə layihələr isə bu perspektivi praktiki məzmunla doldurur. Bu baxımdan Prezident İlham Əliyevin Buxaraya səfəri tərəfdaşlığın yeni mərhələsini simvolizə edir, dövlətlər arasında etimad tədricən ərazilər, institutlar və insanlar arasında dayanıqlı əlaqələrə çevrilir", - deyə özbəkistanlı deputat əlavə edib.

# Rusiya mediası Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərini geniş işıqlandırır


Ильхама Алиева официально встретили в Ташкенте

ОПУБЛИКОВАНО: 15:09, 23 АВГ 2026 (UTC+3 MSK)

© Фото: Сайт Президента Азербайджанской Республики

Азербайджан и Узбекистан договорились о вечной дружбе

АЗЕРБАЙДЖАН И УЗБЕКИСТАН ЗАКЛЮЧИЛИ ДОГОВОР О ВЕЧНОЙ ДРУЖБЕ

© ПРЕСС-СЛУЖБА ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНА ИЛЬХАМА АЛИЕВА

СЛЕДИТЕ ЗА НОВОСТЯМИ: Дзен Макс Телеграм

10:02 23 АВГУСТА 2026 В МИРЕ

АНТОН БАЛАКИРЕВ

Москва · 23 авг · Вести. Азербайджан и Узбекистан заключили договор о вечной дружбе между странами. Таким сообщением делится пресс-служба узбекского президента Шавката Мирзиёева.

NEWS.RU

Алиев поблагодарил Мирзиеева за помощь в восстановлении Карабаха

Ильхам Алиев

Фото: president.az

интерфакс

В РОССИИ

Алиев сказал о планах запуска работ по проекту TRIPP в Армении в конце 2026 г. - начале 2027 г.

Москва. 23 августа. INTERFAX.RU - Строительные работы по проекту "Маршрут Трампа" (TRIPP) на территории Армении начнутся в конце 2026 года - начале 2027 года, заявил президент Азербайджана Ильхам Алиев.

Алиев 23 августа в Ташкенте на третьем заседании Высшего межгосударственного совета Азербайджана и Узбекистана с участием узбекского коллегии Шавката Мирзиёева сказал, что на азербайджанской территории в настоящее время активно идут работы по реализации Зангезурского коридора. "На основной части Азербайджана проект будет завершен в следующем году. Работы начались и на территории Нахичеванской Автономной Республики", - отметил он.

ТАСС

Узбекистан и Азербайджан подписали договор о вечной дружбе

Президенты двух стран Шавкат Мирзиёев и Ильхам Алиев также подписали документы об увеличении товарооборота до $1 млрд и соглашения о сотрудничестве в туризме и культуре

Редакция сайта ТАСС

23 августа, 19:27

Читайте ТАСС в

ТАШКЕНТ, 23 августа. /ТАСС/. Азербайджан и Узбекистан подписали договор о вечной дружбе между странами. Об этом сообщила пресс-служба узбекского лидера Шавката Мирзиёева.

"Президент Республики Узбекистан Шавкат Мирзиёев и Президент Азербайджанской Республики Ильхам Алиев подписали

Азербайджан и Узбекистан решили подписать договор о вечной дружбе

Читайте нас в MAX

Азербайджан и Узбекистан подпишут договор о вечной дружбе, сообщается на сайте президента Узбекистана Шавката Мирзиёева. В резиденции «Куксарой» в Ташкенте прошли встреча Мирзиеева и президента Азербайджана Ильхама Алиева в узком составе и третье заседание высшего межгосударственного совета. Стороны обсудили вопросы дальнейшего углубления узбекско-азербайджанских отношений стратегического партнерства и союзничества.

Глава Узбекистана назвал нынешний государственный визит президента Азербайджана историческим событием и

vedomosti.ru

**Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri Rusiya media məkanında geniş işıqlandırılır. Rusiya nəşrlərinin diqqət mərkəzində iki ölkə liderlərinin danışıqları, Əbədi dostluq haqqında müqavilənin imzalanması, iqtisadi-ticari və nəqliyyat əməkdaşlığının inkişafı, həmçinin Bakı və Daşkəndin yeni birgə layihələri dayanır.**

AZƏRTAC xəbər verir ki, TASS Agentliyi Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən Əbədi dostluq haqqında müqavilənin imzalanmasına xüsusi diqqət ayırır. Nəşr qeyd edir ki, dövlət başçıları qarşılıqlı ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılması proqramı, həmçinin turizm və mədəniyyət sahələrində əməkdaşlıq haqqında sazişlər də daxil olmaqla, bir sıra digər sənədlər də imzalayıblar.

"İnterfaks" Agentliyi danışıqların nəticələri və Azərbaycan ilə Özbəkistan arasında Ali Dövlətlərarası Şuranın üçüncü iclası barədə ətraflı məlumat yayıb. Nəşrin məlumatlarında qeyd olunur ki, tərəflər strateji tərəfdaşlığı və müttəfiqlik münasibətlərini daha da dərinləşdirmək, sənaye kooperasiyasını genişləndirmək və birgə investisiya şirkətinin imkanlarından daha fəal istifadə etmək niyyətindədirlər.

"İnterfaks" nəqliyyat əməkdaşlığına ayrıca diqqət yetirir. Agentlik Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Daşkəndin Xəzər dənizində vahid operatorun fəaliyyət göstərəcəyi ayrıca Özbəkistan-Azərbaycan nəqliyyat dəhlizinin yaradılmasında və Orta dəhlizin inkişafı çərçivəsində birgə donanmanın fəaliyyətə başlamasının sürətləndirilməsində maraqlı olması barədə açıqlamasını yayıb.

Rusiyanın "Vedomosti" nəşri Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin yüksək səviyyəyə çatdığını yazır. Nəşr son beş ildə qarşılıqlı ticarətin üç dəfə artmasına diqqət çəkir. Həmçinin energetika, kimya və hasilat sənayesi, tekstil, kənd təsərrüfatı və şəhərsalma sahələrində həyata keçirilən birgə layihələr, eləcə də iki ölkə arasında ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılması planları qeyd olunur.

Rusiya media orqanları səfər çərçivəsində bank-maliyyə sektoru, neft-qaz sənayesi, təhsil, turizm, mənzil tikintisi, dağ-mədən sənayesi və kənd təsərrüfatı sahələrində yeni birgə layihələrin fəaliyyətə başlaması barədə də məlumat yayıb.

Bir sıra nəşrlər Prezident İlham Əliyevin nəqliyyat marşrutlarının inkişafı ilə bağlı açıqlamalarına diqqət yetirir. Xüsusilə Rusiya mediası dövlət başçısının Azərbaycan ərazisində və Naxçıvan Muxtar Respublikasında Zəngəzur dəhlizinin yaradılması istiqamətində görülən işlər, həmçinin Ermənistan ərazisində TRIPP layihəsinin həyata keçirilməsi perspektivləri barədə fikirlərindən sitatlar gətirir.

Rusiya media orqanlarının materiallarında dövlət başçılarının qarşılıqlı təltifetmə mərasimi də öz əksini tapıb. Bildirilir ki, Prezident İlham Əliyev Özbəkistanın ali dövlət mükafatı olan yüksək dərəcəli "Oliy Darajali Dustlik" ordeni ilə, Prezident Şavkat Mirziyoyev isə "Heydər Əliyev" ordeni ilə təltif olunub.

Rusiya mətbuatı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində layihələrin həyata keçirilməsində Özbəkistanın xüsusi rolunu da qeyd edir. Media Prezident İlham Əliyevin Özbəkistanın Qarabağın bərpasına ilk dəstək verən ölkə olduğunu, 960 şagird yerlik məktəb tikdiyini və iri tikiş istehsalının yaradılmasına investisiya yatırdığını bildirən sözlərini dərc edirlər.

# "LaGazetteaz" Prezident İlham Əliyevin Özbəkistan səfərinin mühüm məqamlarını işıqlandırıb

**Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri fransızdilli "LaGazetteaz" nəşrinin də diqqətini cəlb edib. Nəşrdə səfərin əsas məqamları, Daşkənddəki rəsmi qarşılanma mərasimi, ölkələr arasında sənədlərin imzalanması və ikitərəfli münasibətlərin inkişafı ön plana çıxarılıb.**







AZƏRTAC xəbər verir ki, qəzetdə yayımlanan məqalədə səfər çərçivəsində iki ölkə arasında müxtəlif sahələr üzrə rəsmi sənədlərin imzalanması və mübadiləsindən də bəhs olunub. Qeyd edilib ki, bu sənədlər Bakı ilə Daşkənd arasında siyasi, iqtisadi və digər istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsinə yönəlib.

Həmçinin Azərbaycan və Özbəkistan arasındakı münasibətlərin son illərdə sürətlə inkişaf etdiyi vurğulanır. Qeyd olunur ki, iki ölkə arasında əlaqələr tarixi, mədəni və mənəvi yaxınlıqla yanaşı, iqtisadi və strateji əməkdaşlıqla da möhkəmlənir. Prezident İlham Əliyev də ikitərəfli münasibətlərin son illərdə misli görünməmiş inkişaf mərhələsinə daxil olduğunu bildirib.

Məqalədə iki ölkə arasında Əbədi dostluq haqqında müqavilənin imzalandığı da xüsusi qeyd edilib.

Qəzetdə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri yalnız diplomatik hadisə deyil, həm də Bakı ilə Daşkənd arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsi baxımından mühüm siyasi addım kimi təqdim olunur.

# "Azərbaycan-Özbəkistan əbədi dostluğu ortaq gələcəyə aparan yeni fəslin başlanğıcıdır"

**"Azərbaycan müstəqil Özbəkistanı tanıyan ilk ölkələrdən biri olub və Daşkənddə öz səfirliyini açıb. Hazırda iki dövlət arasında münasibətlər adi diplomatiya çərçivəsindən xeyli uzağa gedib. 2024-cü ildə tərəflər Müttəfiqlik münasibətləri haqqında Saziş imzalayıblar. Dünən isə prezidentlər Şavkat Mirziyoyev və İlham Əliyev Əbədi dostluq haqqında müqavilə imzaladılar. Beləliklə, dünənki qərar müttəfiqlik münasibətlərini əvəz etmədi, əksinə, onlara yeni tarixi və simvolik ölçü qazandırdı".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **Özbəkistanda İslam Sivilizasiyası Mərkəzinin direktorunun müşaviri, Özbəkistan Respublikasının Əməkdar incəsənət xadimi Tursunəli KUZİYEV** deyib.

Onun sözlərinə görə, Əbədi dostluq haqqında müqavilə xüsusilə əhəmiyyət kəsb edir. Çünki müqavilə yeni müəssisələr, yeni yollar, yeni universitet proqramları, yeni mədəni layihələr, gənclər üçün yeni imkanlar yaratmalıdır. O, Mərkəzi Asiya ilə Qafqazı birləşdirməlidir. Nəqliyyat və ticarət marşrutlarının, qarşılıqlı investisiyaların, texnologiyaların, təhsilin, elmin, mədəniyyətin və turizmin inkişafına töhfə verməlidir. Artıq bu gün liderlər bank işi, tikinti, təhsil, turizm, dağ-mədən sənayesi, kənd təsərrüfatı və digər istiqamətlər üzrə bir sıra birgə layihələrin icrasına start veriblər. Məhz o zaman "əbədi dostluq" metafora deyil, konkret münasibətlər sisteminə çevriləcək.

"Min illik ortaq keçmiş bizim yaddaşımızdır. Bugünkü əbədi dostluq bizim seçimimizdir. Qarşıdakı onilliklər isə gələcək nəsillər qarşısında ortaq məsuliyyətimizdir. Özbəkistan və Azərbaycan dərin tarixi qohumluğa malik iki xalqın bu yaddaşı müasir tərəfdaşlığa, tərəfdaşlığı isə ortaq gələcəyə necə çevirə biləcəyinə nümunə göstərirlər. Bu iki ölkə ortaq keçmişdən ortaq bu günə, ortaq bu gündən ortaq gələcəyə necə getməyin yollarını nümayiş etdirir", - deyən Əməkdar incəsənət xadimi fikrini yekunlaşdırıb.

# Dövlətə və xalqa xidmət amalının təcəssümü

**Həyatda elə nümunəvi işlər, elə gözəl əməllər var ki, onların əhəmiyyəti yalnız bu günlə məhdudlaşmayaraq, gələcək nəsillər üçün də örnəyə çevrilir. Məhz belə işlər və əməllər insanın cəmiyyət qarşısındakı məsuliyyətini, vətənə bağlılığını və dövlətə xidmət amalını nümayiş etdirir. Onların nəticələri isə ayrı-ayrı insanların deyil, bütövlükdə cəmiyyətin inkişafında, ölkənin tərəqqisində və xalqın daha firavan gələcəyinin təmin olunmasında özünü göstərir. Dövlət və xalq qarşısında göstərilən xidmətlər, həyata keçirilən mühüm təşəbbüslər və görülən məqsədyönlü işlər nümunəyə çevrilərək ictimai yaddaşda özünəməxsus iz qoyur.**



Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri, möhtərəm Prezident İlham Əliyevin siyasi silahdaşı Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti də məhz belə bir məzmun daşıyır. Təsadüfi deyil ki, onun adı Azərbaycanın ictimai-siyasi, humanitar və mədəni həyatının mühüm hadisələri ilə qoşa çəkilir.

## İnsan amili, milli maraqlar və dövlətçilik mənafeləri

Mehriban Əliyevanın fəaliyyətinə nəzər salarkən, ilk növbədə, bir məqam diqqəti cəlb edir: o, gördüyü hər bir işdə insan amilini, milli maraqları və dövlətçilik mənafelərini ön plana çəkir. Təhsil və səhiyyədən mədəniyyətə, xeyriyyəçilikdən beynəlxalq humanitar əməkdaşlığa, parlament fəaliyyətindən ali dövlət idarəçiliyinə qədər keçdiyi yol onun Azərbaycan dövlətinə və xalqına xidmət missiyasının müxtəlif istiqamətlərini əks etdirir. Bu fəaliyyətin arxasında isə Vətənə bağlılıq, milli dəyərlərə sədaqət, Azərbaycan xalqına sonsuz məhəbbət və dövlətçilik ideallarına dərin inam dayanır.

Mehriban Əliyevanın ictimai fəaliyyətinin mahiyyətini anlamaq üçün onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətinə xüsusi nəzər salmaq lazımdır. 2004-cü ildə yaradılan və Cənubi Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan fond Ulu Öndər Heydər Əliyevin zəngin irsinin, azərbaycançılıq fəlsəfəsinin və milli dövlətçilik ideyalarının yaşadılması və yeni nəsillərə çatdırılması məqsədilə genişmiqyaslı fəaliyyət həyata keçirir. Fondun əsas missiyalarından biri Ulu Öndərin ideyalarını gələcək nəsillərə aşılamaqdır.

Bu mənada Heydər Əliyev Fondu sadəcə xeyriyyəçilik və humanitar layihələr həyata keçirən bir qurum deyil. Fond illər ərzində Ulu Öndərin müəyyən etdiyi dövlətçilik yolunun, azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərə bağlılığın və insan amilinə əsaslanan siyasətin ictimai həyatda davamlılığını təmin edən mühüm institutlardan birinə çevrilib. Mehriban Əliyevanın rəhbərliyi ilə fondun gördüyü işlər Heydər Əliyev ideyalarının sadəcə xatırlanmadığını, onların real həyatımızda yaşadıldığını və yeni məzmunla zənginləşdirildiyini göstərir. Prezident İlham Əliyev Heydər Əliyev Fondunun fəaliyyəti ilə bağlı deyib: "Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun dünya miqyasında çox böyük hörməti var. Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində - bizim musiqimizi, xalçaçılıq sənətini, muğam sənətini, digər mədəniyyət incilərimizi dünyaya çatdırmaq, təqdim etmək üçün fond çox böyük işlər görür. Kitablar çap olunur, disklər hazırlanır, sərgilər, elmi-praktik konfranslar, simpoziumlar keçirilir. Mən fondun əməkdaşlarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm və eyni zamanda bildirmək istəyirəm ki, fond Ulu Öndərin siyasi irsini təbliğ etmək üçün də böyük işlər görür".

Ulu Öndərin "dövlətə və xalqa layiqli xidmət" fəlsəfəsi Heydər Əliyev Fondunun fəaliyyətində konkret əməli işlərdə öz ifadəsini tapır. Bir məktəbin tikintisində, xəstə uşağa göstərilən qayğıda, tarixi abidənin bərpasında, muğam sənətinin yaşadılmasında, işğaldan azad edilmiş torpaqlarda yeni həyatın qurulmasına verilən dəstəkdə eyni amal - dövlətə və xalqa xidmət amalı aydın görünür.

Fondun fəaliyyətinin miqyası Azərbaycanla məhdudlaşmır. Müxtəlif ölkələrdə reallaşdırılan mədəni və humanitar layihələr Azərbaycanın qədim tarixinin, zəngin mədəniyyətinin və tolerantlıq ənənələrinin beynəlxalq aləmdə tanıdılmasına imkan yaradır. Bu təşəbbüslər ölkəmizin dünya ictimaiyyətinə daha yaxından təqdim olunması ilə yanaşı, Azərbaycana bağlı obyektiv və müsbət ictimai rəyin formalaşmasına da xidmət edir.

## Geniş xeyriyyəçilik missiyası və sosial layihələr

Heydər Əliyev Fondunun fəaliyyətində təhsil və səhiyyə layihələri, bu sahələrdə həyata keçirilən müxtəlif proqramlar xüsusi yer tutur. "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" kimi layihələr çərçivəsində ölkənin müxtəlif bölgələrində yeni məktəblər, uşaq və körpələr evləri tikilib, mövcud təhsil müəssisələri əsaslı təmir olunub, onların maddi-texniki bazası yenilənib. On minlərlə azərbaycanlı şagird, xüsusilə də ucqar kəndlərdə yaşayan uşaqlar müasir tələblərə cavab verən, beynəlxalq standartlar əsasında inşa olunmuş, qış aylarında istilik sistemi ilə təmin edilən və kompüterlər də daxil olmaqla zəruri avadanlıqlarla təchiz olunan yeni məktəblərdə təhsil almaq imkanı qazanıblar. Bu mühüm layihələrin həyata keçirilməsində göstərdiyi diqqət və qayğıya görə onlar Heydər Əliyev Fondunun prezidentinə minnətdarlıqlarını ifadə edirlər.

2004-cü ildən indiyədək fondun dəstəyi ilə yüzlərlə məktəb və məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bu rəqəmin arxasında isə daha böyük bir məna var. Uzaq kənddə yeni məktəb binasının istifadəyə verilməsi bir tikilinin ərsəyə gəlməsi deyil, həmin kəndin uşaqlarının gələcəyinə sərmayə qoyulmasıdır. Bir xəstəxananın yenidən qurulması yalnız səhiyyə infrastrukturunun yenilənməsi deyil, insanların sağlamlığına və həyatına verilən dəyərin ifadəsidir.

Səhiyyə sahəsində həyata keçirilən "Talassemiyasız həyat naminə", "Diabetli uşaqlara ən yüksək qayğı" və digər layihələr, müasir tibb müəssisələrinin yaradılması, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya imkanlarının genişləndirilməsi Heydər Əliyev Fondunun humanizm missiyasının konkret təzahürləridir. Talassemiya Mərkəzinin yaradılması, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin, müxtəlif səhiyyə müəssisələrinin inşası və yenidən qurulması Heydər Əliyev Fondunun genişmiqyaslı sosial fəaliyyətinin konkret nəticələridir və bütün bunlar ölkədə həyata keçirilən sosial siyasətə böyük töhfə verir.

Bu sahədə həyata keçirilən layihə və proqramlarda qayğıya ehtiyacı olan insan heç zaman statistik göstəriciyə çevrilmir. Çünki hər bir insanın taleyi ayrıca dəyər daşıyır.

Məhz buna görə Mehriban Əliyevanın adı Azərbaycan cəmiyyətində mərhəmət, xeyirxahlıq və insanlara qayğı anlayışları ilə sıx bağlıdır. Onun müxtəlif sosial layihələr zamanı uşaqlarla, xəstələrlə, ahıllarla, xüsusi qayğıya ehtiyacı olan insanlarla birbaşa ünsiyyəti də bu münasibətin formal deyil, səmimi xarakter daşıdığını göstərir.

## Milli-mədəni irsimizin qorunması və təbliği

Heydər Əliyev Fondunun Azərbaycan naminə gördüyü işlərin mühüm istiqamətlərindən biri milli-mədəni irsimizin qorunması və dünyada tanıdılmasıdır. Fond yarandığı vaxtdan Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda təbliğinə xüsusi diqqət yetirib.

Azərbaycan muğamının qorunması və inkişaf etdirilməsi bu fəaliyyətin ən parlaq istiqamətlərindəndir. Muğamın yalnız keçmişin yadigarı kimi qorunması deyil, onun canlı sənət kimi gələcək nəsillərə ötürülməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Beynəlxalq Muğam Mərkəzinin yaradılması, beynəlxalq muğam festivallarının və müsabiqələrinin keçirilməsi, gənc ifaçıların dəstəklənməsi Azərbaycan muğamının dünyaya təqdimatını yeni mərhələyə yüksəldib.

Azərbaycanın muğam, aşıq sənəti, xalçaçılıq, kəlağayı sənəti, tar ifaçılığı və Novruz ənənələri kimi milli-mədəni irs nümunələrinin UNESCO-nun müvafiq siyahılarında yer alması ölkəmizin mədəni irsinin beynəlxalq səviyyədə tanıdılması baxımından mühüm nəticələrdir. Bu uğurlar Azərbaycan mədəniyyətinin yalnız milli sərvət deyil, bəşəri mədəniyyətin ayrılmaz hissəsi olduğunu dünyaya nümayiş etdirir.

Mehriban Əliyevanın təşəbbüsləri ilə Heydər Əliyev Fondunun bu sahədəki fəaliyyəti Azərbaycan xalqının yaddaşını qorumaq missiyasıdır. Çünki milli mədəniyyətə sahib çıxmaq, əslində, milli kimliyə sahib çıxmaq deməkdir. Muğamın səsinin dünyaya çatdırılması, xalçanın naxışlarında yaşadılan tariximizin qorunması, qədim sənətlərin gələcək nəsillərə ötürülməsi bir xalqın öz ruhunu qorumasıdır.

Milli-mənəvi irsin qorunması, dini-mədəni abidələrin yaşadılması və ibadət məkanlarının bərpası istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də xüsusi əhəmiyyət daşıyır. Azərbaycanda multikultural dəyərlərin qorunması, inkişaf etdirilməsi və cəmiyyət həyatında daha da möhkəmləndirilməsi istiqamətində mühüm layihələr həyata keçirir. Fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkənin müxtəlif bölgələrində dini ocaqların bərpası, əsaslı təmiri və yenidən qurulması istiqamətində mühüm işlər görülmüşdür. Bu təşəbbüslər Azərbaycanın zəngin dini-mədəni irsinin qorunmasına, tarixi abidələrin gələcək nəsillərə çatdırılmasına və ölkəmizdə tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsinə xidmət edir. Ölkəmizdə mövcud olan tolerant və multikultural mühit müxtəlif xalqların, etnik qrupların və dini konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət və həmrəylik şəraitində yaşamasına, eyni zamanda öz milli-mədəni və dini kimliklərini qoruyub saxlamalarına geniş imkan yaradır. Azərbaycan bu siyasət sayəsində müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan kimi öz mövqeyini daha da möhkəmləndirir, xalqlar və dinlər arasında qarşılıqlı anlaşmanın təşviqinə, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın gücləndirilməsinə öz töhfəsini verir.

## Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında prinsipial mövqe

Heydər Əliyev Fondunun beynəlxalq fəaliyyəti Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından da mühüm əhəmiyyət daşıyır. Ərazilərimizin ermənilər tərəfindən işğalı dövründə bu sahədə həyata keçirilən fəaliyyət İrəvanın təcavüzkar siyasətinin və dünya erməniliyinin məzlum obrazının beynəlxalq səviyyədə ifşa olunmasında böyük rol oynamışdır. Bu sırada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasını xüsusi qeyd etməliyik. Məhz bu kampaniya çərçivəsində Xocalı faciəsi bir sıra dövlətlər və ABŞ-nin 20-dən artıq ştatı tərəfindən soyqırımı kimi tanınmışdır.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində tarixi-mədəni irsimizə vurulmuş zərərin beynəlxalq ictimaiyyətə təqdim olunması, işğal edilmiş ərazilərimizdə dağıdılmış məscidlər, məbədlər, qəbiristanlıqlar, muzeylər və digər mədəniyyət abidələri haqqında faktların sənədləşdirilməsi də fondun bu sahədəki fəaliyyətinin mühüm istiqamətlərindən olub.

Beləliklə, mədəniyyət diplomatiyası Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasının mühüm vasitəsinə çevrilib. Azərbaycanın haqq səsi dünyanın nüfuzlu mədəniyyət və humanitar platformalarında daha aydın eşidilib, erməni yalanlarının və saxta tarixi iddialarının faktlarla ifşa olunmasına mühüm töhfələr verilib.

Bu, Mehriban Əliyevanın vətənpərvərliyinin başqa bir təzahürüdür. Vətənpərvərlik onun üçün Azərbaycanın haqq səsini dünyanın hər yerinə çatdırmaq, milli irsimizi qorumaq, tariximizi gələcək nəsillərə çatdırmaq və xalqımızın həqiqətlərini beynəlxalq ictimaiyyətə olduğu kimi təqdim etməkdir.

Heydər Əliyev Fondunun fəaliyyətinin mühüm göstəricilərindən biri Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən layihələrin Azərbaycanın sərhədlərini aşmasıdır. Fondun müxtəlif ölkələrdə reallaşdırdığı sosial və humanitar layihələr, mədəni proqramlar, xeyriyyə aksiyaları və digər təşəbbüslər eyni zamanda Azərbaycanın zəngin mədəni irsinin və humanizm dəyərlərinin dünyada daha geniş tanıdılmasına mühüm töhfə verir.

Bu baxımdan, fondun dost və qardaş Pakistan, Vatikan, İtaliya və digər ölkələrdə həyata keçirdiyi layihələr xüsusi əhəmiyyət daşıyır. Həmin təşəbbüslər bir tərəfdən bəşəriyyət üçün mühüm əhəmiyyət kəsb edən tarixi-mədəni irs nümunələrinin qorunmasına və bərpasına xidmət edir, digər tərəfdən isə Azərbaycanın beynəlxalq aləmdə müsbət imicinin daha da möhkəmlənməsinə şərait yaradır. Mədəniyyətlər və xalqlar arasında qarşılıqlı anlaşmanın, həmrəyliyin və humanitar əməkdaşlığın təşviqinə yönələn bu fəaliyyət Azərbaycanın dünyaya açıq, humanist və tolerant ölkə kimi təqdim olunmasında mühüm rol oynayır.

Mehriban Əliyevanın beynəlxalq miqyasda həyata keçirdiyi bu məqsədyönlü və ardıcıl fəaliyyət həm ölkəmizdə, həm də xaricdə yüksək qiymətləndirilmiş, onun humanitar, mədəni və xeyriyyəçilik sahəsindəki xidmətləri çoxsaylı beynəlxalq mükafat və fəxri adlarla təltif olunmuşdur.

## Zəfərdən quruculuğa

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra qarşıda duran əsas vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması, burada həyatın bərpası və Böyük qayıdışın təmin edilməsidir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu tarixi prosesdə də öz layiqli yerini tutur.

2020-ci il dekabrın 8-də Mehriban Əliyeva müraciətində bu barədə demişdi: "Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm".

Aradan ötən illərdə Heydər Əliyev Fondunun xətti ilə Şuşada və işğaldan azad edilmiş digər ərazilərdə qürurdoğuran bərpa və yenidənqurma layihələri həyata keçirilib. Hər bir layihə mədəni və mənəvi irsimizin dirçəldilməsinə xidmət edib. Lakin Qarabağ və Şərqi Zəngəzurda Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrə yalnız tikinti və bərpa işləri kimi yanaşmaq doğru olmaz. Bu layihələr həm də Azərbaycanın öz tarixi torpaqlarına qayıdışının, milli irsin bərpasının və həmin ərazilərdə həyatın yenidən canlandırılmasının mənəvi ifadəsidir.

Şuşada tarixi və dini abidələrin bərpası, mədəni irs nümunələrinin yenidən həyata qaytarılması, Ağdam, Zəngilanda bərpa və yenidənqurma işlərinə verilən dəstək fondun Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsindəki xüsusi rolunu nümayiş etdirir.

Mehriban Əliyevanın Vətən sevgisini xüsusi vurğulamaq lazımdır. Qarabağın dağıdılmış məscidlərinin, tarixi abidələrinin, mədəniyyət ocaqlarının bərpasına göstərilən diqqət sıradan bir məsələ deyil. Bu, xalqımızın yaddaşına, tarixinə və azad olunmuş torpaqlarımızın dirçəldilməsinə münasibətin ifadəsidir. İşğal illərində düşmənin dağıtdığı maddi irsin bərpası ilə yanaşı, həmin torpaqlarda Azərbaycan ruhunun yenidən dirçəldilməsi də bu baxımdan qarşıya qoyulan aydın məqsəddir.

Mehriban Əliyevanın rəhbərlik etdiyi fondun bu prosesdə iştirakı bir daha göstərir ki, Zəfər yalnız döyüş meydanında qazanılmış qələbə ilə tamamlanmır. Zəfərin təntənəsi həm də azad edilmiş torpaqlarda yeni məktəblərin, mədəniyyət ocaqlarının, tarixi abidələrin, yaşayış məkanlarının yaradılması, insanlarımızın doğma yurdlarına qayıtması, Böyük qayıdışın uğurla həyata keçirilməsidir. Bu böyük quruculuq prosesinə töhfə vermək isə Vətənə xidmətin ən müqəddəs formalarından biridir.

2017-ci il fevralın 21-də Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi onun fəaliyyətində tamamilə yeni mərhələnin başlanğıcı oldu. Ötən dövrün reallıqları göstərir ki, Mehriban Əliyeva bu vəzifəni uğurla icra etməklə, dövlətə və xalqa layiqli xidmətin yeni nümunələrini yaradıb. Mehriban Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyətində sosial müdafiə məsələləri, vətəndaşların problemlərinə həssas münasibət, səhiyyə, təhsil, uşaqlara və ailələrə qayğı əsas istiqamətlərdən biri olaraq qalır. Ən əsası bu fəaliyyətdə dövlət idarəçiliyi ilə insanlara xidmət məqamı bir-birini uğurla tamamlayır.

Mehriban Əliyevanın adı Azərbaycan dövlətinin inkişafı, xalqımızın rifahı, milli mədəniyyətimizin qorunması və Azərbaycanın beynəlxalq nüfuzunun yüksəldilməsi ilə bağlı ən mühüm proseslərin sırasında çəkilir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti isə Ulu Öndərin ideyalarının yeni layihələrdə, yeni quruculuq işlərində, yeni humanitar təşəbbüslərdə yaşadılmasının parlaq nümunəsidir.

*Səttar MÖHBALIYEV,*
*Milli Məclisin deputatı*

# Azərbaycanın yeni turizm strategiyası

## Prezident İlham Əliyevin təsdiq etdiyi dövlət proqramı bu sahənin kompleks inkişafını təmin edəcək

**Əlverişli coğrafi mövqeyi, zəngin təbii-landşaft müxtəlifliyi və çoxəsrlik tarixi-mədəni irsi Azərbaycanı regionun əsas turizm məkanlarından biri kimi formalaşdırıb. Xəzərin sahillərindən dağlıq ərazilərə, qədim şəhər və tarixi abidələrdən müasir turizm infrastrukturu obyektlərinə, müalicə-sağlamlıq mərkəzlərindən zəngin mədəni irs nümunələrinə qədər geniş çeşidli turizm resurslarının ölkə ərazisində cəmləşməsi Azərbaycanın turizm məhsulunu fərqləndirən mühüm üstünlüklərdəndir.**

Turizmin inkişafı yalnız turistlər üçün əhəmiyyət daşımır, eyni zamanda yeni iş yerlərinin açılmasına, ölkəyə xarici valyutanın daxil olmasına, yerli sahibkarlığın və xidmət sektorunun genişlənməsinə şərait yaradır və nəticədə iqtisadi inkişafın sürətlənməsinə mühüm töhfə verir.

Son illərdə Azərbaycanda iqtisadiyyatın diversifikasiyası qarşıya qoyulan mühüm vəzifələrdən biridir. Bu baxımdan, qeyri-neft-qaz sektorunun inkişafı istiqamətində dövlət tərəfindən bir sıra mühüm və ardıcıl tədbirlər həyata keçirilib. Nəticədə Azərbaycan yalnız neft deyil, həmçinin qeyri-neft sektorunun müxtəlif sahələrinin inkişaf etdiyi ölkəyə çevrilib. Son illər dünyada trend sahələrdən birinə çevrilən turizmin ölkəmizdə inkişafı da göz qabağındadır. Bölgələrin sosial-iqtisadi inkişafı, yeni hotellərin açılışı, xidmət keyfiyyətinin artırılması bu sektorun dövlətimizin prioritet istiqamətlərindən biri olduğunu göstərir. "Ölkəmizin ümumi inkişafı, əlbəttə ki, turistləri cəlb edir. Əgər Azərbaycan inkişafda olan ölkə olmasaydı, əlbəttə, ictimai sabitlik, təhlükəsizlik olmasaydı, turistlər də gəlməzdi" - Prezident İlham Əliyevin illər əvvəl söylədiyi bu fikirlər bu gün təsdiqini tapır. Turisti bir ölkəyə cəlb edən onun əlverişli turizm imkanları ilə yanaşı, həm də təhlükəsizlikdir. Azərbaycan isə bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində siyasi sabitliyin, təhlükəsizliyin və davamlı inkişafın təmin olunduğu ölkədir.

Ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa edildikdən sonra Qarabağ və Şərqi Zəngəzurda insfrastrukturun qurulması ilə bu regionun respublikanın digər bölgələrinə sürətli inteqrasiyası işğaldan azad olunmuş əraziləri də cəlbedici rekreasiya məkanına çevirib. Qarabağ və Şərqi Zəngəzur regionunda da turizmin müxtəlif növlərinin inkişafı mümkündür və bu istiqamətdə görülən işlərin nəticəsidir ki, cəmi 6 ildə bu bölgəyə həm yerli, həm də xarici turistlərin marağı artıb.

Son illərdə ölkəmizdə turizm sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər nəticəsində sahənin hüquqi və institusional bazası möhkəmləndirilib, turizm infrastrukturunun genişləndirilməsi, xidmət keyfiyyətinin yüksəldilməsi, regionların turizm potensialının üzə çıxarılması və ölkənin turizm imkanlarının beynəlxalq səviyyədə təbliği istiqamətində mühüm addımlar atılıb. Bu siyasətin davamı olaraq turizm sektorunun qarşıdakı illərdə inkişaf istiqamətlərini müəyyənləşdirən yeni mərhələnin əsası qoyulub. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nı təsdiq etməsi bu sahənin uzunmüddətli və sistemli inkişafına dövlət səviyyəsində verilən önəmin göstəricisidir. Dövlət proqramında turizmin ölkənin sosial-iqtisadi inkişafında rolunun gücləndirilməsi, qeyri-neft-qaz iqtisadiyyatının şaxələndirilməsi, regionların rəqabət qabiliyyətinin artırılması və Azərbaycanın beynəlxalq turizm məkanı kimi mövqeyinin möhkəmləndirilməsi əsas məqsədlər kimi müəyyənləşdirilib.

Proqramın icrası nəticəsində Azərbaycanın turizm sahəsinin regional və qlobal rəqabət qabiliyyətinin gücləndirilməsi, müxtəlif növlər üzrə keyfiyyətli turizm təcrübəsi təqdim edən müəyyən coğrafi ərazidə yerləşmə, nəqliyyat, infrastruktur, əyləncə və digər xidmətlərin vahid şəkildə göstərildiyi turizm destinasiyasına çevrilməsi, bu sektorun ÜDM-in artımına, məşğulluğa və qeyri-neft-qaz ixracına töhfəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsi nəzərdə tutulub.

Əsas məsələlərdən biri proqramın qlobal trendləri, xüsusilə nəzərə almasıdır. Layihə geosiyasi gərginliklər və qlobal miqyaslı təhdidlər yaradan hərbi münaqişələr fonunda böhranlara davamlılıq, ənənəvi turist yanaşmasının saxlanıldığı istehlakçı davranışı, iqlim dəyişikliyinin mənfi nəticələrinin turistlərin seçiminə təsiri fonunda dayanıqlı turizm yanaşması, xidmət keyfiyyətinin artırılmasına imkan verən innovasiya, texnologiya və rəqəmsallaşma çağırışlarını özündə ehtiva edir.

İqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində yaranan çağırışlar fonunda turizmin inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu sahənin inkişafını təmin etmək məqsədilə institusional və strateji planlaşdırma, turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, məlumat bazasının təkmilləşdirilməsi və idarəetmə mexanizmlərinin gücləndirilməsi üzrə kompleks tədbirlər həyata keçirilib. Turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə standartlaşdırma və sertifikatlaşdırma mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də dövlət və özəl sektor arasında əməkdaşlığın və şəbəkələşmənin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Turizm sahəsində biznes mühitinin təşviqi və tənzimləmə çərçivəsinin inkişaf etdirilməsi məqsədilə 2021-ci ildə "Turizm haqqında"  qanun qəbul edilib. Prezident İlham Əliyevin 2024-cü il 2 avqust tarixli fərmanı ilə yeni "Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi" təsdiq edilib. Səyahətin liberallaşdırılması məqsədilə bir sıra ölkələrlə qarşılıqlı əsaslarla viza rejimi ləğv edilib, eyni zamanda uçuşların coğrafiyası genişləndirilib. Dövlət siyasətinin ardıcıllığı və çevikliyi sayəsində 2025-ci ildə turizm üçün xarakterik sahələrdə 7 milyard manata yaxın əlavə dəyər yaradılıb, sektorun iqtisadiyyatda payı tarixdə ilk dəfə 5,4 faizədək yüksəlib və bu, 2019-cu ildə qeydə alınan ən yüksək nəticəni (4,5 faiz) 0,9 faiz üstələyib. Bununla yanaşı, 2019-2025-ci illərdə turizm xidmətlərinin ixracı nəticəsində Azərbaycana 8,8 milyard ABŞ dolları ekvivalentində xarici valyuta daxil olub, bunun 2,0 milyard dolları ötən ilin payına düşüb.

Turizmin inkişafını şərtləndirən əsas amillərdən biri nəqliyyat infrastrukturunun inkişafı, viza rejiminin və sərhəd keçid prosedurlarının sadələşdirilməsidir. Son illərdə Azərbaycandan bir sıra ölkələrə birbaşa uçuşların təşkili, həmçinin müxtəlif aviaşirkətlərlə bağlanan müqavilələr çərçivəsində uçuş coğrafiyasının genişlənməsi xarici turistləri ölkəmizə cəlb edən əsas faktorlardan biridir. Bununla yanaşı, ölkədaxili yol şəbəkəsinin genişləndirilməsi və yenilənməsi xarici turistləri yalnız Bakıya deyil, digər bölgələrimizə də rahatlıqla səyahət etməyə sövq edir. Bu baxımdan, Füzuli və Laçın Beynəlxalq Hava limanlarının əhəmiyyəti də çox böyükdür. Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Çin Xalq Respublikası ilə viza rejiminin qarşılıqlı ləğvi, eyni zamanda Yaponiya və Koreya vətəndaşları üçün birillik vizasız rejimin tətbiqi ölkəmizin həm də asiyalı turistlər üçün cəlbediciliyindən xəbər verir. İndi hədəf növbəti illərdə vizasız gediş-gəliş rejimi tətbiq olunan ölkələrin sayının artırılmasıdır. Beləliklə, turizmin əsas komponentlərindən olan nəqliyyat şəbəkəsinin inkişafı həm paytaxtda, həm də regionlarda müxtəlif kateqoriyalı yerləşmə yerlərinin (hotellərin) açılması, ictimai iaşə obyetlərinin əlçatanlığı dövlət tərəfindən turizm sahəsinə ayrılan diqqəti bir daha təsdiqləyir.

Ümumilikdə Azərbaycanın coğrafi imkanları turizmin müxtəlif növlərinin inkişafına şərait yaradır. Ölkəmiz fərqli məqsədlərlə səyahət edən insanlar üçün maraqlı turizm destinasiyasına çevrilə bilər. Bu baxımdan, 2026-2030-cu illəri əhatə edən dövlət proqramını ardıcıl, effektli və dayanıqlı inkişaf üçün yol xəritəsi hesab etmək olar. 5 illik proqramda qarşıya qoyulan hədəflər Azərbaycanı rəqabətqabiliyyətli və cəlbedici rekreasiya məkanına çevirəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2026-cı ilin sentyabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | 3 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 9 |
| **Musa Cəfər oğlu QASIMLI**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 10 |
| **Rafael Baba oğlu HÜSEYNOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 8 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 4 |
| **Arzu Nəsib oğlu NAĞIYEV**<br>Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 17 |
| **Zahid Məhərrəm oğlu ORUC**<br>Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 21 |
| **Sadiq Haqverdi oğlu QURBANOV**<br>Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 7 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 22 |
| **Tahir Musa oğlu RZAYEV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 18 |
| **Musa İsa oğlu QULİYEV**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 16 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | 25 |
| **Hicran Kamran qızı HÜSEYNOVA**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 14 |
| **Şahin Əmir oğlu İSMAYILOV**<br>Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 30 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA**<br>Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 23 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 9 |
| **Anar Camal oğlu İSGƏNDƏROV**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 24 |
| **Polad BÜLBÜLOĞLU**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 28 |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 7 |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin İntizam komissiyasının sədri | 15 |
| **Fərid Famil oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | 11 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 29 |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 25 |
| **Adil İsrayıl oğlu VƏLİYEV**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 24 |
| **Şakir Himalay oğlu ŞABANOV**<br>Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 22 |
| **Ayan Zəfər qızı MURTUZOVA**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 14 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədilə;**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin sentyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri**<br>Vilayət Eyvazov | Sumqayıt | Sumqayıt | 01 |
| 2. | **Ədliyyə naziri**<br>Fərid Əhmədov | Yevlax | Yevlax, Mingəçevir, Bərdə, Tərtər, Ağcabədi | 04 |
| 3. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri**<br>Rəşad Nəbiyev | Bərdə | Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Goranboy, Naftalan | 04 |
| 4. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**<br>Ramin Məmmədov | Zəngilan | Zəngilan, Cəbrayıl, Qubadlı | 07 |
| 5. | **Dövlət Gömrük Komitəsinin sədri**<br>Şahin Bağırov | Samux | Samux, Gəncə, Mingəçevir, Göygöl | 09 |
| 6. | **Gənclər və idman naziri**<br>Fərid Qayıbov | Şabran | Şabran, Xaçmaz | 11 |
| 7. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**<br>Bahar Muradova | Kəlbəcər | Kəlbəcər, Laçın | 11 |
| 8. | **Baş prokuror**<br>Kamran Əliyev | Şamaxı | Şamaxı, Qobustan, Ağsu, İsmayıllı | 16 |
| 9. | **İqtisadiyyat naziri**<br>Mikayıl Cabbarov | Göygöl | Göygöl, Samux | 17 |
| 10. | **Ekologiya və təbii sərvətlər naziri**<br>Rəşad İsmayılov | Xankəndi | Xankəndi, Şuşa, Ağdərə, Xocalı | 18 |
| 11. | **Elm və təhsil naziri**<br>Emin Əmrullayev | Yardımlı | Yardımlı, Masallı, Cəlilabad | 18 |
| 12. | **Energetika naziri**<br>Pərviz Şahbazov | Laçın | Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Şuşa | 18 |
| 13. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri**<br>Anar Quliyev | Tərtər | Tərtər, Ağcabədi, Ağdam, Bərdə, Laçın | 18 |
| 14. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri**<br>Qoşqar Təhməzli | Şəmkir | Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax | 18 |
| 15. | **"Azərişıq" ASC-nin sədri**<br>Vüqar Əhmədov | Ağdam | Ağdam, Füzuli, Xocavənd | 18 |
| 16. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri**<br>Rövşən Rzayev | Lənkəran | Lənkəran, Astara, Lerik, Masallı | 21 |
| 17. | **Mədəniyyət naziri**<br>Adil Kərimli | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 24 |
| 18. | **Əmək və əhalinin sosial müdafiəsi naziri**<br>Anar Əliyev | Qusar | Qusar, Quba | 25 |
| 19. | **Fövqəladə hallar naziri**<br>Kəmaləddin Heydərov | Cəlilabad | Cəlilabad, Biləsuvar, Cəbrayıl | 25 |
| 20. | **Kənd təsərrüfatı naziri**<br>Məcnun Məmmədov | Şabran | Şabran, Siyəzən, Xaçmaz, Quba, Qusar | 25 |
| 21. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi**<br>Mürsəl İbrahimov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 25 |
| 22. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri**<br>Vüsal Nəsirli | Hacıqabul | Hacıqabul, Şirvan | 25 |
| 23. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri**<br>Zaur Mikayılov | Samux | Samux, Gəncə, Kəlbəcər | 25 |
| 24. | **Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru**<br>Anar Bayramov | Xocavənd | Xocavənd, Ağdam, Füzuli | 25 |
| 25. | **"Azəristiliktəchizat" ASC-nin sədri**<br>İlham Mirzəliyev | İsmayıllı | İsmayıllı, Ağsu, Qəbələ | 25 |
| 26. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru**<br>Azər Məmmədov | Xankəndi | Xankəndi, Ağdərə, Xocalı | 25 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

**2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir**

# Dünya səviyyəli müasir idman kompleksi - Milli Gimnastika Arenası



**XXI əsrin əvvəllərindən etibarən paytaxtımızın urbanizasiya prosesi yalnız yaşayış binalarının inşası ilə məhdudlaşmamış, həm də şəhərin memarlıq simasını kökündən dəyişən, irimiqyaslı və futuristik ictimai-idman mərkəzlərinin yaradılması xətti ilə inkişaf etmişdir. Bu baxımdan Milli Gimnastika Arenası (MGA) müasir Bakının şəhərsalma strategiyasında və idman memarlığının inkişafında müstəsna əhəmiyyət kəsb edən dinamik görünüşlü fundamental tikilidir.**

Arena 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunları ərəfəsində tikilərək istifadəyə verilən ilk irihəcmli obyektlərdən biridir. Onun şəhərsalma strukturuna inteqrasiyası Bakını növbəti illərdə Olimpiya Stadionu, Su İdmanı Sarayı kimi digər meqa-strukturlarla zənginləşəcək böyük bir "idman şəhəri" modelinə hazırladı. Bu gün arena təkcə lokal idman mərkəzi deyil, həm də Bakının dayanıqlı və müasir inkişafını nümayiş etdirən mühüm urbanistik simvoldur.

## Uzaqgörən şəhərsalma siyasəti

Milli Gimnastika Arenasının inşası Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və diqqəti sayəsində reallaşmışdır. Ölkə rəhbərinin Azərbaycanda idmanın kütləviliyini təmin etmək, Bakını qlobal idman paytaxtlarından birinə çevirmək və paytaxtın infrastrukturunu tamamilə müasirləşdirmək strategiyası bu layihənin təməl məqsədini təşkil etmişdir. Eyni zamanda Azərbaycanda gimnastika növlərinin misilsiz inkişafında, bu idman növünün kütləviləşməsində və arenanın dünya standartlarına cavab verəcək şəkildə formalaşmasında Azərbaycan Gimnastika Federasiyasının Prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır. Məhz bu ali dəstək və təşəbbüs nəticəsində Bakı dünyada analoqu az olan ixtisaslaşdırılmış idman saraylarından birinə sahib olmuşdur.

Mehriban xanım Əliyevanın 2002-ci ildə federasiya rəhbərliyinə seçilməsi ilə gimnastika sadəcə bir idman növü olmaqdan çıxaraq, milli qürur rəmzinə, Azərbaycanı dünyaya tanıdan strateji brendə çevrilmişdir. Birinci vitse-prezidentin uzaqgörən idman fəlsəfəsi, zərif estetik yanaşması və idarəçilik iradəsi bu gün bütün dünyanın heyranlıqla izlədiyi Azərbaycan gimnastika modelini yaratmışdır. Uzun illər xarici mütəxəssislərdən asılı olan bu sahədə Mehriban xanımın gərgin əməyi nəticəsində güclü yerli məktəb formalaşdırılmışdır. Bakının əsas nəqliyyat qovşaqlarından birində ucaldılan bu monumental tikili dünyada gimnastikanın bütün növləri üçün ixtisaslaşdırılmış yeganə və ən mükəmməl idman mərkəzlərindən biridir.

Arena Heydər Əliyev Beynəlxalq Hava Limanını şəhər mərkəzi ilə birləşdirən əsas magistralın üzərində – "Koroğlu" metro stansiyasının yaxınlığında inşa edilmişdir. Bu ərazi şəhərin "giriş qapısı" rolunu oynayır və Bakıya gələn qonaqlarda ilk müasir urbanistik təəssürat formalaşdırır. Layihə şəhərsalmanın ən mühüm tələblərindən biri olan "əlçatanlıq" prinsipini tam təmin edir. Metro, avtobus şəbəkələri və magistral yolların kəsişməsində yerləşməsi kütləvi tədbirlər zamanı minlərlə insanın əraziyə rahat gəliş-gedişini təşkil etməyə imkan verir.

MGA-nın inşası yaxınlıqdakı Böyükşor gölü ətrafının və köhnə sənaye obyektlərinin ekoloji cəhətdən bərpa edilməsi və urbanistik transformasiyası prosesinə də güclü təkan vermişdir. Tanınmış memarlıq bürosu "Broadway Malyan" tərəfindən layihələndirilən binanın xarici görünüşü dalğavari və lentşəkilli elementlərlə zəngindir. Bu dizayn bədii gimnastikanın zərifliyini, çevikliyini və hərəkət dinamikasını simvolizə edir. Binanın fasadına quraşdırılmış xüsusi xarici işıqlandırma (LED) sistemi axşam saatlarında arenanı nəhəng bir ekrana çevirərək ərazinin gecə panoramasında unikal estetik zövq yaradır. 9 mindən 9600-ə qədər tamaşaçı tutumu olan əsas zal idman yarışlarından əlavə, konsertlər və mədəniyyət şouları üçün saniyələr içində uyğunlaşdırıla bilən çoxfunksiyalı mühəndislik strukturuna malikdir.

Müasir şəhərsalmada binaların ətraf mühitə dost olması ən mühüm şərtdir. Binanın fasadındakı şüşələr xüsusi izolyasiya sisteminə malikdir. Bu sistem yayda daxili məkanı sərin, qışda isə isti saxlayaraq enerji sərfiyyatını minimuma endirir. Zalın döşəməsi və texniki asqı sistemləri elə qurulmuşdur ki, arena qısa müddətdə gimnastika xalçalarından voleybol meydançasına, cüdo tatamilərinə, hətta nəhəng konsert səhnəsinə və ya korporativ şou məkanına çevrilə bilir. Kompleksin daxilində eyni vaxtda bir neçə yüz idmançının məşq edə biləcəyi yardımçı zallar, xüsusi tibbi-reabilitasiya mərkəzləri, hotel tipli yaşayış otaqları və mətbuat konfransı zalları yerləşir. Bu isə arenanı avtonom idman şəhərciyinə çevirir.

## Mötəbər turnirlərin daimi ünvanı

2014-cü ildə qapılarını açan Milli Gimnastika Arenası qısa müddət ərzində dünya idman xəritəsinin ən nüfuzlu nöqtələrindən birinə çevrilmişdir. Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən dəfələrlə ən yüksək standartlara sahib məkan kimi qiymətləndirilən bu arenada möhtəşəm çempionatlar keçirilmişdir. AGF dünyada fəaliyyət göstərən yüzlərlə federasiya arasında reytinq cədvəllərində dəfələrlə ilk pillələrdə qərarlaşmışdır.

Arenada 2014-cü ildə bədii gimnastika üzrə 30-cu Avropa çempionatı, 2015-ci ildə I Avropa Oyunlarının gimnastika yarışları (akrobatika, aerobika, batut, bədii və idman gimnastikası üzrə), 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları (gimnastikanın müxtəlif növləri üzrə), 2018-ci ildə Dünya Cüdo Çempionatı, 2019-cu ildə Bədii Gimnastika üzrə 37-ci Dünya Çempionatı, 2021-ci ildə Batut gimnastikası və Tamblinq üzrə 35-ci Dünya Çempionatı, yenə də həmin ildə Akrobatika gimnastikası üzrə 28-ci Dünya Çempionatı və s. yarışlar keçirilmişdir. Bu irimiqyaslı turnirlərlə yanaşı, arena hər il mütəmadi olaraq gimnastikanın müxtəlif növləri üzrə dünya kuboku mərhələlərinə və beynəlxalq Qran-pri yarışlarına evsahibliyi edir.

AGF Prezidentinin strateji hədəflərindən biri gimnastikanı təkcə paytaxt Bakı ilə məhdudlaşdırmamaqdır. Mehriban xanımın təşəbbüsü ilə Gəncə, Sumqayıt, Kürdəmir, Şirvan, Naxçıvan, Lənkəran, Göyçay və digər bölgələrdə gimnastika bölmələri açılmış, minlərlə perspektivli uşaq bu idmana cəlb olunmuşdur. Hazırda gimnastika ölkədə sadəcə peşəkar idman növü kimi deyil, gənc nəslin fiziki-mənəvi sağlamlığının qorunması, uşaqların erkən yaşdan estetik zövqlə böyüməsi üçün sosial hərəkatdır. Bu addımlar minlərlə uşağın erkən yaşdan fiziki cəhətdən möhkəmlənməsinə və estetik zövqlə formalaşmasına imkan verir. Mehriban xanım Əliyevanın yaratdığı güclü idman sistemi sayəsində yerli məşqçilər, hakimlər və xoreoqraflar yetişmişdir. Azərbaycan gimnastları Olimpiya oyunlarına lisenziyalar qazanaraq Dünya və Avropa arenalarında bayrağımızı ucaltmış, ölkəmizə tarixi qələbələr bəxş etmişlər.

Mütəxəssislərin sözlərinə görə, şəhərsalmada yalnız ildə bir neçə dəfə istifadə olunan nəhəng binaların tikilməsi böyük səhv sayılır. Milli Gimnastika Arenası isə özünün daxili transformasiya (yığılıb-açılan tribunalar, çoxməqsədli döşəmə) imkanları ilə ilin 365 günü aktivdir. O həm yerli idmançıların məşq mərkəzi, həm dünya və qitə çempionatlarının arenası, həm də irimiqyaslı şou və konsertlərin keçirildiyi müasir urbanistik məkandır.

MGA təkcə mühəndislərin və rəsmi şəxslərin deyil, həm də burada hər gün çalışan, məşq edən idmançıların, uşaqlarını gimnastikaya etibar edən Bakı sakinlərinin və paytaxtımızın qonaqlarının dilində səmimi heyranlıqla təsvir olunur. Dünyanın müxtəlif qitələrindən gələn atletlərin rəyləri Bakının bu idman ocağına verdiyi dəyərin ən real göstəricisidir.

## Gələcəyə yönələn şəhərsalma mirası

Milli Gimnastika Arenası Bakının gələcək şəhərsalma modelini, dayanıqlı inkişaf templərini və sosial-urbanistik infrastrukturunu qabaqlayan uzaqgörən bir mirasdır. Bu monumental tikili paytaxtın gələcəyə yönəlmiş "Ağıllı və yaşıl şəhər" konsepsiyasının təməl daşlarından biri hesab olunur. Ona görə də bura Bakının idman paytaxtı statusunu qoruyan canlı və dinamik bir orqanizm hesab edilir. Dövlətimizin başçısının uzaqgörən şəhərsalma fəlsəfəsinin məhsulu olan saray həm paytaxt sakinlərinə bəxş etdiyi estetik zövqlə, həm də ölkəmizə gətirdiyi qlobal idman uğurları ilə Azərbaycanın müasir memarlıq tarixinin ən parlaq səhifələrindən birini təşkil edir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Paytaxtda axşam konsertləri davam edir

**Artıq üçüncü həftədir ki, Bakı Şəhər İcra Hakimiyyəti və rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə paytaxt sakinlərinin asudə vaxtlarının daha səmərəli təşkili məqsədilə Xətai rayonundakı "Nizami Gəncəvi", Nərimanov rayonundakı parklarda, Yasamal rayonundakı Meşə, Nizami rayonundakı Heydər Əliyev və Mərkəzi Nəbatat parklarında açıq hava konsertləri keçirilir.**





Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətinin verdiyi məlumata görə, həftə sonu sakinlərin və şəhərin çoxsaylı qonaqlarının sevimli istirahət yerlərindən olan paytaxtın bu beş istirahət məkanında növbəti dəfə kütləvi konsert proqramları təşkil edilib.

Qeyd edilməlidir ki, konsert proqramlarının təşkil edildiyi park və istirahət bağları paytaxt sakinlərinin ən çox üz tutduğu istirahət məkanları sırasındadır. Burada insanların asudə vaxtlarını rahat və mənalı keçirməsi üçün hər cür şərait yaradılıb. Geniş yaşıllıq zolaqları, istirahət guşələri və uşaq əyləncə meydançaları bu məkanları ziyarətçilər üçün cəlbedici edir. Gün ərzində uşaqlar bu ərazilərdə oynayır, ailələr piknik edir, gənclər və yaşlı nəslin nümayəndələri təmiz hava və sakit mühitdən zövq alaraq dincəlirlər. Bu parklar minlərlə sakinin sevimli görüş və istirahət ünvanına çevrilib.



Peşəkar və gənc ifaçılar, müxtəlif musiqi qruplarının iştirak etdiyi axşam konsertlərində xalq, milli və xarici estrada, klassik musiqi nümunələri, eləcə də müxtəlif instrumental ifalar səsləndirilib, Mərkəzi Nəbatat bağında təcrübəli pedaqoqlar uşaqlara ustad dəsləri keçiblər. Rəngarəng repertuarlar, canlı ifalar və xoş atmosfer parklara istirahət üçün üz tutan sakinlərə unudulmaz axşam yaşadıb.

Konsertlərdə iştirak edən ifaçıların çıxışları tamaşaçılar tərəfindən maraq və alqışlarla qarşılanıb. Sakinlər, xüsusilə konsertdə iştirak edən müxtəlif yaş qruplarına aid uşaqlar, gənclər xoş musiqilərin sədaları altında rəqs ediblər.

Axşam konsertləri bu həftənin şənbə günü də təşkil ediləcək.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2026-cı ilin sentyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | **Əhmədov Əli Cavad oğlu** | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>16, 28 (Bakı şəhəri) | Mais Günəşov +99451 277 0025<br>25sayli_sd@meclis.gov.az |
| 2. | **Əsgərov Ziyafət Abbas oğlu** | 09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12 (Naxçıvan MR, Şərur rayonu)<br>20 (Naxçıvan MR, Sədərək rayonu) | Günay Orucova +99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | **Qasımlı Musa Cəfər oğlu** | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>02 (Yardımlı rayonu)<br>24 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | **Hüseynov Rafael Baba oğlu** | 08 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>02 (Kürdəmir rayonu)<br>15 (Hacıqabul rayonu) | Ceyhun Ağayev +99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | **Abbasov Aqil Məhəmməd oğlu** | 05, 06 (Ağcabədi rayonu)<br>12, 13 (Füzuli rayonu) | Fərhad Əliyev +99451 230 3237<br>85sayli_sd@meclis.gov.az |
| 6. | **Ağamalı Günay Fəzail qızı** | 19 (Salyan rayonu)<br>26 (Biləsuvar və Neftçala rayonları) | Emin Xudiyev +99450 451 2676<br>65sayli_sd@meclis.gov.az |
| 7. | **Ağayeva Ülviyyə Cavanşir qızı** | 06, 20 (Tovuz rayonu)<br>07, 21 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | **Ağazadə Əminə Həmid qızı** | 19, 26 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | **Akimova Elnarə Seydulla qızı** | 09, 24 (Sumqayıt şəhəri) | İltifat Soltanov +99470 860 8644<br>46sayli_sd@meclis.gov.az |
| 10. | **Alıyev Sahib Eyvaz oğlu** | 03, 22 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99451 277 3003<br>93sayli_sd@meclis.gov.az |
| 11. | **Allahverənov Azər Kərim oğlu** | 10, 17 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | **Aran Səyyad Adil oğlu** | 12 (İmişli rayonu)<br>19 (Saatlı rayonu) | Pərvin Mahmudov +99450 255 1388<br>Ağa Abışov +99450 775 7477<br>82sayli_sd@meclis.gov.az |
| 13. | **Arpadarai Nigar Cavid qızı** | 16, 23 (Bakı şəhəri) | Nuru Əliyev +99450 341 7126<br>7sayli_sd@meclis.gov.az |
| 14. | **Aslanov Novruzəli Davud oğlu** | 03, 10, 17, 24 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 15. | **Badamov Azər Camal oğlu** | 05, 19 (Qusar rayonu) | General Sadulov +99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 16. | **Bayramov Kamran Fərhad oğlu** | 19 (Göygöl rayonu)<br>26 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 17. | **Bayramov Vüqar İbad oğlu** | 11, 18 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 18. | **Bədəlov Bədəl Şamil oğlu** | 12 (Goranboy rayonu)<br>26 (Naftalan şəhəri) | Gündüz Hacıyev +99450 364 9426<br>96sayli_sd@meclis.gov.az |
| 19. | **Bülbüloğlu Polad** | 17, 28, 29 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Aydan Hüseynova +99450 777 6725<br>124sayli_sd@meclis.gov.az |
| 20. | **Cəfərov Kamal Xaqani oğlu** | 13, 22 (Sabirabad rayonu) | Nazim Çələbiyev +99451 277 6000<br>68sayli_sd@meclis.gov.az |
| 21. | **Cəfərov Müşfiq Cəfər oğlu** | 04 (Gəncə şəhəri)<br>19 (Samux rayonu) | Sahib Əmiraslanov +99450 627 9252<br>41sayli_sd@meclis.gov.az |
| 22. | **Cəfərova Tamam Şaməmməd qızı** | 08, 22 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090<br>Nigar Aslanova +99450 5963438<br>88sayli_sd@meclis.gov.az |
| 23. | **Əfəndiyev Məzahir Cavid oğlu** | 17 (Göyçay rayonu)<br>29 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 24. | **Əfəndiyeva Günay Elçin qızı** | 17, 25 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99450 379 0095<br>14sayli_sd@meclis.gov.az |
| 25. | **Ələkbərov Əziz Yusif oğlu** | 12, 26 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 26. | **Əliyev Bəxtiyar Həmzə oğlu** | 10, 17 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 27. | **Əliyeva Jalə Fazil qızı** | 01, 10 (Zərdab rayonu) | Firdovsi Eyvazov +99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 28. | **Əli-zadə Arzuxan Baxşəli oğlu** | 05, 19 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Afsəddin Nəbiyev +99410 811 5447<br>27sayli_sd@meclis.gov.az |
| 29. | **Əmiraslanov Azər Kamal oğlu** | 22 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 25 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 30. | **Əmiraslanov Əhliman Tapdıq oğlu** | 25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>19, 26 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 31. | **Əsədov Heydər Xanış oğlu** | 18, 25 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888<br>51sayli_sd@meclis.gov.az |
| 32. | **Əsgərov Asif Yunis oğlu** | 05, 12 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 33. | **Feyziyev Cavanşir Əyyub oğlu** | 05, 26 (Şəki şəhəri) | Turan Salamov +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 34. | **Fətəliyeva Sevinc Həbib qızı** | 07, 24 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 35. | **Fətiyev Xanlar Nuru oğlu** | 08, 22 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 36. | **Gəncəliyev Tural Babaşah oğlu** | 03, 18 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 37. | **Hacıyev Sabir Kamal oğlu** | 07, 17 (Göyçay rayonu) | Orxan Rzayev +99410 110 0159<br>91sayli_sd@meclis.gov.az |
| 38. | **Həmzəyev Naqif Ələşrəf oğlu** | 12, 24 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 39. | **Həmzəyeva Ülviyyə Tapdıq qızı** | 02, 17 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Araz Xudiyev +99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 40. | **Həsənquliyev Qüdrət Müzəffər oğlu** | 12, 19 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |
| 41. | **Həsənov Malik Əvəz oğlu** | 12, 19 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99450 776 5522<br>71sayli_sd@meclis.gov.az |
| 42. | **Həsənov Nurlan Urfan oğlu** | 12, 19 (Şəmkir rayonu) | Anar Quluyev +99499 299 5599<br>103sayli_sd@meclis.gov.az |
| 43. | **Həsənova Afət Əbil qızı** | 16, 23 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 44. | **Hüseynli Əli Məhəmməd oğlu** | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 26 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 45. | **Hüseynov Aydın Nəsir oğlu** | 18, 25 (Bakı şəhəri) | Vüsal Yusifov +99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 46. | **Hüseynova Hicran Kamran qızı** | 14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>21, 29 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 47. | **Hüseynova Sevinc Əmirəhməd qızı** | 04, 18 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 277 0749<br>104sayli_sd@meclis.gov.az |
| 48. | **Xasayeva Səbinə Səməd qızı** | 16, 23 (Bakı şəhəri) | Gülnarə Məmmədli +99451 582 2505<br>11sayli_sd@meclis.gov.az |
| 49. | **İbrahimqızı Məlahət İbrahim qızı** | 10, 24 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 50. | **İbrahimli Fəzail Feyruz oğlu** | 14, 27 (Masallı rayonu) | Faiq Ağayev +99450 201 5670/<br>+99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 51. | **İbrahimov Eldar Rza oğlu** | 15 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 14 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306<br>4sayli_sd@meclis.gov.az |
| 52. | **İsgəndərov Anar Camal oğlu** | 24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 26 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 53. | **İskəndərov Vüqar Yapon oğlu** | 05, 19 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 54. | **İsmayılov İmamverdi İbiş oğlu** | 07, 14 (Sumqayıt şəhəri) | Məlahət Əzizova +99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 55. | **İsmayılov Şahin Əmir oğlu** | 30 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 26 (Beyləqan rayonu) | Çingiz Səfərov +99450 277 9536<br>83sayli_sd@meclis.gov.az |
| 56. | **İsmayılzadə Fariz Akif oğlu** | 05, 19 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7882<br>77sayli_sd@meclis.gov.az |
| 57. | **Kərimli Azər Şəmşid oğlu** | 05, 19 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363<br>111sayli_sd@meclis.gov.az |
| 58. | **Kərimzadə Pərvin Orxan qızı** | 07, 24 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 277 0368<br>39sayli_sd@meclis.gov.az |
| 59. | **Qafarov Kamaləddin Nəsrəddin oğlu** | 16, 23 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 60. | **Qafarov Vasif Vaqif oğlu** | 12 (Astara rayonu)<br>26 (Lerik rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 61. | **Qasımlı Mircəlil Xəqani oğlu** | 28 (Bakı şəhəri)<br>30 (Şamaxı rayonu) | Anar Əliyev +99470 255 9484<br>123sayli_sd@meclis.gov.az |
| 62. | **Qədirli Erkin Toğrul oğlu** | 14, 21 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 63. | **Qəhrəmanov Göydəniz İbrahim oğlu** | 10, 22 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 64. | **Quliyev Azay Əjdər oğlu** | 09, 16 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 65. | **Quliyev Eldar Allahyar oğlu** | 13, 27 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899<br>28sayli_sd@meclis.gov.az |
| 66. | **Quliyev Musa İsa oğlu** | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 26 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 67. | **Quliyev Ülvi Zahid oğlu** | 16, 23 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156<br>15sayli_sd@meclis.gov.az |
| 68. | **Qurbanlı Mübariz Qəhrəman oğlu** | 11 (Samux rayonu)<br>18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Elnur Tağıyev +99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 69. | **Qurbanov Eyvaz Daşdəmir oğlu** | 03, 19 (Oğuz şəhəri) | Səxavət Kərəmov +99470 510 6968<br>117sayli_sd@meclis.gov.az |
| 70. | **Qurbanov Sadiq Haqverdi oğlu** | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 26 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 71. | **Mahmudov Rəşad Məmmədqulu oğlu** | 12, 26 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770<br>79sayli_sd@meclis.gov.az |
| 72. | **Məhəməliyev Nəsib Məhəmməd oğlu** | 05, 19 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 73. | **Məhərrəmov Bəhruz Abdurrəhman oğlu** | 19, 27 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99450 277 0436<br>69sayli_sd@meclis.gov.az |
| 74. | **Məhərrəmzadə Əlibala Səttar oğlu** | 05, 26 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 75. | **Məmmədli Müşfiq Fazil oğlu** | 09 (Xızı rayonu)<br>14 (Siyəzən rayonu) | Nəsimi Əliyev +99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 76. | **Məmmədov Anar İlyaz oğlu** | 05, 19 (Tərtər rayonu)<br>06, 20 (Goranboy rayonu) | Elçin Cahangirov +99450 324 2791<br>97sayli_sd@meclis.gov.az<br>anarmammadov@meclis.gov.az |
| 77. | **Məmmədov Ceyhun Valeh oğlu** | 13 (Şirvan şəhəri)<br>27 (Cəbrayıl rayonu) | Rəşad Quliyev +99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 78. | **Məmmədov Elman Camal oğlu** | 02, 09 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 79. | **Məmmədov Hikmət Baba oğlu** | 09, 23 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |
| 80. | **Məmmədov İlham Kazım oğlu** | 12, 26 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 81. | **Məmmədov Qaya Məmməd oğlu** | 09, 17 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102<br>31sayli_sd@meclis.gov.az |
| 82. | **Məmmədov Məşhur Şahbaz oğlu** | 12, 19 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 83. | **Məmmədov Soltan Teymur oğlu** | 12, 19 (Bakı şəhəri) | Xətai Salmanov +99450 255 1446<br>12sayli_sd@meclis.gov.az |
| 84. | **Məmmədova Nigar Fikrət qızı** | 07, 21 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99451 277 0014<br>48sayli_sd@meclis.gov.az |
| 85. | **Məsimli Əli Əhməd oğlu** | 25 (Qax rayonu)<br>26 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 86. | **Mikayılova Sevil Əlirazı qızı** | 07, 14 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 87. | **Mirkişili Tahir Famil oğlu** | 16, 29 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211<br>43sayli_sd@meclis.gov.az |
| 88. | **Mirzəbəyli Elçin Əbdülrəhim oğlu** | 12, 19 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 89. | **Mirzəzadə Aydın Böyükkişi oğlu** | 11, 25 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 90. | **Mollazadə Asim Nazim oğlu** | 02, 16 (Bakı şəhəri) | Samir Quliyev +99455 223 7272<br>22sayli_sd@meclis.gov.az |
| 91. | **Möhbalıyev Səttar Suliddin oğlu** | 03 (Naxçıvan MR, Şahbuz rayonu)<br>17 (Naxçıvan MR, Kəngərli rayonu) | Rizvan Hüseynquliyev +99470 744 2537 /<br>+99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 92. | **Muradov Rövşən Şahbaz oğlu** | 02, 18 (Bakı şəhəri) | Rauf Nəcəfli +994 55 508 6055<br>124sayli_sd@meclis.gov.az |
| 93. | **Musabəyov Rasim Nəsrəddin oğlu** | 07, 21 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 94. | **Musayev Elşad Nəbi oğlu** | 12, 19 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 774 9919<br>10sayli_sd@meclis.gov.az |
| 95. | **Musayev Elşən Məmmədhənifə oğlu** | 11, 19 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 96. | **Mustafa Fazil Qəzənfər oğlu** | 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 14, 21 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 97. | **Nağıyev Arzu Nəsib oğlu** | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11 (Tovuz rayonu)<br>26 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 98. | **Namazov Ramid Zakir oğlu** | 07, 21 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986<br>50sayli_sd@meclis.gov.az |
| 99. | **Nəbiyev Rizvan Novruz oğlu** | 10, 24 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868<br>49sayli_sd@meclis.gov.az |
| 100. | **Nəsirov Elman Xudam oğlu** | 09, 23 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425<br>72sayli_sd@meclis.gov.az |
| 101. | **Novruzov Siyavuş Dünyamalı oğlu** | 09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 23 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |
| 102. | **Nurullayev Razi Qulaməli oğlu** | 04, 08 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 103. | **Nurullayeva Könül Oruc qızı** | 19, 29 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 /<br>+99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 104. | **Oruc Zahid Məhərrəm oğlu** | 21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 25 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 105. | **Paşayeva Gülşən Məmmədəli qızı** | 12, 19 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607<br>13sayli_sd@meclis.gov.az |
| 106. | **Paşazadə Cavanşir Hümmət oğlu** | 07, 14 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 107. | **Rafailov Anatoliy Xaimoviç** | 12, 26 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926<br>60sayli_sd@meclis.gov.az |
| 108. | **Rəhimzadə Vüqar Gəncəli oğlu** | 09 (Naxçıvan MR, Ordubad rayonu)<br>23 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | **Rüstəmxanlı Tənzilə Yolçu qızı** | 02, 24 (Neftçala rayonu) | Fərman Hüseynov +99450 339 7415<br>70sayli_sd@meclis.gov.az |
| 110. | **Rzayev Tahir Musa oğlu** | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15, 16, 28, 29 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | **Salmanova Səbinə Qədir qızı** | 17, 28 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 112. | **Seyidov Səməd İsmayıl oğlu** | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 21 (Qazax rayonu) | Qədir Mehtixanlı +99470 502 3932 /<br>+99455 678 4859<br>109sayli_sd@meclis.gov.az |
| 113. | **Seyidzadə Şahin Kamil oğlu** | 17 (Şamaxı və İsmayıllı rayonları)<br>29 (Qobustan rayonu) | Elman Mikayılov +99450 600 25 50<br>87sayli_sd@meclis.gov.az |
| 114. | **Səfərov Nizami Abdulla oğlu** | 09, 23 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767<br>106sayli_sd@meclis.gov.az |
| 115. | **Səmədzadə Ziyad Əliabbas oğlu** | 10, 24 (Bakı şəhəri) | Azad Quliyev +99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 116. | **Süleymanlı Mahir Tahir oğlu** | 11, 25 (Şabran rayonu) | Orxan Süleymanov +99455 319 1717<br>56sayli_sd@meclis.gov.az |
| 117. | **Şükürov Zaur Ramiz oğlu** | 07 (Bakı şəhəri)<br>14 (Abşeron rayonu)<br>21 (Sumqayıt şəhəri) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 118. | **Vəliyev Ağalar İsrəfil oğlu** | 04, 25 (Xaçmaz rayonu) | Teymur Mahmudov +99450 451 6102<br>57sayli_sd@meclis.gov.az |
| 119. | **Vəliyev Samir Əhməd oğlu** | 04, 16 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 120. | **Vəliyeva Mehriban Hidayət qızı** | 10, 23 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434<br>44sayli_sd@meclis.gov.az |
| 121. | **Vəliyeva Pərvanə Bulut qızı** | 07, 16, 30 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 122. | **Yıldırım Fatma Vidadi qızı** | 12, 19 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 123. | **Zabelin Mixail Yuryeviç** | 19, 26 (Bakı şəhəri) | Səfi Qasımov +99455 941 9898<br>34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.





# Mədəniyyət





● Ustad şairlərimiz

# Poeziyada yeri səhv düşməmişdi

**Yazdığı ilk şeirlərindən böyük oxucu sevgisi qazanmış Xalq şairi Qabil İmamverdiyev (Qabil) bənzərsiz əsərləri ilə ədəbiyyatımızı daha da zənginləşdirmişdir. Azərbaycan poeziyasının tanınmış və sevilən nümayəndələrindən olan şair əsərlərinin mövzusunu xalqımızın qəhrəmanlıqla dolu ulu keçmişindən, uğurlarla və zəfərlərlə yaşadığı bu günündən və sabahlarından almışdır. Ona görə də bütün zamanlarda əsərləri böyük maraqla oxunmuş və dillər əzbəri olmuşdur.**



Qabil 1926-cı ildə Bakıda dünyaya göz açıb. 1944-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) Dil və ədəbiyyat fakültəsinə qəbul olub. 1948-ci ildə ali təhsilini başa vuraraq əvvəlcə Yardımlıda, sonra Bakıda orta məktəb müəllimi işləyib. Bir müddət sonra isə məzunu olduğu ali təhsil ocağında laborant vəzifəsində çalışıb.

Xoş günlərin birində tale yolu Qabili "Azərbaycan müəllimi" qəzetinə gətirib. O, qısa müddət ərzində bu mətbu orqanda şöbə müdirinə qədər yüksəlib. Sonra "Kommunist" qəzetində tərcüməçi-redaktor, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi-dram verilişləri redaksiyasının məsul redaktoru, "Ədəbiyyat və incəsənət" qəzetində Poeziya şöbəsinin müdiri, "Azərbaycan" jurnalında baş redaktor müavini vəzifələrində işləyib. 1954-1956-cı illərdə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunun ali ədəbiyyat kurslarında təhsli alıb.

Qabili ucalıqlara qaldıran böyük yaradıcılığa gedən ədəbi yolu 1944-cü ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuş "Gəl baharım" şeiri ilə başlayıb. Bu şeir bütün yaradıcılığı boyu Qabilin ürəyini və yaradıcılq yollarını isidib. Elə buna görə də onun yazdığı şeir və poemaların çoxundan bahar təravəti duyulub.

Dərinməzmunlu şeirləri ilə poeziya aləminə gələn Qabilin 6 ildən sonra - 1950-ci ildə "Səhər açılır" adlı ilk kitabı işıq üzü görüb. Kitab ona böyük uğur gətirib. Şairin söz boğçasının ətrafına yüzlərlə, minlərlə poeziya həvəskarları toplaşıb. "Səhər açılır" sonrakı kitablara da yol açıb. Böyük həvəslə yazıb-yaradan Qabil müxtəlif illərdə "Mənim mavi Xəzərim", "Küləkli havalarda", "Qoy danışsın təbiət", "Vətəndaş sərnişinlər" və başqa kitabları ilə oxucularla görüşə gəlib. Əsərlərindən aydın görünür ki, şairin yaradıcılığında həyat həqiqətləri, torpağa bağlılıq, təbiətə və yer üzünün əşrəfi olan insanların taleyinə sonsuz məhəbbət poetik şəkildə təsvir olunub. Dövrünün tanınmış tənqidçiləri, ədəbiyyatşünasları onun şeir və poemaları haqqında xoş sözlər söyləmiş, yaradıcılığına yüksək dəyər vermişlər.

Qabilin həmişə sevilə-sevilə oxunan "Bakılı", "Qarışdırma", "Çörək", "Təmizlik", "Gülləbaran eylədilər", "Nəsimi bazarında", "Beşiyimdir - məzarımdır o mənim", "Dağlar", "Azərbaycan torpağı", "Azərbaycan əsgəri" kimi dərinməzmunlu şeir və poemaları məna dolğunluğu, mövzu zənginliyi və poetikliyi ilə elə ilk misralarından oxucunun ürəyinə yol tapır.

Vətənpərvərlik mövzusunu nəzmə çəkməyən, nəsrə gətirməyən şair, yazıçı tapmaq mümkün deyil. Qələm adamları vətənə, torpağa olan sevgilərini ən dəyərli, ən gözəl sözlərlə ifadə etməyə çalışıblar. Xalq şairi Qabil də bu mövzuda bir-birindən dəyərli şeirlər yazıb. Amma şairin bu şeirləri arasında "Vətən" şeiri daha çox sevilir. "Vətən" şeiri müəllifin yurda, torpağa olan sonsuz sevgisinin, məhəbbətinin parlaq ifadəsidir. Qabil Vətəni özündən, özünü də Vətəndən ayrı görmür. Şair istəklərini bu misralarla ifadə edir:

*Bir-birindən hər şey qopar, ayrılar -*
*Ayrılmayan bəs nə var?*
*Mən,*
*Vətən!*

Qabili oxuculara sevdirən, tanıdan, dillər əzbəri olan şeirlərindən biri də "Səhv düşəndə yerimiz"dir. Şair bu şeiri 1969-cu ildə qələmə alıb. Üstündən xeyli zaman keçsə də, şeirdə ifadə olunan ideya, fikir gücünü, qüdrətini, təravətini qoruyub saxlayıb. Əgər belə demək mümkünsə, şairin bu şeiri bütün zamanlarla ayaqlaşır, bütün nəsillərlə yol yoldaşlığı edir. Şairin də dahiliyi elə zamanlara sığmayan şeirlər yazmağındadı. Zaman nə qədər dəyişsə də, "Səhv düşəndə yerimiz" müasirləşir, gəncləşir. İndiki və gələcək nəsilərlə yanaşı addımlayır. İfadə etdiyi fikri özündə yaşada-yaşada bu gündən sabahlara aparır.

*Ağ biləklər, gül əllər*
*Tarlada qabar.*
*Bir qeyrətsiz yekəpər*
*Qızılgül satar.*
*Qeyrətsiz oluruq biz,*
*Səhv düşəndə yerimiz.*

Xalq şairi Qabilin bu şeiri yalnız sadə oxucuları, poeziya həvəskarlarını deyil, sənət adamlarını da, qələm dostlarını da heyran qoyub. Yaradıcılığı ilə həmişə oxucularını düşündürən mərhum şairimiz Cabir Novruz da bu şeiri bəyənərək ona layiqli qiymət vermişdir: "Qabilin "Səhv düşəndə yerimiz" şeirində qaldırdığı problem dünyəvi problemdir, o, bütün dövrlərdə, cəmiyyətlərdə mövcud olmuşdur, bu gün də mövcuddur".

Həmişə ehtiramla xatırlanan şair daim xalqımızı düşündürən, oxucularını mübarizəyə səsləyən bir-birindən dəyərli əsərlər yazmışdır. Müstəqilliyimizin ilk illərində ağır sınaqlarla üz-üzə qaldığımız illərdə şairin ürək yanğısı ilə yazdığı "Şəhid anası", "Qeyrət, a vətəndaşlar", "Oldu", "Xəcalət", "Birini elə, birini belə" və digər siyasi lirika nümunələri onu xalqın gözündə daha da ucaltdı. Qabil ömrünün sonuna qədər bir-birindən dəyərli əsərləri ilə bu ucalıqlardan heç vaxt enmədi.

Qabilin 90-cı illərdə yazdığı mübarizəyə, haqsızlığa, ədalətsizliyə qarşı çağırış şeirləri cəmiyyətdə böyük əks-səda doğururdu. Çünki şairin qələmindən çıxanlar xalqın ürəyindən süzülüb gəlirdi, onun fikrini, düşüncəsini, haqsızlığa qarşı etirazını ifadə edirdi. Başqa ziyalılarımız kimi Qabili də 1990-cı il yanvarın 20-də keçmiş ittifaq rəhbərliyi tərəfindən xalqımızın başına gətirdiyi 20 Yanvar faciəsi qəm dəryasına batırdı. Şair həmin günlərdə ağrı-acılarını yaşadığımız faciəyə "Mərsiyə" şeiri yazdı. Xalqımızın ağrı-acısından, göz yaşından yoğrulmuş bu şeir əl-əl gəzdi, dillər əzbəri oldu. Çünki bu şeirdə yalnız bir adama deyil, bir xalqın başına gətirilən qanlı faciə zamanı müstəqilliyimiz və azadlığımız uğrunda şəhid olan oğul və qızlarımıza yas tutulurdu. Nə qədər ağrılı, faciəli olsa da, şair bu şeirində xalqımızın kədərini, ahını, fəryadını göz yaşları içində ifadə edirdi:

*Tutulub vahimədən nitq bu gün, dil bu səhər,*
*Bəzəyib Abşeronu qanlı qərənfil bu səhər,*
*Bakı fəryad eləyir, gözdən axır sel bu səhər,*
*Gəmilər nalə çəkir, ərşə çıxır zil bu səhər.*
*Gecəni atəş ilə qırmızı dan eylədilər,*
*Xalqımı-millətimi gülləbaran eylədilər.*

Dövrünün dahi şəxsiyyətləri, siyasi xadimləri, yazıçı və şairləri zaman-zaman Qabilin yaradlıcılığına yüksək dəyər vermişlər. Ümummilli Lider Heydər Əliyev Xalq şairi Qabilin yaradıcılığı haqqında demişdir: "1989-1990-cı illərdə xalqımıza qarşı ədalətsizliklər olanda bir çoxları meydanlara gəlirdi, xalqımızın dərdi haqqında danışırdı, bəziləri isə gəlmirdi. Amma Qabil gəlib orada xalqın dərdini deyən adamlardan biri idi. Ona görə də Qabilin həm fəaliyyəti, həm də yaradıcılığı, şeiri böyük mənəviyyat kəsb edir, yenə də deyirəm, onun vətəndaşlıq mövqeyini əks etdirir və siyasi xarakter daşıyır. Qabilin Nəsimi haqqında yazdığı mənzum roman mənim yaxşı xatirimdədir. Bu, həqiqətən, dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil. Qabil bunun öhdəsindən gəldi".

Xalq şairi Qabilin ədəbiyyatımız və xalqımız qarşısındakı xidmətləri, ədəbi və ictimai fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Şair "Şöhrət" və "İstiqlal" ordenlərinə layiq görülüb.

Qabil 2007-ci il aprelin 4-də dünyasını dəyişib.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Ömürlər, talelər

# Səsi xoşbəxtliyi, peşəsi taleyi idi

**Ürəyəyatımlı, qəlboxşayan, məlahətli səsi olmaq da Tanrının bir lütfüdür, insana bəxş etdiyi bəxtəvərlikdir. Təəssüf ki, bu bəxtəvərlik hər adama nəsib olmur, yalnız seçilmişlərin qismətinə düşür. O da səsi ilə tanınır, sevilir və tarixdə pozulmaz izlər qoyur.**



Xalq artisti, illər uzunu Azərbaycan Televiziyasında diktor işləmiş Rafiq Hüseynov da bəxtəvər insan idi. Onun bənzərsiz səsi eşidənləri elə ilk andan sehrinə salıb heyran qoyurdu. Həm şəxsiyyətli görkəmi, həm də ciddi səsi ilə Rafiq Hüseynov televiziya tamaşaçılarının rəğbət və hörmətini qazanmışdı.

Əgər yaşasaydı, bu günlər Rafiq Hüseynov doğmaları ilə bərabər 80 yaşını qeyd edəcəkdi. O dostları ilə salamlaşıb şirin-şirin danışacaq, maraqlı söhbətlər edəcəkdi. Yaxınları onun səsinə qulaq asmaqdan doymayacaqdı. Amma nə edəsən ki, hökmü zaman verir, ömür əbədi deyil, gəldi-gedərdi.

Rafiq Hüseynovun səsi kimi, yaşadığı ömür də fərqli olub. O, 4 avqust 1946-ci ildə Şuşa şəhərində dünyaya göz açıb. Sonra ailə vəziyyəti ilə əlaqədar Bakıya köçüblər, İçərişəhərdə yaşayıblar. Tanınmış aktyor Ceyhun Mirzəyevlə eyni sinifdə oxuyub. Söz düşmüşkən, Ceyhunla bərabər onu da "Ögey ana" filminə dəvət ediblər. Hansı səbəbdənsə atası çəkilməyə icazə verməyib. Buna görə də Rafiq Hüseynov filmin çəkilişlərinə qatılmayıb.

Təəssüflər olsun ki, hələ kiçik yaşlarından həyat onun üzünə gülməyib. Ömrünün ən qaynar çağında - 15 yaşında ata itkisinin ağrısını yaşayıb. Hakim işləyən anası həyat yoldaşı dünyasını dəyişəndən sonra özündə güc taparaq övladlarını böyüdüb.

Orta məktəbi yüksək göstəricilərlə başa vurduqdan sonra Rafiq Hüseynov şərqşünas olmaq arzusu ilə Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universitetinə) üz tutub. Amma hansı səbəbdənsə sənədlərini qəbul etməyiblər. Ailənin dolanışığına kömək etmək üçün işləməkdən başqa yolu qalmayan 17 yaşlı Rafiq iş axtarmağa başlayıb. Axtara-axtara yolunu Azərbaycan Televiziyasından da salır. "Hansı işi bacarırsan", - deyə ondan soruşanda "Nə iş versəniz işləyərəm" - deyir. Hazırcavablığı, mülayim davranışı onu sorğu-sual edənlərə xoş gəlir. Buna görə də gənc Rafiq Hüseynovu işıqçı işinə götürürlər. R.Hüseynov televiziyanın sehrinə düşür, bu sahəyə ürəkdən bağlanır.

2 il işıqçı işləyən Rafiq Hüseynov yavaş-yavaş püxtələşir, həyat təcrübəsi artır, dünyagörüşü formalaşır, televiziya işini müəyyən qədər mənimsəyir. 1966-cı ildə AzTV-də diktorlar müsabiqəsi keçiriləndə proqram direktoru Tofiq Axundovun təklifi ilə bu müsabiqədə Rafiq Hüseynov da iştirak edir. Amma sınaq zamanı rus məktəbini bitirdiyinə görə Azərbaycan dilində səlis danışa bilmirdi. Bu səbəb ona ilk dəfə qatıldığı müsabiqədə uğur qazanmağına mane olur. Amma növbəti müsabiqədə yüksək nəticə göstərərək qalib gəlir, tale üzünə gülür, Rafiq Hüseynov sınaq müddətinə işə götürülür. 1966-cı ilin dekabrında diktor kimi ilk dəfə efirə çıxır. Nə qədər təcrübəli olsa da, ilk efir zamanı həyəcanlanır. Bu həyəcan mətni oxuyanda onun müəyyən qüsurlara yol verməsinə səbəb olur. O illər Mərkəzi Komitədə televiziyaya nəzarət edənlər zəng vurub narazılıqlarını bildirir, onun televiziyadan uzaqlaşdırılmasını tələb edirlər. Gözləmədiyi bir vaxtda gözləmədiyi vəziyyətlə üzləşən Rafiq Hüseynova həmin vaxt AzTV-nin sədr müavini işləyən Nəbi Xəzri kömək edir. Mərkəzi Komitədə oturanlara bildirir ki, onun həyəcanlanıb çaşdığına baxmayın, bu istedadlı oğlanın parlaq gələcəyi var. Amma Rafiq Hüseynovu işdən çıxarmasalar da, efirdən uzaqlaşdırırlar. Bir müddət radioda işləməli olur. Burada təcrübə və səriştəsini daha da artırır. Radioda işləməyi 7 aya qədər davam edir. Bundan sonra yenidən televiziyaya, efirə qayıdır. Artıq bu dəfə həyəcanlanmadan, çaşmadan verilişlər aparır, diktorluq edir.

Televiziyanın ilk diktorları olmuş, bu yolda ilk cığırlar açmış, özlərindən sonra zəngin yaradıcılıq təcrübəsi qoymuş Nəcibə Məlikova, Tamara Gözəlova, Nizami Məmmədov, Aydın Qaradağlının ənənələrini uğurla davam etdirən Rafiq Hüseynov Azərbaycan teleməkanında xeyli tanınmış və tamaşaçı sevgisi qazanmış Sabir Ələsgərov, Davud Əhmədov, Hicran Hüseynov, Roza Tağıyeva, Natəvan Hacıyeva, Ofelya Sənani, Şərqiyyə Hüseynova, Həqiqət Əsgərzadə, Tamilla Ələkbərova, Gülşən Əkbərova və başqaları ilə çiyin-çiyinə işləyirdi.

Həmkarlarına həmişə hörmət və diqqətlə yanaşan Rafiq Hüseynov çalışdığı televiziya üçün gənc kadrların hazırlanmasına da diqqətlə yanaşırdı. Gənc kadrlara dəyərli məsləhət və tövsiyələr verir, bacarığını, əməyini bu işdən əsirgəmirdi. Sonralar televiziya məkanında böyük hörmət və rəğbət qazanmış Rafiq Həşimov, Nailə İslamzadə, Akif Nərimanoğlu, Aygül Qaradağlı, Nərgiz Cəlilova, Sevda Ağazadə, Dilarə Səlim və başqa diktorların ekrana çıxmalarında onun böyük əməyi olmuşdu.

Səmərəli fəaliyyətinə, gördüyü böyük yaradıcılıq işlərinə görə 1990-cı ildə Xalq artisti adına layiq görülən Rafiq Hüseynov çox keçmir ki, təcrübəsi, bacarığı, peşəkarlığı ilə Moskvanın da diqqətini cəlb edir. Çünki o, aparıcısı olduğu verilişlərində alimlə alim, politoloqla politoloq, sənətçi ilə sənətçi kimi ünsiyyət qururdu. Zamanı qabaqlayan fikir və düşüncələri ilə tamaşaçılarını heyran qoyur, müsahibləri ilə maraqlı dialoqlar qururdu. Bütün bunları nəzərə alan Mərkəzi Televiziya ona ali dərəcəli diktor statusu verir. Rafiq Hüseynov bir müddət AzTV-nin sədr müavini vəzifəsində də çalışmışdı.

1990-cı ildə - soyuq bir qış gecəsində keçmiş ittifaq rəhbərliyinin xalqımızın başına gətirdiyi 20 Yanvar faciəsi hamımızın ürəyini, qəlbini yandırdı. Azərbaycan xalqını həmin faciədən məlumatsız qoymaq üçün keçmiş sovet ordusunun təxribatçı qrupları Azərbaycan Televiziyasının enerji blokunu partlatdılar. Uzun müddət televiziyanın ekranı qaranlığa büründü. İşıqlananda isə efirdə Rafiq Hüseynov göründü. Diktorun əvvəlki ovqatından əsər-əlamət yox idi, xalqın övladı kimi o da yas içində idi, başımıza gətirilən bu faciə hamı kimi onu da sarsıtmışdı. Sonralar məlum oldu ki, diktor efirə çıxmazdan əvvəl ağır sınağa məruz qalıb. Moskvadan təyin olunmuş hərbi komendant veriliş zamanı ona içi xalqımıza qarşı yalanlarla, hədyanlarla dolu olan hazır mətn verib. Deyib ki, sən Azərbaycanda hörmətli diktorsan, sənin şəxsiyyətinin, səsinin insanlara təsir gücü var, ona görə də bu mətni mütləq sən oxumalısan. Rafiq Hüseynov isə milli mənafeyə zidd olan həmin mətni oxumaqdan imtina edərək qürurla: "Mənim bunu oxumağım xalqa xəyanət olar" - deyərək generalın təklifindən imtina edib.

Həmin ərəfədə cəmiyyətdə gedən siyasi proseslərə qoşulmamaq, yalan xəbərləri xalqa çatdırmamaq, əvvəlki nüfuzunu qoruyub saxlamaq və başqa səbəblərdən Rafiq Hüseynov öz ərizəsi ilə AzTV-ni tərk edib. Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda müəllim işləyib. 2000-ci ilin əvvəllərində teleradio rəhbərliyinin dəvəti ilə doğma məkana, AzTV-yə qayıdaraq teleaparıcılar qrupuna rəhbərlik edib.

Amma tutulduğu xəstəlik Rafiq Hüseynova fəaliyyətini uzun illər davam etdirməyə imkan verməyib. Müayinə zamanı diktorda ağciyər xərçəngi aşkar olunub. Müalicə almaq üçün Almaniyanın Düsseldorf şəhərinə yollanıb. Təəssüf ki, orada da xəstəliyinə əlac edə bilməyiblər. O, 26 oktyabr 2017-ci ildə həmin klinikada dünyasını dəyişib.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Meksikalı rejissorun filmi X "DokuBaku" festivalının proqramına daxil edilib



**Azərbaycan Kinematoqrafçılar İttifaqında (AKİ) Meksikanın Azərbaycandakı səfiri Viktoriya Romero, Mədəniyyət attaşesi Aristeo Gonzalez Guerrero, səfirliyin əməkdaşı Günel Hacıyeva və "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalının ("DokuBaku" BSFF) komandası arasında görüş olub.**

AKİ-dən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan və Meksika arasında kino, xüsusilə də sənədli film sahəsində əməkdaşlığın genişləndirilməsi, iki ölkə arasında mədəni mübadilənin gücləndirilməsi, yaradıcı və peşəkar əlaqələrin inkişaf etdirilməsi, eləcə də gələcəkdə birgə kino layihələrinin həyata keçirilməsi imkanları müzakirə olunub.

Söhbət zamanı meksikalı rejissor Roberto Ortizin "Mələklər" futbol komandası" ("Angeles FC") sənədli filmi bu il "Ulduz Sivilizasiyası" ("Stellar Civilization") mövzusuna həsr olunan və oktyabrın 5-dən 11-dək Bakıda keçiriləcək X "DokuBaku" BSFF-in "DokuKids" bölməsinin proqramına seçilib.

Uşaqlar üçün nəzərdə tutulan "DokuKids" bölməsi sənədli kino vasitəsilə gənc tamaşaçıların dünyagörüşünü genişləndirməyi, onları müxtəlif mədəniyyətlər və həyat hekayələri ilə tanış etməyi qarşısına məqsəd qoyur. Layihə, eyni zamanda fərqli baxış bucaqlarına açıq və tənqidi düşünən gənc nəslin yetişməsinə töhfə verməyi hədəfləyir.

Görüşdə, həmçinin rejissor Roberto Ortizin "DokuBaku" BSFF-də iştirakı və festival çərçivəsində Bakıya səfərinin təşkili ilə bağlı məsələlər müzakirə edilib. Bununla yanaşı, rejissorun iştirakı ilə "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı, Azərbaycan Kinematoqrafçılar İttifaqı və Meksikanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə vörkşop və ustad dərsinin keçirilməsi imkanları nəzərdən keçirilib.

Görüş Azərbaycan və Meksika arasında kino sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, yaradıcı və peşəkar əlaqələrin genişləndirilməsi, eləcə də iki ölkənin kino mədəniyyətləri arasında yeni əlaqələrin və əməkdaşlıq platformalarının yaradılması baxımından mühüm addım kimi qiymətləndirilib.

Görüşdən sonra qonaqlar AKİ-nin kinozalı ilə tanış olublar və ittifaqın fəaliyyəti barədə məlumat alıblar.

# Maestro Niyazinin anadan olmasının 114-cü ildönümü qeyd olunub



**Görkəmli dirijor və bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı maestro Niyazinin anadan olmasının 114-cü ildönümü münasibətilə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin mənzil-muzeyində tədbir keçirilib.**

Əvvəlcə Mədəniyyət Nazirliyinin nümayəndələri, tanınmış mədəniyyət və ictimaiyyət xadimləri, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin rəhbərliyi və əməkdaşları I Fəxri xiyabana gələrək maestro Niyazinin məzarını ziyarət edib, önünə gül dəstələri düzüblər.

Daha sonra Niyazinin mənzil-muzeyində tədbir keçirilib. Tədbirdə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, sənətşünaslıq elmləri doktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova və Niyazinin mənzil-muzeyinin müdiri, Əməkdar mədəniyyət işçisi Rza Bayramov çıxış ediblər.

Çıxışlarda maestro Niyazinin Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı müstəsna xidmətlərindən, dirijor və bəstəkar kimi zəngin yaradıcılıq irsindən, milli musiqimizin təbliği və dünya miqyasında tanıdılmasında mühüm rolundan bəhs olunub. Qeyd edilib ki, Niyazinin sənət irsi Azərbaycan musiqi mədəniyyətinin ayrılmaz hissəsidir və onun yaradıcılığı bu gün də musiqi ictimaiyyəti üçün mühüm əhəmiyyət daşıyır.

Tədbir bədii hissə ilə davam edib.

Konsert proqramında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib. Rəngarəng musiqi proqramı Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin zəngin kolleksiyaları əsasında hazırlanmış, maestro Niyazinin həyat və yaradıcılıq yolunu əks etdirən slayd-şou ilə müşayiət olunub.

BEYNƏLXALQ HƏYAT

# Fransada prezident seçkiləri: Rafael Qlüksman mübarizəyə qoşulur

## "Ölkəmizin nəyə çevrildiyinə və yaxın aylarda nəyə çevrilə biləcəyinə baxanda ürəyimiz ağrıyır"

**İndi siyasətlə məşğul olan keçmiş siyasi şərhçi Rafael Qlüksman gələn il Fransada keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürüb. Mərkəz-solçu Place Publique partiyasına rəhbərlik edən 46 yaşlı keçmiş esseist və Avropa parlamentinin üzvü TF1 telekanalına verdiyi müsahibədə namizədliyini rəsmi olaraq təsdiqləyib.**



O, "Fransanın gələcəyi ilə bağlı bir baxışı" olduğunu bildirib və fransızları "Marin Le Pen ilə Tramp və Putinin nökərləri arasında" seçim qarşısında qoymağa hazır olmadığını vurğulayıb: "Fransanı yenidən ayağa qaldırmaq üçün namizədliyimi irəli sürürəm, çünki bildiyiniz kimi, ölkəmizin nəyə çevrildiyinə və yaxın aylarda nəyə çevrilə biləcəyinə baxanda ürəyimiz ağrıyır".

Siyasətçi solçuların ilkin seçkilərində iştirak edəcəyini və namizədliyi irəli sürülməyəcəyi halda qaydalara riayət edəcəyini təsdiqləyib. "Əgər qalib gəlsəm, Jan-Lük Melanşonla artıq heç vaxt razılaşma olmayacaq", - deyə o, aydınlıq gətirib. Siyasətçi "ekoloji keçid"in prezidenti olmaq, "super varlılara vergi tətbiq etmək" və məktəbləri prioritetlərinin mərkəzinə qoymaq niyyətindədir.

Fransanın ifrat sağçı lideri Marin Le Pen üç uğursuz cəhddən sonra 2027-ci il seçkilərini Yelisey Sarayını qazanmaq üçün ən yaxşı şansı kimi görür. Lakin bir çox namizəd artıq həm Prezident Emmanuel Makronun mərkəzçi düşərgəsində (o, iki müddətdən sonra yenidən namizədliyini irəli sürə bilməyəcək), həm də solçular arasında namizəd olacaqlarını elan ediblər.

Radikal solçu lider Jan-Lük Melanşon da dördüncü müddətə namizədliyini irəli sürüb. Ətraf mühitin müdafiəçisi Marin Tondelye isə hamilə olmasına baxmayaraq, vahid ilkin seçki kampaniyası çərçivəsində mübarizə aparır. Keçmiş ekologiya naziri Delfina Batto ətraf mühit hərəkatının "yox olmasının" qarşısını almaq üçün namizədliyini elan edib. Onlardan əlavə, Sosialist Partiyasının birinci katibi Olivye For və hətta keçmiş sosialist prezident Fransua Olland da yarışa qatılmağı düşünürlər. Ümumiyyətlə, "Nouvel Obs" jurnalı 2026-cı ilin iyun ayında elan edilmiş və ya rəsmi olaraq qeydiyyatdan keçmiş 25-dən çox namizədin adını açıqlayıb.

# Qvineyada sürüşmə nəticəsində 30 nəfər həlak olub

**Bazar günü Qvineyada zibil poliqonunda baş verən sürüşmə nəticəsində ən azı 30 nəfər həlak olub, 22 nəfər yaralanıb. Hökumət dağıntılar altında qalmış cəsədləri axtarmaq və çıxarmaq üçün əhəmiyyətli maddi və insan resurslarını səfərbər etdiyini açıqlayıb.**



Paytaxtın ətrafı olan Qbessiya şəhərinin Dar es Salam rayonunda səhər saat 2-3 radələrində güclü yağışdan sonra "zibil dağı" çöküb. Sel bir neçə evi, çadırı və daxmanı dağıdıb.

Baş nazir Amadou Ouri Bah hadisə yerinə gəlib və zərərçəkənlərə tibbi yardım və dəstək göstərmək üçün tədbirlər görüldüyünü deyib.

Dar es Salam poliqonu paytaxt Konakrinin kənarındakı ən böyük açıq zibilxanadır. Hadisədən bir neçə gün əvvəl hakimiyyət orqanları çökmə təhlükəsi ilə əlaqədar poliqonun yaxınlığında yaşayan sakinlərə köçürmə əmri vermişdi. Çoxları getmişdi, lakin bəziləri fəlakət zamanı orada qalmışdı.

Qvineya minerallarla zəngindir və alüminium istehsalı üçün əsas xammal olan dünyada ən böyük boksit ehtiyatlarına malikdir. Ölkədə həmçinin dəmir filizi, qızıl, brilyant və digər mineral yataqları da var. Buna baxmayaraq, Dünya Bankının məlumatına görə, əhalisinin 43,7 faizi milli yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. 15 milyon insanın təxminən 3,7 milyonu gündə 3,60 avro ilə yaşamağa məcburdur.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Neft bahalaşır

**Qlobal iqtisadiyyat həssas bir tarazlıq üzərində qurulub. Bu tarazlığın mərkəzində isə əsasən qara qızıl, neft dayanır. Son dövrlərdə birjalardakı gərginlik dövlətlərlə yanaşı, hər bir sadə istehlakçını da dərindən narahat edir. Dünyanın aparıcı enerji mərkəzlərində neftin qiyməti durmadan yüksəlir, bu isə qlobal miqyasda yeni iqtisadi dalğalanmanın xəbərçisidir.**




Beynəlxalq Enerji Agentliyinin, ABŞ Energetika İnformasiya Administrasiyasının və Dünya Bankının analitik hesabatlarından aydın olur ki, Yaxın Şərqdə yaşanan hərbi-siyasi gərginliklər və logistik qırılmalar səbəbindən enerji qiymətləri son illərin ən kəskin hədlərinə doğru irəliləyir. Təbii qaz bazarındakı qiymət artımları ilə paralel şəkildə neft sektorunda dalğalanmaların dərinləşməsi "enerji təhlükəsizliyi" anlayışını yenidən gündəmin ilk sıralarına daşıyır. Necə ki, Avropada təbii qazın bahalaşması Yaxın Şərqdəki böhranlar və Hörmüz boğazındakı nəqliyyat maneələri ilə birbaşa əlaqədardır, neft bazarındakı bahalaşmanın da kökündə məhz həmin məsələlər dayanır.

Qeyd edək ki, qlobal neft tədarükünün əsas damarlarından biri məhz Hörmüz boğazıdır. Bu strateji marşrutdan daşımaların məhdudlaşması və ya bəzi dövrlərdə təhlükəsizlik səbəbindən dayandırılması dünya bazarlarına çıxarılan xam neft həcmini kəskin şəkildə azaldır. Beynəlxalq təşkilatların məlumatlarına görə, qlobal neft ehtiyatları son dövrlərdə görünməmiş dərəcədə sürətlə əriyib. Ehtiyatların azalması fond birjalarında və treyderlər arasında ciddi təşviş yaradır.

Hərbi münaqişələr və risklər nəticəsində bir sıra böyük neft yataqlarında hasilatın məcburi şəkildə dayandırılması və ya həcmlərin azaldılması beynəlxalq təklif qıtlığını daha da dərinləşdirir. Bütün bu amillərin nəticəsidir ki, "Brent" markalı xam neftin qiyməti bir barel üçün 85-95 dollar və daha yuxarı rəqəmlər ətrafında dəyişir. Bazarda təklif ilə tələb arasındakı balansın pozulması qiymətlərin aşağı düşməsinə imkan vermir.

Neftin bahalaşması heç vaxt bir sektorla məhdudlaşmır. Yanacaqdoldurma məntəqələrindəki qiymət artımı prosesin yalnız görünən tərəfidir, əsl təsir bütün iqtisadiyyatı əhatə edən böyük bir dəyişiklikdir. Enerji daşıyıcılarının bahalaşması qlobal miqyasda fabriklərin, sənaye müəssisələrinin işləmə xərclərini artırır. Nəticədə daşımalar, beynəlxalq logistika və yükdaşıma tarifləri bahalaşır. Logistika və istehsal xərclərinin artması ərzaq məhsullarının qiymətlərinə yüksəldici təsir göstərir. Qara dəniz regionundakı logistik pozuntular, infrastruktur çətinlikləri və sabit bioyanacaq tələbatı səbəbindən, günəbaxan yağı kimi qlobal yeməli yağlar metrik ton üçün orta hesabla 1,370-1,600 dollar civarında qiymət təzyiqi ilə üzləşib. Xam neftin bir barel üçün 88,50 dollar ətrafında hərəkət etdiyi bir dövrdə bu cür xammal qiymətləri istehlak səbətinə də təsir edir. Tarladan masaya qədər hər bir mərhələdə yanacaq və enerji xərcləri rol oynadığı üçün bu, istehlak səbətində də əks olunur.

Dünya Bankının təhlillərinə görə, enerji qiymətlərindəki artım templəri səbəbindən bir çox dövlətlər yenidən sərt inflyasiya təzyiqləri ilə üz-üzə qalıb. Ona görə ərzaq təhlükəsizliyi və istehlakçıların qorunması məqsədilə dövlətlər tərəfindən sərt tənzimləmə tədbirləri görülür. Məsələn, cari ilin iyul ayında Cənubi Koreyanın rəhbərliyinin soya sousu və yeməli yağlar üçün "tam GMO etiketlənməsi" sistemini tətbiq etməsi səbəbindən qlobal bazarlardakı qiymət artımları hökumətləri əlavə nəzarət sistemlərinə əl atmağa vadar edir. Avropa və Asiya bazarlarında yanacaq məhsullarının, dizel və təyyarə yanacağının ixracındakı fasilələr sənaye sahələrini alternativ enerji mənbələrinə yönəlməyə məcbur edir. Lakin qısamüddətli dövrdə neftdən asılılığı tamamilə aradan qaldırmaq mümkün olmadığı üçün qiymət artımının ağır yükü sonda istehlakçının üzərinə düşür.

Dünya neft bazarındakı mövcud mənzərə bir həqiqəti açıq göstərir: hərbi münaqişələr aradan qalxmalı, sülh və təhlükəsizlik təmin olunmalıdır. Logistik dəhlizlər təhlükəsiz rejimdə bərpa olunmayınca qiymətlərdə stabillikdən danışmaq çətindir. Həm təbii qazın, həm də neftin bahalaşması qlobal enerji sisteminin nə qədər həssas və kövrək olduğunu bir daha sübut edir.

*Təhminə VERDİYEVA, "Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



# "BANK RESPUBLİKA" ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!

## "BANK RESPUBLİKA"ASC SƏHMDARLARININ NÖVBƏDƏNKƏNAR ÜMUMİ YIĞINCAĞI

**24 sentyabr 2026-cı il tarixində saat 12:00-da, Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş Ofisində keçiriləcək.**

**Gündəlikdəki məsələlər:**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC-nin nizamnamə kapitalının artırılması haqqında.
4. "Bank Respublika" ASC-nin nizamnaməsinə əlavə və dəyişikliklərin təsdiq edilməsi haqqında.
5. "Bank Respublika" ASC-nin Səhmdarlarının Ümumi Yığıncağının 24 iyul 2026-cı il tarixində keçirilmiş iclasında bəzi məsələlər üzrə qəbul edilmiş qərarlara yenidən baxılması və həmin məsələlər üzrə müvafiq qərarların qəbul edilməsi haqqında.
6. "Bank Respublika" ASC tərəfindən aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan müqavilə(lər)in təsdiq edilməsi.
7. "Bank Respublika" ASC-nin Müşahidə Şurasının tərkibi haqqında.
8. Digər məsələlər.

***"Bank Respublika" ASC***


# Azərbaycan Premyer Liqası: "Neftçi" - "Araz-Naxçıvan" - 5:0

**Bakının "Neftçi" futbol komandası Azərbaycan Premyer Liqasının II turunda "Palms Sports Arena"da keçirilən qarşılaşmada "Araz-Naxçıvan"ı darmadağın edib - 5:0.**

Bu nəticə ilə xallarını 6-ya çatdıran "Neftçi" liderliyə yüksəlib. İkinci pillədə qərarlaşan "Zirə"nin də 6 xalı var. Üçüncü yerdə 4 xalla "Turan-Tovuz" qərarlaşıb.

Bir həftədən sonra keçiriləcək növbəti III turda "Zirə" eyniadlı qəsəbə stadionunda "Neftçi"ni qəbul edəcək.

*R.CƏFƏROV, "Azərbaycan"*




# Bəzi yerlərdə havanın temperaturu 41°-dək artacaq

Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz olacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-26°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz olacağı gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 34-39°, bəzi yerlərdə 40°-dək isti, dağlarda gecə 14-18° isti, gündüz 23-28° isti olacağı ehtimal edilir.



Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 35-39°, bəzi yerlərdə 40-41°-dək isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 23-28°, bəzi yerlərdə 32-36°-dək isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-19°, gündüz 23-28°, bəzi yerlərdə 32-36°-dək isti olacaq.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 33-38° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 31-36° isti, dağlarda gecə 14-18°, gündüz 23-28° isti olacağı ehtimal edilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 34-39°, bəzi yerlərdə 40°-dək isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Gecə və səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-25°, gündüz 32-37° isti, dağlarda gecə 19-21°, gündüz 28-30° isti olacağı proqnozlaşdırılır.


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3316**
**Sifariş 1085**

**Qiyməti 60 qəpik**